Xalqın qəzeti!

# Xalq qəzeti

№ 122 (30238) 10 iyun 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Burada Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Şərq–Qərb dəhlizi, Şimal–Cənub dəhlizi Ələtin ərazisindən keçir. Məhz buna görə Ələt bu məqsədlər üçün seçilmişdir.**

# Azərbaycandan dünyaya açılan qapı

### *Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib.**

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektardır. Azad İqtisadi Zonanın ilkin inkişaf mərhələsi olan 60 hektar ərazidə (Zona 1, Mərhələ 1) tikinti işlərinə başlanılıb və bir sıra işlər görülüb. Belə ki, investorlara icarəyə veriləcək torpaq sahələri inşaat üçün artıq hazırdır. Ümumi sahəsi 297 min kvadratmetr olan torpaq sahələrinin daxilində su, kanalizasiya, işıq, qaz, rabitə şəbəkələrinə birləşmə nöqtələri təmin edilib. Burada, həmçinin istifadəyə hazır ərazi-daxili və ərazi-xarici mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Zona 1 ərazisinin əsas girişində gömrük-keçid məntəqələri, həmçinin gömrük yoxlanışlarının aparılması üçün binalar inşa olunub.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycanın gücü Cənubi Qafqazın yeni düzən faktorudur

**Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi üzrə Qərb formatı aktivdir. Bu aktivlik istər-istəməz Rusiya formatının passivliyi reallığını doğurmaqdadır. Əlbəttə, açıq bildirmək lazımdır ki, Kreml hazırda mövcud fazada hərəkət ardıcıllığına malik deyil, belə demək mümkünsə, proqramsızdır. Onun yeganə işlək müstəvisi iki Cənubi Qafqaz ölkəsinin baş nazir müavinlərinin danışıqlarıdır.**



Bununla müqayisədə Qərbin ortaya qoyduğu, müəyyən mənada, platforma xarakteri daşıyan vasitəçilik düzəni var. Hərçənd onu da əminliklə söyləmək olmaz ki, bu düzən sırf daxili müqavimət gücünə və münaqişə tərəflərinə təsir seqmentinə görə ayaqdadır. Yəni, tərəflər özləri ziddiyyətli durumu aradan qaldırmaq istəyirlər və vasitəçilik institutu da məhz buna görə aktivdir. Burada Rusiya və Qərbin öndə olması artıq onların öz bacarıqları kimi qiymətləndirilməlidir.

*(ardı 7-ci səhifədə)*

## Orta Dəhliz–Qərbdən Şərqə nəqliyyat körpüsü




Səhifə ⇨ 11

## Ukraynaya humanitar yardım göndərilib

Səhifə ⇨ 3



## Mandatsızların xam xəyalları

**Həyatda olduğu kimi, diplomatiya dünyasında da yazılmış və yazılmamış qanunlar var.**



Qədim və çağdaş tarixin özü şahidlik edir ki, Yer üzündə mövcud bütün dövlətlər, istisnasız olaraq, öncə milli və dövlət maraqlarlarına söykənərək hərəkət edir, sonra beynəlxalq hüquq və qaydalara riayət etməyə çalışırlar. Səbəbi çox sadədir. Həmin qaydalar adətən böyük güclər tərəfindən yazılır, onlara riayət etmək isə zəiflərdən tələb olunur. Bu “ədalətsizlik kodeksi”nin fəsadlarını biz Azərbaycan türkləri dərimizdə hiss etmişik. Söhbət güclülərin zəiflərə qarşı tətbiq etdikləri ikili standartlardan gedir. Azərbaycana qarşı belə münasibəti “qoca qitə”dən, okeanın o tayındakılardan, eləcə də şimal qonşumuz Rusiyadan az görməmişik. Son otuz ildə bunun altını çəkmişik, amma heç nəyi unutmamışıq. Sovet dövründə rusun sevimli müğənnisi Vladimir Vısotskinin oxuduğu kimi, - “mən sərxoş deyildim, hər şeyi xatırlayıram”. Bəli, o zaman sovet xalqı üçün ideoloji tiryək istehsal edən Kreml, deyəsən, bu missiyanı postsovet coğrafiyasında da davam etdirmək niyyətindədir.

*(ardı 10-cu səhifədə)*

## Qayıdışın Füzulisi – Zəfərdən doğulan şəhər



Səhifə ⇨ 8

## Qeyri-neft sektoru daha da genişlənir

Səhifə ⇨ 11






## ÜST və Azərbaycanda səhiyyənin müasirləşdirilməsi perspektivləri

Səhifə ⇨ 12

## Vaşinqtonun nüfuzu Kiyevin cəbhədəki uğurundan asılıdır

Səhifə ⇨ 13

## Sülhməramlılar Xankəndini niyə mühasirəyə alıblar?



**Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti altında olan Qarabağ iqtisadi rayonunda yaşayan etnik ermənilər arasında son vaxtlar hərəkətlilik müşahidə olunur. Bu da təsadüfi deyil.**

Çünki ölkəmizin ərazi bütövlüyünün tam təmin edilməsi, dövlət suverenliyinin bütün ölkə ərazisində bərqərar olması istiqamətində son aylarda bir sıra əlamətdar hadisə baş verib. Şübhəsiz ki, onlardan ən önəmlisi aprelin 23-də Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratmağımızdır. Bu addım yolda hərəkət şəffaflığını, qanunun aliliyini, ümumən təhlükəsizliyi yaradıb. İndiyədək isə Ermənistan tərəfi Laçın–Xankəndi yolundan sui-istifadə edirdi. Belə hallara Azərbaycan ərazisindəki erməni silahlı qüvvələrinin şəxsi heyətinin rotasiyasını, silah-sursatın daşınmasını, terrorçuların keçidini, habelə təbii sərvətlərin və mədəni mülkiyyətin qanunsuz daşınmasını misal göstərmək olar. Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi bütün bu əməllərə son qoydu.

*(ardı 10-cu səhifədə)*

# Azərbaycandan dünyaya açılan qapı



(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının Biznes Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, ümumi sahəsi 16 min kvadratmetr olan Biznes Mərkəzinin binası 3 funksional hissədən ibarətdir. Burada Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun ofisi, investorlara vahid pəncərə prinsipi ilə xidmət göstərəcək ofis, investorların idarəetmə qurumları üçün ofislər və təhkim olunan gömrük əməkdaşları üçün ofis fəaliyyət göstərəcək. Biznes Mərkəzində yüksəkkeyfiyyətli xidməti təmin edəcək müvafiq infrastruktur və maddi-texniki baza yaradılıb.

Diqqətə çatdırıldı ki, növbəti inkişaf mərhələsində 138 hektar sahəni əhatə edən standart istehsal müəssisələri və logistika mərkəzləri üçün nəzərdə tutulmuş hissədə və eyni zamanda, 211 hektar sahəni əhatə edən ağır sənaye müəssisələri üçün hissədə layihələndirmə işləri davam edir. Növbəti inkişaf mərhələsinə aid 138 hektar sahədə torpaq işlərinə tezliklə başlanılması planlaşdırılır.

Ələt Azad İqtisadi Zonası Prezident İlham Əliyevin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təməllərindəndir. Bu layihənin icrası nəticəsində Azərbaycana daha çox xarici investisiyalar cəlb olunacaq və yeni iş yerləri yaradılacaq. Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar 2017-ci ildə, bununla bağlı müvafiq qanun isə 2018-ci ildə qəbul edilib. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməli qoyulub.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında və qlobal nəqliyyat dəhlizlərinin üzərində strateji coğrafi mövqeyə malik iqtisadi zonada yaradılan əlverişli şərait, o cümlədən nadir qanunvericilik bazası, fiskal və qeyri-fiskal imtiyazlar zərfi, zəruri infrastruktur və mühəndis-kommunikasiya sistemləri ilə təmin edilmiş sənaye torpaq sahələri, nəqliyyat-logistika mərkəzləri və digər perspektivlər investorlar üçün davamlı regional üstünlük yaradacaq və Ələt Azad İqtisadi Zonasını regional investisiya mərkəzinə çevirəcək.

Bildirilib ki, bu iqtisadi zonada investorlar üçün aşağıdakı fiskal və qeyri-fiskal imtiyazlar tətbiq edilir:

- İnvestorlar əlavə dəyər vergisi, ödəmə mənbəyində vergi, mənfəət vergisi və hər hansı digər korporativ vergidən azaddırlar;
- Zonada idxal və ixrac zamanı gömrük rüsumları və vergilər tətbiq olunmur;
- Aylıq əməkhaqqı 8 min manata qədər olan işçilər üçün gəlir vergisi tətbiq olunmur;
- Yüksəkixtisaslı əcnəbi işçilər üçün sosial sığorta ödənişləri könüllü, yerli işçilər üçün isə məcburi xarakter daşıyır;
- Əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur;
- Xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbi yoxdur;
- Valyuta əməliyyatları və ya mənfəətin repatriasiyasında heç bir məhdudiyyət yoxdur;
- İnvestorların əmlakı heç bir halda milliləşdirilə bilməz və Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu investorların əmlakını bu və ya digər məhdudiyyətlərdən qorunmasına təminat verir;
- Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu, həmçinin investorların əqli mülkiyyət hüquqlarının tam qorunmasına təminat verir.





Beləliklə, Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Bundan başqa, bu layihənin icrası nəticəsində ölkəmizin milli iqtisadiyyatının dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənəcək.

***AZƏRTAC***

## "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199; 2023, № 1, maddə 49) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Fərmana 1 nömrəli Əlavə – "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşları" üzrə:

1.1. 1.6-cı bənddə "xüsusi nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri" sözləri " Administrasiyasında şöbə müdiri, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi" sözləri ilə əvəz edilsin;

1.2. 1.9-cu bənddə "xüsusi nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini" sözləri "Administrasiyasında şöbə müdirinin müavini, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Fərmana 2 nömrəli Əlavə – "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nın 1.4.1-ci yarımbəndinə "köməkçisi" sözündən sonra ", Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müşaviri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) köməkçisi, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müşaviri" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2023-cü il**

## "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133, № 7, maddə 744, № 9, maddə 982; 2022, № 1, maddə 27, № 4, maddə 303; 2023, № 1, maddə 50) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.9.7-1-ci, 1.9.10-1-ci yarımbəndlər ləğv edilsin.

**2.** Aşağıdakı məzmunda 1.9.9-4-cü, 1.9.9-5-ci, 1.9.11-1-ci, 1.9.11-2-ci yarımbəndlər əlavə edilsin:

"1.9.9-4. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi;

1.9.9-5. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;";

"1.9.11-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini;

1.9.11-2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;".

**3.** 2.1.2-ci yarımbəndin 6-1-ci abzası ləğv edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda 8-4-cü və 8-5-ci abzaslar əlavə edilsin:

"8-4. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi;

8-5. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;".

**4.** 2.1.3-cü yarımbənd üzrə:

4.1. 1-1-ci abzas ləğv edilsin;

4.2. aşağıdakı məzmunda 2-1-ci və 2-2-ci abzaslar əlavə edilsin:

"2-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini;

2-2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;";

4.3. 13-cü abzasdan ", Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru" sözləri çıxarılsın.

**5.** 2.1.4-cü yarımbənd üzrə:

5.1. 4-2-ci abzas 4-3-cü abzas hesab olunsun və aşağıdakı məzmunda 4-2-ci abzas əlavə edilsin:

"4-2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;";

5.2. 19-cu abzasdan ", Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktorunun müavinləri" sözləri çıxarılsın.

**6.** 2.1.6-cı yarımbəndin 8-ci abzasından, 2.1.7-ci yarımbəndin 1-ci abzasından və 2.3.3-cü yarımbəndin 1-ci abzasından "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1374; 2021, № 8, maddə 946; 2022, № 5, maddə 534; 2023, № 3, maddə 391; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 3832 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında "Planın" sözü "Planının" sözü ilə əvəz edilsin.

**2.** 5.1.2-ci yarımbəndin "Tədbirin adı" sütununda "Uşaq Məcəlləsinin" sözləri "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının yeni qanununun" sözləri ilə, "İcra müddəti (illər üzrə)" sütununda "2021–2022" rəqəmləri "2023–2024" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2023-cü il**

## Hikmət Hacıyev: Laçın yeni intibah və inkişaf mərhələsinə qədəm qoyur

**Prezident İlham Əliyevin siyasəti nəticəsində azad Laçın yeni intibah və inkişaf mərhələsinə qədəm qoyur.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviterdəki hesabında yazıb.

"Prezident İlham Əliyevin siyasəti nəticəsində azad Laçın Ermənistanın işğalı altında 30 il davam edən vandalizmdən sonra yeni intibah və inkişaf mərhələsinə qədəm qoyur. Müasir şəhərsalma və inkişaf konsepsiyalarının bütün yeni elementləri Laçında tətbiq edilir", - Azərbaycan Prezidentinin köməkçisi qeyd edib.

## Birinci vitse-prezidentin köməkçisi Şimali Makedoniya rəhbərliyi ilə görüşlər keçirib



**Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov Şimali Makedoniyaya işgüzar səfəri çərçivəsində Skopyedə bu ölkənin prezidenti Stevo Pendarovski və parlamentin sədri Tələt Cəfəri ilə görüşlər keçirib.**

Görüşlərdə Azərbaycan və Ermənistan arasında münaqişədən sonra münasibətlərin normallaşmasına yönəlmiş sülh prosesinin hazırkı vəziyyəti və perspektivlərinə dair Azərbaycan tərəfinin mövqeyi və qiymətləndirməsi ətraflı şəkildə Şimali Makedoniya rəhbərliyinin diqqətinə çatdırılıb.

Rəsmi Skopyenin ATƏT-in sədri kimi Azərbaycanın irəli sürdüyü, həyata keçirilməsinin bütün Cənubi Qafqaz regionunun təhlükəsizliyinin, sabitliyinin və inkişafına töhfə verəcək sülh gündəliyinə hər cür dəstək verəcəyinə ümid ifadə olunub.

# “Ümumvətəndaş, xidməti və diplomatik pasportların təsvirinin, spesifikasiyasının və nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Ümumvətəndaş, xidməti və diplomatik pasportların təsvirinin, spesifikasiyasının və nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 696; 2013, № 9, maddə 1064; 2015, № 5, maddə 521) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə I – “Ümumvətəndaş, xidməti və diplomatik pasportların təsviri” üzrə:

1.1.1. 9-cu hissəyə “yazılır” sözündən sonra “və sol aşağı kənarında pasport sahibinin kiçildilmiş təsvirini əks etdirən “Dəyişən Lazer Təsvir” yerləşdirilir” sözləri əlavə edilsin;

1.1.2. aşağıdakı məzmunda 10.17-1-ci bənd əlavə edilsin:

“10.17-1. pasport sahibinin kiçildilmiş təsvirini əks etdirən “Dəyişən Lazer Təsvir”;”;

1.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə II – “Ümumvətəndaş, xidməti və diplomatik pasportların spesifikasiyası”-nın 8-ci hissəsində “ikinci səhifəsində” sözləri “birinci və ikinci səhifələrində (məlumat səhifələri)” sözləri ilə əvəz olunsun və həmin hissəyə “təmin edən elementlərdən,” sözlərindən sonra “daxili ikinci səhifəsində” sözləri əlavə edilsin;

1.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə III – “Ümumvətəndaş, xidməti və diplomatik pasportların nümunələri” yeni təsvirdə verilsin (əlavə olunur).

**2.** Müəyyən edilsin ki, yeni nümunəli biometrik pasportlar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin sərəncamlarında olan köhnə nümunəli biometrik pasport blanklarının istifadəsi başa çatandan sonra verilir.

**3.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2023-cü il**




# Ukraynaya humanitar yardım göndərilib



**Azərbaycandan növbəti dəfə Ukraynaya humanitar yardım yola salınıb. Humanitar yardım Ukrayna tərəfindən daxil olmuş müraciət nəzərə alınaraq, Prezident İlham Əliyevin tapşırığı ilə təşkil olunub.**

Humanitar yüklər su borularından, suyun vurulması üçün nasoslardan, xilasedici jiletlərdən ibarətdir. Eyni zamanda, Ukraynaya xilasetmə əməliyyatlarında istifadə olunan texnika və gəmilər üçün nəzərdə tutulmuş 20 ton yanacaq da göndərilib.

Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski jurnalistlərə Azərbaycandan bu ölkəyə növbəti humanitar yardımla bağlı deyib: “Dost Azərbaycan xalqına növbəti dəfə sizin qardaş çiyninizi, Ukraynaya göstərdiyiniz dəstəyi və yardımı hiss etdiyimizə görə çox minnətdarıq”.

Ukraynalı diplomat daha sonra qeyd edib ki, Kaxovka su elektrik stansiyasının dağıdılması texnogen fəlakətə səbəb ola bilər. “Əslində vəziyyət çox gərgindir, çünki bütün yaşayış məntəqələri su altında qalıb. Təxminən 60 min kvadrat kilometr ərazidə yerləşən yüzə yaxın şəhər və kənddən söhbət gedir.

Suvarma sistemi dağıdılıb və bu, təxminən yarım milyon kvadratkilometr ərazidə quraqlıq baxımından ciddi nəticələrə səbəb ola bilər. Xilasetmə işləri dostlarımızla birgə aparılır. Əlaqədar qurumlar, yerli sakinlər və ordu çalışır.

Biz dost Azərbaycan xalqına çox minnətdarıq, bir daha qardaş çiyninizi, Ukraynaya göstərdiyiniz dəstəyinizi və köməyinizi hiss edirik. Bu gün bu yardım Bakıdan Ukraynaya, oradan isə fəlakət zonasına çatdırılacaq. Bu, bizə çox lazım olan yardımdır”, – səfir deyib.

Qeyd edək ki, Azərbaycan tərəfi – SOCAR 20 ton yanacaq ayırıb ki, bu da xilasetmə əməliyyatlarında iştirak edən nəqliyyat vasitələri üçün çatdırılacaq.

Humanitar yüklər təyyarə ilə Bakıdan Polşaya, oradan isə Ukraynaya çatdırılacaq.

***“Xalq qəzeti”***

# Azərbaycanın sülh mövqeyi aydın və konstruktivdir



**İyunun 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Tovio Klaar ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı tərəflər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, Avropa İttifaqı da daxil olmaqla beynəlxalq tərəfdaşların vasitəçiliyi ilə həyata keçirilən danışıqların cari vəziyyəti, regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov sülh sazişi üzrə cari vəziyyət, öhdəliklərə uyğun olaraq nəqliyyat-kommunikasiyaların açılması üzrə aparılmış müzakirələr, eləcə də delimitasiya məsələsi üzrə Azərbaycan tərəfinin mövqeyini bir daha diqqətə çatdırıb.

Qarşı tərəf Aİ-nin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinə dəstəyini və bu istiqamətdə gələcəkdə hər iki ölkənin siyasi rəhbərlikləri arasında təmasların davam etdirilməsi üçün səylərini əsirgəməyəcəklərini bildirib.

# Xarici işlər nazirlərinin telefon danışığı

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, telefon danışığı zamanı Azərbaycanla İran arasında münasibətlərin cari vəziyyəti, bəzi mövcud problemlər və onların həlli məsələləri müzakirə edilib.

Qeyd edilən istiqamətlərdə iki ölkənin aidiyyəti qurumları arasında danışıqların və qarşılıqlı təmasların davam etdirilməsinə dair razılıq ifadə olunub.

Telefon danışığı zamanı, həmçinin bir sıra regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Beynəlxalq axtarış-xilasetmə təlimi

**Türkiyənin Konya şəhərində keçirilən “Anatolian Phoenix - 2023” (“Anadolu Ankası - 2023”) beynəlxalq axtarış-xilasetmə təlimi davam edir.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, plana uyğun olaraq, beynəlxalq təlimin növbəti mərhələsində paraşüt hazırlığı və patrul fəaliyyəti üzrə müxtəlif tapşırıqlar yerinə yetirilib.

Ssenariyə əsasən, təlim iştirakçıları qəzaya uğramış ekipaj üzvlərinin şərti düşmən arxasında axtarış-xilas və təxliyə edilməsi üzrə növbəti fəaliyyəti uğurla icra ediblər.

Tapşırıqların yerinə yetirilməsində əsas diqqət şəxsi heyətin paraşütlərdən istifadə bacarıqlarının təkmilləşdirilməsinə, həmçinin onların döyüş və xüsusi hazırlıq səviyyəsinin daha da artırılmasına yönəldilib.



Qeyd edək ki, beynəlxalq təlimdə ölkəmizi Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları, texniki heyəti və aviasiya vasitələri ilə yanaşı, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin və Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları təmsil edirlər.

# Almaniyada Qafqazla bağlı xəbər portalı

**Almaniyada ölkəmizin və Cənubi Qafqaz regionu həqiqətlərini alman dilində və dolğun şəkildə yerli ictimaiyyətə çatdıracaq Kaukasusspiegel.de (“Qafqazın güzgüzü”) müstəqil xəbər platforması fəaliyyətə başlayıb.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Alman-Azərbaycan Mədəniyyət Evinin sədr müavini Altay Rüstəmli bildirib ki, saytın yaradılmasında başlıca məqsəd Cənubi Qafqaz regionunu almandilli auditoriyaya daha yaxından tanıtmaqdır. Regiondakı ölkələr arasında əsasən ayrı-seçkilik siyasətini təbliğ edən Almaniyanın aparıcı KİV-lərindən fərqli olaraq, Kaukasusspiegel.de portalında qərəzə, ikili standartlara və ajiotajlara yer olmayacaq.

Onun sözlərinə görə, portalda yayımlanan xəbərlər, məqalələr, köşə yazıları və videomateriallar birtərəfli və uydurulmuş narrativlərə deyil, real faktlara əsaslanır. Regional münaqişələr mövzusunda ümumi məlumatlarla yanaşı, beynəlxalq hüququn müddəalarına, mötəbər beynəlxalq təşkilatların qətnamələrinə və hesabatlarına istinad edilir. Çünki bu aspektlər Almaniya mediasında adətən və bilərəkdən gizlədilir. Bundan başqa, portalda sosial həyatın bütün sahələri əhatə ediləcək.

Qeyd olunub ki, artıq portalın sosial şəbəkələrdəki səhifələrinin izləyicilərinin sayı artmaqdadır və oxucular yayılan xəbərlərin müzakirəsində fəal iştirak edirlər.

# Əlaqələndirmə Qərargahının Laçın şəhərində növbəti iclası keçirilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, iyunun 9-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın Laçın şəhərində növbəti iclası keçirilib.**

İclası giriş sözü ilə açan Samir Nuriyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli iradəsi sayəsində dövlətimizin məhv olmaq təhlükəsindən xilas edildiyini, müstəqilliyimizin möhkəmləndirildiyini, ölkəmizin ardıcıl inkişaf yoluna qədəm qoyduğunu bildirib. Samir Nuriyev vurğulayıb ki, ulu öndər bütün qüvvəsini və xalqımızın potensialını vahid amal - torpaqlarımızın işğaldan azad olunması və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün səfərbər etdi. Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş və prinsipial siyasəti nəticəsində Azərbaycanın sürətli və hərtərəfli inkişafı təmin olundu, Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyuldu və ərazi bütövlüyümüz bərpa edildi. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır, artıq məcburi köçkünlər doğma yurdlarına qayıtmağa başlayıblar.

Əlaqələndirmə Qərargahının rəhbəri Azərbaycan Respublikası Prezidentinin 2023-cü ilin may ayı ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərlər edərək bir çox yaşayış məntəqələrinin təməllərini qoyduğunu, infrastruktur və digər obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdiyini, yenidənqurma və tikinti işləri ilə yerlərdə tanış olduğunu və müvafiq tapşırıqlar verdiyini bildirib. Qeyd edilib ki, çoxşaxəli və irimiqyaslı layihələrin reallaşdırılması dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi ilə bağlı müəyyən etdiyi sistemli, ardıcıl yol xəritəsinə və strateji xəttə uyğun şəkildə, sürətlə icra olunmaqdadır. Həyata keçirilən layihələr çərçivəsində işlərin miqyası genişləndiyinə görə, yerlərdə işin planlı və əlaqəli şəkildə aparılması, o cümlədən bütün aidiyyəti qurumların sıx əməkdaşlıq mühitində fəaliyyətinin təmin edilməsi, habelə vaxt və keyfiyyət amillərinin uzlaşdırılması məsələlərinə diqqətin artırılması zəruridir.

Sonra Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı verdiyi tapşırıqların icrası istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 2023-cü il ərzində icrası davam etdirilən və həyata keçirilməsi nəzərdə tutulan işlərə dair məruzələr dinlənilib, müzakirələr aparılıb.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iclasın gündəliyinə daxil olan məsələlərin yerlərdə əlaqələndirilməsi, müvafiq ərazilər üzrə görülən işlərin icra dinamikası və qarşıda duran vəzifələr barədə məlumat veriblər.

İclasda Azərbaycan Prezidenti tərəfindən qərargah qarşında qoyulmuş vəzifələrin tam şəkildə icrası və müəyyən edilmiş strateji xəttə uyğun həlli



məsələləri müzakirə olunub.

Daha sonra qərargahın üzvləri Laçın şəhərində Aqro və Sənaye Parkında görülən işlər, Heydər Əliyev küçəsinin yenidənqurma konsepti ilə tanış olub, 1 Dekabr küçəsində yaşayış məhəlləsinə baxış keçiriblər. Onlara Həkəri çayının sahilində salınan "Laçın bulvarı"nda aparılan işlərlə bağlı məlumat verilib.

Qərargahın üzvləri Laçın rayonunun Zabux kəndinə səfər edərək, burada zəruri infrastrukturun yaradılması və kəndə qayıdacaq əhalinin rahat həyat şəraitinin təmin edilməsi istiqamətində aparılan genişmiqyaslı işlərlə tanış olublar.

Səfərin yekununda Samir Nuriyev qarşıda duran məsələlərin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün aidiyyəti orqanların rəhbərlərinə zəruri tapşırıqları çatdırıb.

*"Xalq qəzeti"*

# Əli Əsədov Rusiya Prezidenti Vladimir Putinlə görüşdə iştirak edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 9-da Soçiyə işgüzar səfəri çərçivəsində Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının üzvlərinin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşündə iştirak edib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Rusiya Prezidenti MDB Hökumət Başçıları Şurasının üzvlərini salamlayıb.

Ə.Əsədov görüşdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Rusiya Prezidenti Vladimir Putinə çatdırıb.

Baş nazir Azərbaycan-Rusiya strateji tərəfdaşlığının ikitərəfli gündəliyində yer alan məsələlərə də toxunub.

# Baş nazir III Avrasiya Konqresi müzakirələrində

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 9-da Rusiya Federasiyasının Soçi şəhərində III Avrasiya Konqresinin plenar iclasında qonaq qismində iştirak edib.**




Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, plenar iclasda çıxış edən Ə.Əsədov vurğulayıb ki, hazırkı mərhələdə bəşəriyyətin qarşılaşdığı iqlim dəyişikliyi, qlobal istiləşmə, logistika zəncirlərinin pozulması, istehsal resurslarının və nəqliyyat tariflərinin bahalaşması kimi təhdidlər fonunda ərzaq təhlükəsizliyinin təmin olunmasının vacibliyi dünyanın bütün ölkələri üçün görünməmiş səviyyəyə çatıb.

Diqqətə çatdırılıb ki, bununla əlaqədar ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatı Azərbaycan Prezidenti tərəfindən iqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi müəyyən olunub. Baş nazirin sözlərinə görə, 2023-cü ildə dövlət büdcəsində ərzaq təhlükəsizliyinin təminatına ayrılan xərclər təxminən 40 faiz artırılıb.

Plenar iclasın iştirakçıları Azərbaycanda inflyasiyaya qarşı görülən tədbirlər barədə də məlumatlandırılıb.

"Nazirlər Kabineti inflyasiyanın işgüzar fəallığa və əhalinin sosial rifahına təsirlərini minimallaşdırmaq məqsədilə ötən ilin fevralında "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncam verib", - deyə Ə.Əsədov vurğulayıb.

Baş nazir Azərbaycanda aqrar sektorun inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı Dövlət proqramlarından da söhbət açıb. Qeyd olunub ki, əsasən kənd təsərrüfatı məhsullarının istehsalının həcminin artırılması üzrə işlər görülür, aqrar sektora dövlət dəstəyi sistemi təkmilləşdirilir. Görülən işlər nəticəsində Azərbaycanda 2022-ci ildə kənd təsərrüfatı istehsalının həcmi 3,4 faiz artıb. Cari ilin yanvar-may aylarında isə kənd təsərrüfatı məhsullarının istehsalı 5,2 faiz artıb.

"Aqrar sənaye kompleksi məhsullarının həm əkini, həm də yığımını əhatə edən fermerlərə müxtəlif subsidiyaların verilməsi mexanizmi səmərəli işləyir", - deyə Ə.Əsədov bildirib.

Vurğulanıb ki, əsas ərzaq mallarının ehtiyatlarının yaradılması istiqamətində də ciddi iş aparılır və bunun nəticəsində hökumət əhalini zəruri ərzaq məhsulları ilə təmin etməyə nail olub. Qeyd olunub ki, dövlət başçısının tapşırığı ilə 2022-ci ilin iyul ayında Nazirlər Kabineti buğda ilə özünü təminetmə səviyyəsinin artırılması və yerli istehsalçılara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Sərəncam verib.

Dövlət Taxıl Fondu ehtiyatlarının artırılması və ərzaq təminatının formalaşdırılması üzrə paralel tədbirlər görülür. "Məhz bu məqsədlə 2021-ci ilin oktyabrında Azərbaycan Prezidenti tərəfindən Dövlət Ehtiyatları Agentliyi yaradılıb. Cari ilin yanvarında hökumət Dövlət Taxıl Fondunun ehtiyatları üçün idxal olunan taxıl və taxılın emalı məhsullarını gömrük rüsumundan azad edib", - deyə Baş nazir diqqətə çatdırıb.

O bildirib ki, Azərbaycan ərzaq təhlükəsizliyinin təmin olunmasına kömək məqsədilə bundan sonra da Avrasiya İqtisadi Birliyinin tərəfdaş üzvləri ilə əməkdaşlığı genişləndirməyə, öz təcrübəsini bölüşməyə hazırdır.

*"Xalq qəzeti"*

# Heydər Əliyev Mərkəzində "Dirçəliş. Başlanğıc" kitabının təqdimat mərasimi



**İyunun 9-da Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, "PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin dəstəyi ilə hazırlanan və ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilən "Dirçəliş. Başlanğıc" kitabının təqdimat mərasimi keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Həbib Mikayıllı kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib. Vurğulanıb ki, ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, xalqımızın mədəni irsinə də ağır zərbə vurub: "Ermənistan 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində şəhər və kəndlərin infrastrukturunu tamamilə məhv edib. İşğal zamanı mülki və təsərrüfat obyektləri ilə yanaşı, Azərbaycanın misilsiz mədəniyyət abidələri də məhv edilib".

H.Mikayıllı vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən üzərində parlaq Qələbə qazandı. Bununla da doğma torpaqlarımızdan didərgin düşmüş keçmiş məcburi köçkünlər öz yurdlarına qayıtmağa başlayıblar.

"PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Niyaz İsmayılov uzun müddət işğal altında qalan torpaqlarımıza artıq qayıdışın başladığını vurğulayıb. "Azərbaycan mədəniyyətinin tanıdılması üçün hələ bir çox işlər görürük. Mənfur düşmənin vəhşiliklərinin unudulmaması üçün belə kitabların nəşr olunması olduqca təqdirəlayiqdir", - deyə N.İsmayılov bildirib.

Tədbirdə "İRS" Nəşriyyat Evinin kollektivi adından çıxış edən fotoqraf Sergey Kivrin, yazıçı-publisist Andrey Vasilyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, "İRS" və "Azerbaijan Airlines" jurnallarının baş redaktoru Musa Mərcanlı çıxışlarında işğaldan azad edilmiş Şərqi Zəngəzurda və Qarabağda iki il ərzində aparılan tikinti-quruculuq işlərinin kitabda müfəssəl şəkildə təqdim olunduğunu vurğulayıblar. Çıxışlarda Qarabağ və Şərqi Zəngəzurun tezliklə Azərbaycanın ən gözəl, firavan və çiçəklənən guşələrinə çevriləcəyinə əminliklərini ifadə ediblər.

"İRS" silsiləsi çərçivəsində sayca 21-ci nəşr olan "Dirçəliş. Başlanğıc" kitabı ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

*"Xalq qəzeti"*

# İstanbulda "SOCAR Türkiyə"nin İdarə Heyətinin iclası

**İyunun 9-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun və SOCAR-ın prezidenti Rövşən Nəcəfin iştirakı ilə İstanbulda "SOCAR Türkiyə"nin İdarə Heyətinin iclası keçirilib.**



İclasda "SOCAR Türkiyə"nin 2022-ci ilə dair yekunları haqqında danışılıb, cari ilin ilk 5 ayı ərzində əldə edilən nəticələr, il ərzində görüləcək işlər və qarşıya qoyulan hədəflər müzakirə olunub.

Həmçinin iyunun 8-də İstanbulda "SOCAR Türkiyə"nin törəmə müəssisələri olan "Petkim"in və "STAR" neft emalı zavodunun, iyunun 9-da isə Azərbaycan qazının Türkiyə və Avropaya nəqlini həyata keçirən, Cənub Qaz Dəhlizinin önəmli seqmentlərindən biri olan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) İdarə heyətlərinin iclasları keçirilib. İclaslarda qrup şirkətlərinin 2022-ci il və cari ilin 5 ayı üzrə fəaliyyətləri nəzərdən keçirilib, gələcək hədəflər və bu istiqamətdə görüləcək işlər müzakirə olunub.

*"Xalq qəzeti"*

# Ulu öndər memar təfəkkürlü nadir lider idi

**Ümummilli lider Heydər Əliyevi, bir qayda olaraq, müstəqil Azərbaycan dövlətinin memarı adlandırırıq. Ulu öndər, həqiqətən, memar təfəkkürlü dahi bir şəxsiyyət idi. O, sözün geniş mənasında, cəmiyyət memarı olduğu kimi, bu anlayışın müstəqim mənasında da memar idi. Bu fenomen şəxsiyyət nadir bir memar lider idi.**



Azərbaycan dövlətinin qurucusu gənclik illərində ali məktəbin memarlıq fakültəsinə daxil olmuş, bu sahənin əlifbasını və fəlsəfəsini dərindən mənimsəmişdi. Buna görə də ulu öndər tikinti-quruculuq işlərinə və memarlıq layihələrinə müstəsna bir bələdliklə yanaşırdı. O, Azərbaycanın tanınmış memarları ilə ünsiyyətdə bu sahəyə mükəmməl bələdliyi ilə həmişə onları heyran qoyurdu. Mən də həmin insanlardan biri kimi bu barədə söz açamaq itəyirəm.

Ölkəmizin rəhbəri kimi Heydər Əliyevlə mənim ilk tanışlığım 1981-ci ildə olmuşdu. Həmin vaxt Gürcüstanın paytaxtı Tbilisinin bərpasına başlanmışdı və eyni zamanda, Gürcüstan Kommunist Partiyasının Mərkəzi Komitəsinin yeni binası istifadəyə verilmişdi. Bu, o vaxt Azərbaycana rəhbərlik edən Heydər Əliyevi çox maraqlandırmışdı. Çünki Bakının qədim hissəsinin və tarixi İçərişəhərin bərpası ulu öndəri çox düşündürürdü. Həmçinin Bakıda Azərbaycan KP MK-nın yeni binasının tikintisi başlanmışdı.

Respublika rəhbərinin tapşırığı ilə ölkənin tanınmış memarlarından ibarət nümayəndə heyəti Tbilisiyə ezam olundu. Nümayəndə heyətinin tərkibinə Tahir Abdullayev, Rasim Əliyev kimi peşəkar memarlarla yanaşı, 3 nəfər gənc memar da daxil edilmişdi: Sənan Sultanov, Yevgeni Kiryaşov və mən. O vaxt mənim 32 yaşım var idi. Bizə Tbilisidə aparılan tikinti işləri ilə tanış olmaq, incəlikləri öyrənmək, müsbət və mənfi cəhətləri araşdırıb, qonşularımızın praktikasını Azərbaycanda tətbiq etmək tapşırılmışdı.

Tbilisidə bizi çox yüksək səviyyədə qarşıladılar. Əlbəttə, bunun əsas səbəbi Heydər Əliyevin SSRİ məkanında yüksək nüfuz sahibi olması idi. Gürcüstan KP MK-nın birinci katibi Eduard Şevardnadze bizi qəbul etdi, hər birimizlə tanış oldu. Nümayəndə heyətimizin tərkibində gənc memarların olmasını yüksək qiymətləndirdi və görüşdə iştirak edən Gürcüstan memarlarına tövsiyə etdi ki, onlar da cavan həmkarlarına diqqət göstərsinlər.

Səmimi və xoş söhbətimizdən sonra görülən işlərlə tanış olmağa başladıq. Gürcüstan KP MK-nın yeni binasını gəzdik, şəhərdə aparılan bərpa işləri ilə maraqlandıq, məşhur heykəltəraş Zurab Seretelinin emalatxanasında olduq. İki gün Tbilisidə müşahidələr aparıb geri qayıtdıq.

Heydər Əliyev nümayəndə heyətinin üzvləri ilə görüşdü və ayrı-ayrılıqda hər birimizin fikirlərini öyrəndi. Növbə mənə çatanda dedim: "Mərkəzi Komitənin binası həddindən artıq sadədir və milli memarlıq üslubundan əsər-əlamət yoxdur. Belə bina Gürcüstanda da, Estoniyada da ola bilərdi". Heydər Əliyevin təbəssümündən anladım ki, fikrim onun ürəyincədir. Onu da əlavə etdim ki, köhnə Tbilisi qədim Bakı deyil. Orada fasadların dekoru ağac materiallardan ibarətdir. Bakının memarlıq siması isə yonma daşdandır. Buna görə də, bizim yanaşmalarımız daha düşünülmüş, daha ciddi olmalıdır.

Bu görüşdən iki gün sonra Azərbaycan KP MK-nın inşaat şöbəsinin müdiri məni dəvət etdi və dedi ki, fikirlərim Heydər Əliyevin xoşuna gəlib. Bakıda bərpa ilə məşğul olacaq xüsusi təşkilatın yaradılması barədə düşünür və tapşırıq verib ki, bu qurumun əsasnaməsi hazırlansın. Mənim də bu işə cəlb olunmağımı tapşırıb.

Mən böyük sevinc hissi keçirsəm də, məsuliyyəti də başa düşürdüm. Xahiş etdim ki, sənəd üzərində işləmək üçün dostum, istedadlı memar, Tbilisidə bizimlə bərabər olmuş Sənan Sultanovu da cəlb edək. Bizə MK-nın binasında otaq ayırdılar və Əsasnaməni 10 gün ərzində hazırladıq.

Heydər Əliyevin tapşırığı əsasında Mərkəzi Komitənin tikilməkdə olan binasının fasadları ilə bağlı variantların hazırlanması bir neçə memara həvalə olundu. O siyahıya mənim də adım daxil edilmişdi. Çox qısa bir müddətdə iki variant hazırlayıb təhvil verdim. Hər ikisində Azərbaycan milli memarlıq elementlərinin müasirləşdirilmiş, hətta deyim ki, modernləşdirilmiş forması tətbiq edilmişdi.

Ulu öndər bütün təkliflərlə tanış oldu, mənim hazırladığım variantı bəyəndi. Həmçinin tapşırdı ki, əgər interyer təkliflərini hazırlaya bilərəmsə, məni dəvət etsinlər. Görüşümüz axşam çağı saat 9-10 arası baş verdi, fasadlarda təklif etdiyim dəyişiklikləri bəyəndiyini dedi.

KP MK-nın binasının layihəsinin müəllifi "Azərdövlətlayihə" institutunun direktoru, respublikamızın tanınmış memarlarından olan Tahir Abdullayev idi. Bilirdim ki, Heydər Əliyevin ona böyük hörməti var. Ulu öndər qarşıma birinci katibin kabineti yerləşəcək mərtəbənin planını qoyub, ondan çox da razı qalmadığını bildirdi. İş otağına giriş qapısının yandan olmasını bəyənməyərək dedi: "Mən xoşlayıram ki, qəbuluma gələnlər kabinetə mənimlə üzbəüz qapıdan daxil olsun. Bəzi köməkçi otaqların əlaqələrinə fikir ver. Plan quruluşunu yenidən düşün və kabinetin interyerini hazırla".

Gənc həmkarım Adil Paşayev və rəssam Oleq İbrahimovla birgə Heydər Əliyevə məxsus sektorun planlarını və kabinetinin interyerlərini hazırladıq. Bu layihə də Heydər Əliyev tərəfindən bəyənildi və növbəti tapşırıq olaraq Mərkəzi Komitənin büro iclasları salonunun interyerlərini hazırlamaq bizə həvalə edildi. Adətən, belə salonlarda Leninin büstü qoyulurdu. Biz isə bu ənənədən uzaqlaşdıq və onun portretini qobelendə təsvir etdik. Bu da bəyənildi. Amma həyat elə gətirdi ki, həmin ərəfədə Heydər Əliyev keçmiş ittifaq mərkəzində Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçildi, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi və Moskvaya köçməli oldu.

Azərbaycana rəhbərlikdə onu əvəzləyən Kamran Bağırov isə zövq cəhətdənmi, ya da ehtiyatlanaraq bizim təkliflərimizdən imtina etdi və binanın tikintisi ilkin variantda aparıldı. Hətta birinci katibin kabinetinə giriş qapısı da əvvəlki yerində - yan tərəfdə qoyuldu.

Ulu öndər Heydər Əliyevlə sonrakı görüşüm onun xalq çağırışı ilə 1993-cü ildə Bakıya qayıdandan sonra Prezident vəzifəsinə seçildiyi ərəfədə oldu. 1993-cü ilin sentyabrı idi. Mən o zaman Bakının baş memarı vəzifəsində çalışırdım. Heydər Əliyev həmin vaxt Ali Sovetin sədrinin Milli Məclisdəki kabinetində əyləşirdi. Bir gün mənə zəng vuraraq Milli Məclisdə keçiriləcək müşavirəyə çağırdılar.

Müşavirədə yeni seçiləcək Prezidentin qarşıdan gələn andiçmə mərasiminin təşkili müzakirə olundu. Müxtəlif təşkilati məsələlər nəzərdən keçirildi və Heydər Əliyevin qarşısına bir maket qoyuldu. Uzaqdan gördüm ki, o, mərasimin keçiriləcəyi Respublika Sarayının səhnəsinə oxşamır. Proporsiyalar tam pozulmuşdu. Ulu öndər üzünü mənə tutdu. Aramızda belə bir dialoq oldu:

– Bunu görmüsən?
– Xeyr.
– Nə deyə bilərsən?
– İcazə verirsinizsə, yaxınlaşıb baxım.
– Buyur.

Yaxınlaşıb baxdım, xoşuma gəlmədi. Düşündüm ki, özgənin işini pisləmək yaxşı deyil. Dedim:

– Belə də ola bilər. Amma mən başqa cür edərdim.

Ulu öndər bu işi mənə tapşırdı. Bilirdim ki, onun qərənfildən xoşu gəlmir. Həmin vaxt Bakıda lazımı qədər qızılgül tapıb səhnəni tərtib etmək çox çətin idi. Bakı bazarlarının hamısından qızılgülləri aldıq, səhnənin tərtibatını başa çatdırdıq.

Andiçmə mərasimi çox təntənəli, gözəl keçdi. Mərasim bitəndən sonra məni səhnənin arxasına çağırdılar. Heydər Əliyev təşəkkürünü bildirdi. Fəxr edirəm ki, dahi siyasətçi, Azərbaycan Prezidenti Heydər Əliyevin birinci andiçmə mərasimində səhnənin tərtibatını mən hazırlamışam.

Ulu öndərin memarlıq sənətinə olan böyük məhəbbətindən də danışmaq istəyirəm. Bu insan memarlıq cizgilərini çox peşəkarlıqla oxuya bilirdi. Mən isə hər dəfə bunu heyrətlə qarşılayırdım. Bir dəfə bunu qeyd etdikdə, Heydər Əliyev gülümsəyərək dedi:

– Sən ki bilirsən, mən memar olmaq arzusunda idim. Amma həyat başqa qərar verdi. Sən xoşbəxt adamsan ki, istəyinə çatmısan.

Dedim ki, mən diplomat olmaq istəyirdim. Amma məktəbi bitirdiyim dövrdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmaq üçün hər respublikaya ildə iki nəfər limit qoyulmuşdu. Oraya daxil olmağımın mümkünsüzlüyünü anladığımdan atamın yolunu davam etdirmək qərarına gəldim, memarlığı seçdim.

Heydər Əliyev təəccüblənərək dedi:

– Bilmirəm, dünya diplomatiyası sənin simanda nə itirib, lakin Azərbaycanın memarlığı bir ustad qazanıb.

Bu sözlər mənim həyatımda aldığım ən yüksək qiymətdir.

***Elbay QASIMZADƏ,***
***Azərbaycan Memarlar İttifaqının sədri,***
***Əməkdar memar***

# Fundamental yubiley nəşri





**Azərbaycan Milli İncəsənət Muzeyində Mədəniyyət Nazirliyi, Azərbaycan Memarlar İttifaqı və Azərbaycan Milli Kitabxanasının birgə layihəsi kimi ərsəyə gəlmiş layihənin – ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunmuş "Azərbaycan memarlıq elementləri" fundamental nəşrinin təqdimatı olub.**

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov giriş sözündə XX əsrin ortalarında görkəmli Azərbaycan memarı, akademik Mikayıl Hüseynov tərəfindən ilk dəfə olaraq milli memarlıq abidələrinin araşdırıldığını, bu təşəbbüslə həmin dövrdə tədqiqatçılar tərəfindən müxtəlif abidələrə aid materialların toplandığını və məhdud nüsxədə bir neçə albomun çap olunduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, yarımçıq qalmış həmin işə yarım əsr sonra yenidən başlanılıb, nəticədə sanballı bir kitab ortaya qoyulub.

Mərasimdə bildirilib ki, Əməkdar memar, memarlıq üzrə fəlsəfə doktoru Xəlil Cəfərovun hnəsrə hazırladığı kitab-albom Azərbaycanın qədim tarixə malik olan memarlıq abidələrinin üzərində həle minilliklər öncə əcdadlarımızın nəqş etdiyi milli memarlıq elementlərindən və onların etimologiyasından bəhs edir. Nəfis tərtibatlı, elmi məlumatların illüstrativ materiallarla müşayiət olunduğu yubiley nəşrində XX əsrdə Azərbaycan memarlığının inkişafından da ətraflı söz açılır, memarlıq və arxitektura sahəsinin ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə xüsusilə diqqət mərkəzində olduğu vurğulanır.

Kitabın elmi redaktoru, Əməkdar memar, professor, Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə nəşri milli memarlıq üslubunun yaddaşlara həkk olunması üçün ən gözəl vasitə adlandırıb. O, ulu öndər Heydər Əliyevin Azərbaycan memarlıq irsinin qorunması və zənginləşdirilməsi sahəsində müstəsna xidmətlərini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli təqdim olunan kitabda milli memarlıq üslubu, memarlıq janrları, interyer tərtibatı nümunələri, kiçik memarlıq formalarının ətraflı izah edildiyini söyləyib. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru, memarlıq doktoru, professor Gülçöhrə Məmmədova, Milli Məclisin üzvü, akademik Nizami Cəfərov, Xalq yazıçısı Çingiz Abdullayev kitabla bağlı fikirlərini bölüşüblər.

Kitabın müəllifi, Əməkdar memar Xəlil Cəfərov bu nadir albomun ulu öndərin anadan olmasının 100 illiyinə layiqli töhfə olduğunu söyləyərək bildirib ki, kitabda Azərbaycan memarlığında işlənən milli elementləri həm funksional cəhətləri ilə, həm də bədii-estetik təsiri ilə tikililərdə sadəcə mühəndislik təxəyülünün məhsulu kimi deyil, eyni zamanda incəsənət nümunəsi kimi nəzərdən keçirilib.

Təqdimat mərasimində müasir memarlıq əsərlərində xalqımızın əsrlər boyu yaratdığı memarlıq irsini yaşatmaq və eyni zamanda bugünkü tələblərə uyğun şəkildə, düzgün istifadə etmək baxımından milli memarlıq elementlərini dərindən bilməyin vacibliyi qeyd edilib və yeni albom bu baxımdan qiymətli mənbə kimi dəyərləndirilib.

***"Xalq qəzeti"***

# "Milli dövlətçiliyimizin xilaskarı"



**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən tədbirlər planı çərçivəsində iyunun 9-da YAP Pirallahı rayon təşkilatı "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda konfrans keçirib.**

Partiyanın mətbuat xidmətindən qəzetimizə bildirilib ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, ulu öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Sonra dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Məclisi giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov ulu öndər Heydər Əliyevin ölkəmizi müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya inteqrasiya prosesinə qoşulmasında və modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı söyləyib ki, Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur. Mübariz Qurbanlı müasir müstəqil Azərbaycanın Milli Qurtuluş Günü kimi tarixə əbədi həkk olunan 1993-cü il 15 iyun tarixinin önəmi və müstəqil dövlətçiliyimizin qorunub saxlanılmasındakı əvəzsiz rolu haqqında geniş məlumat verib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev deyib ki, bütün varlığı ilə vətəninə bağlı olan dünya şöhrətli dövlət xadimi Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində xalq qarşısında misilsiz xidmətlər göstərmiş, xilaskarlıq missiyası yerinə yetirmişdir. YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov çıxışında vurğulayıb ki, Azərbaycan xalqı hər zaman müasir dövlətimizin memarı və qurucusu, ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır."Səs" Media qrupunun rəhbəri Bəhruz Quliyev Azərbaycan xalqının haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyin təminatçısı kimi qəbul etdiyini deyib. Onun sözlərinə görə, ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov vurğulayıb ki, müasir müstəqil Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyev tarix yaradan əvəzolunmaz şəxsiyyətdir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü təşkil edir.

Sonda rayonun ictimai həyatında fərqlənən bir qrup şəxsə fəxri fərman, partiya sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

***"Xalq qəzeti"***

# Növbədənkənar yaz sessiyasının növbəti iclası



**İyunun 9-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar yaz sessiyasının növbəti iclası keçirildi. Deputatlar əvvəlcə cari məsələlərdən söhbət açdılar.**

Deputat Siyavuş Novruzov dedi ki, 9 iyun tarixi xalqımızın yaddaşına əbədi həkk olunub. Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvan Muxtar Respublikasından Bakıya döndü. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, ümummilli liderin paytaxta qayıdışı müstəqil dövlətçiliyimizi parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas etdi. Çıxış edənlər diqqətə çatdırdılar ki, ulu öndərin paytaxta dönüşü Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və möhkəmləndirilməsi, müstəqilliyimizin əbədiyyətə çevrilməsi istiqamətində çox mühüm bir addım oldu.

Deputat Bəhruz Məhərrəmov bugünlərdə Azərbaycanın işğaldan azad edilən Şuşa şəhərində kütləvi məzarlığın aşkar edilməsini ermənilərin insanlıq əleyhinə cinayətlərini sübut edən fakt kimi dəyərləndirdi: "Şuşada aşkarlanan insan qalıqları Başlıbel, Fərrux, Edilli istiqamətlərindəki kütləvi məzarlıqların davamıdır. Belə faktlar erməni faşizminin ifşasında və həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında önəmlidir".

Sonra gündəlikdəki qanun layihələrinin müzakirəsi başlandı. Birinci məsələ –"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (ikinci səsvermə) barəsində Milli Məclis Sədrinin birinci müavini, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi.

Qanun səsə qoyularaq qəbul edildikdən sonra "Azərbaycan Respublikası Hökuməti ilə Bosniya və Herseqovinanın Nazirlər Şurası arasında təbii və digər fəlakətlərdən mühafizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edildi. S.Qafarova bildirdi ki, beynəlxalq sazişlər birinci oxunuşdan sonra təsdiq edilməlidir. Odur ki, sənəd müzakirələrdən sonra qəbul edildi.

S.Qafarova məzmun və mahiyyətcə oxşar olan qanun layihələrinin ölkə Prezidentinin bir məktubu ilə daxil olduğunu bildirdi. Sənədlər müzakirələrdən sonra qəbul olundu.

Gündəlikdə nəzərdə tutulan Məhkəmə-Hüquq Şurasının tərkibinin yeni qaydada təşkil olunmasına dair layihə də qəbul edildi. Qanuna əsasən, Məhkəmə-Hüquq Şurasının 15 üzvdən ibarət tərkibi yeni qaydada təşkil olunacaq.

Müzakirəyə təqdim edilən "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanuna dəyişikliklə əsasən, Azərbaycan Mərkəzi Bankının səlahiyyətləri artırıldı. Dəyişikliklərə görə, İdarə Heyəti Mərkəzi Bankın kollegial ali idarəetmə orqanı funksiyası rolunu oynayacaq. Beləliklə, Mərkəzi Bankda daimi əsaslarla işləyən üzvlərin sayı da 4-dən 6-ya qaldırılır. Korrupsiya və qulluq cinayətlərinə görə məhkum olanlar İdarə Heyətinin üzvü ola bilməzlər.

Gündəlikdəki digər qanun layihələrinin müzakirəsindən sonra Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası başa çatdı.

*Ə.BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Baş prokuror vətəndaşlarla görüşüb

**İyunun 9-u Baş prokuror Kamran Əliyev Hacıqabul Rayon Prokurorluğunun inzibati binasında Hacıqabul, Salyan rayon və Şirvan şəhərindən, eləcə də digər rayonlardan olan vətəndaşlarla görüşüb.**



Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla anıb.

Görüşdə iştirak edən 23 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin Baş prokuror Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli fərmanı əsasında yaradılan və prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

*"Xalq qəzeti"*

# Fövqəladə hallar naziri qəbul keçirib



**Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov iyunun 9-da Qobustan şəhərində, nazirliyin Qobustan Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Qobustan və Şamaxı rayonlarının sakinlər ilə görüşüb.**

Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Əvvəlcə, nazir K.Heydərov xalqımızın ümummilli lideri Heydər Əliyevin Qobustan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Sonra fövqəladə hallar naziri ilə görüşən Qobustan və Şamaxı rayon sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşlarla görüşüb.

Görüşə gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlıq ediblər.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Ermənistanın hərbi avtomobilinə atəş açılmayıb

**Azərbaycan Ordusunun bölmələri tərəfindən guya iyunun 9-u saat 18:30-da Basarkeçər rayonunun Qaraiman yaşayış məntəqəsi istiqamətində Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularını daşıyan avtomobilə atəş açılması barədə bu ölkənin müdafiə nazirliyinin yaydığı məlumat tamamilə yalandır, həqiqətə uyğun deyil.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Qarşı tərəfin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik",- deyə Müdafiə Nazirliyindən bildirilir.

*"Xalq qəzeti"*



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 187** **Bakı şəhəri, 6 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" 2006-cı il 23 iyun tarixli 157 nömrəli və "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2023-cü il 13 yanvar tarixli 8 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 792-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 23 iyun tarixli 157 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 581; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları" üzrə:

1.2.1. adında "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların" sözləri ilə əvəz edilsin;

1.2.2. "Qeydlər." hissəsi üzrə:

1. 1-ci bəndin birinci abzasında "internat məktəblərində" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə və ikinci abzasında "internatda, internat tipli liseydə və gimnaziyada" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində, internat tipli sanator ümumtəhsil məktəbində, internat tipli liseydə və internat tipli gimnaziyada" sözləri ilə, "internatda" sözü isə "həmin təhsil müəssisələrində" sözləri ilə əvəz edilsin;

2. 3-cü bənddə "internat məktəblərində, internat tipli liseylərdə və gimnaziyalarda" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin;

3. 4-cü bənddə "Sanatoriya tipli internat" sözləri "İnternat tipli sanator ümumtəhsil" sözləri ilə əvəz edilsin;

4. 7-ci bənddə "İnternat məktəbi, internat tipli liseylər və gimnaziyalar" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbləri, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbləri, internat tipli sanator ümumtəhsil məktəbləri, internat tipli liseylər və internat tipli gimnaziyalar" sözləri ilə əvəz edilsin;

5. 8-ci bəndin birinci cümləsində "İnternat məktəblərində, internat tipli liseylərdə və gimnaziyalarda" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə və ikinci cümləsində "internat məktəblərində" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin;

6. 9-cu bəndin birinci, beşinci və altıncı abzaslarında "internat məktəblərində" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin;

7. 10-cu bənddə "internat məktəblərinə, internat tipli liseylərə və gimnaziyalara" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinə, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinə, internat tipli sanator ümumtəhsil məktəblərinə, internat tipli liseylər və internat tipli gimnaziyalara" sözləri ilə əvəz edilsin;

8. 11-ci bənddə "İnternat məktəbinin, internat tipli liseyin və gimnaziyaların" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların" sözləri ilə əvəz edilsin;

9. 13-cü bənddə "internat məktəblərində, internat tipli liseylərdə və gimnaziyalarda" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin;

10. 14-cü bənddə "İnternat məktəbində, internat tipli liseylərdə və gimnaziyalarda" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin;

11. 15-ci bənddə "internat məktəblərinin" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların" sözləri ilə əvəz edilsin;

12. 16-cı bənddə "Orta internat məktəblərində, internat tipli liseylərdə və gimnaziyalarda" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin;

13. 18-ci bənddə "İnternat məktəblərində, internat tipli liseylərdə və gimnaziyalarda" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərində, internat tipli sanator ümumtəhsil məktəblərində, internat tipli liseylərdə və internat tipli gimnaziyalarda" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 129) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nın 2.3.5-ci və 2.5.5-ci yarımbəndlərində "ümumtəhsil internat məktəblərində" sözləri "internat tipli ümumi təhsil müəssisələrində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 189** **Bakı şəhəri, 7 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 267 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları"nda və 2020-ci il 29 iyul tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnaməsi"ndə dəyişiklik edilməsi barədə***

"Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının 1.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 267 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 997; 2022, № 5, maddə 556) ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları"nın 1.5-ci bəndində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 999; 2022, № 5, maddə 557) ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnaməsi"nin 1.3-cü bəndində və 3.1.2-ci yarımbəndində "Milli Televiziya və Radio Şurasının" sözləri "Audiovizual Şuranın" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycanın gücü Cənubi Qafqazın yeni düzən faktorudur

## Sülh günəşini doğuran 44 günlük müharibədəki tarixi Zəfərdir

*(əvvəli 1-ci səhifədə)*

Bu yerdə 44 günlük müharibəni doğuran səbəblərə diqqət yetirək. İlk növbədə ümumi planda işğal faktoru vurğulanmalıdır. Yəni, Azərbaycan torpaqlarına Ermənistan tərəfindən qəsb və təcavüzün otuz ilə yaxın müddətdə davam etməsi. İkincisi, uzun illər Ermənistan rəhbərliyinin danışıqlar prosesini dalana dirəməsi. Üçüncüsü, 2018-ci ildə bu ölkədə hakimiyyətə gəlmiş baş nazir Nikol Paşinyan administrasiyasının Azərbaycanla konflikti güc hesabına sona çatdırmaq istəyi.

Diqqətə çatdırdığımız üçüncü məqamın üzərində dayanmaqla, digər iki məqama da aydınlıq gətirmiş olacaq, həmçinin, Azərbaycan-Ermənistan nizamlamasının hazırkı fazasına nəzər salacaq, ən əsası isə haradan hara gəldiyimizi göstərəcəyik. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il yanvarın 12-də ölkəmizin yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi və Ermənistanın hazırkı hakimiyyəti ilə bağlı olan fikirlərinin üzərində dayanmağı vacib sayırıq: "...Onu da biz unutmamalıyıq ki, indiki hakimiyyət əgər bu gün özünü daha konstruktiv aparırsa, faktiki olaraq müharibədən əvvəlki dövrdə müharibənin qaçılmaz olmasını şərtləndirdi. Axı "Qarabağ Ermənistandır və nöqtə" deyən indiki hakimiyyətin təmsilçisidir, "Yeni torpaqlar uğrunda yeni müharibə" ilə bizi hədələyən indiki hakimiyyətin təmsilçisidir. Cıdır düzündə oynayan, Azərbaycan xalqının heysiyyətinə toxunan indiki hakimiyyətin təmsilçisidir. Yəni, indi biz indiki hakimiyyətin davranışına baxmamalıyıq, özümüzü aldatmamalıyıq. Məhz onlar Azərbaycan ərazilərini daim işğal altında saxlamaq fikrində idilər, məhz indiki hakimiyyət dırnaqarası qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Şuşaya köçürmək istəyirdi və hətta orada binanın daş işləri də artıq tamamlanmışdı. Biz onu yerlə-bir etdik. İndiki hakimiyyət nümayəndələri deyirdi ki, biz dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıyıq və dırnaqarası "Dağlıq Qarabağ respublikası" danışıqlar masasında olmalıdır. Yəni Koçaryan-Sarkisyan yox, məhz indiki hakimiyyət. Ona görə yenə də deyirəm, biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq".

***

2020-ci il sentyabrın 27-də müharibə başlandı və Ermənistan darmadağın oldu. Hesab edək ki, Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat ilə müharibəyə son qoydu. Azərbaycan üçün savaşı başa çatdırmaq güc yolu ilə əldə etdiklərini siyasət meydanında möhkəmləndirmək impulsu idi. Ötən müddətdə bunu yetərincə dəyərləndirdi. Ermənistan üçün isə üçtərəfli Bəyanat "ölümdən" xilas anlamı daşısa da, 2020-ci ildən sonrakı müddətdə aşkar göründü ki, İrəvan, necə deyərlər, dirilərək itirilmişlərin bərpasına çalışır. Təbii ki, bu amil həm həmin vaxt öncül mövqe tutan Rusiyanın vasitəçilik missiyasına xələl gətirdi, həm də prosesə kənar oyunçuların qoşulmalarını şərtləndirdi. Moskva bu yolda nəyə görə axsadı, hesab edirik ki, hansı təzahür formalarından asılı olmayaraq, bu onun vəziyyəti düzgün qiymətləndirməməsinin nəticəsi idi.

Kreml əvvəla çalışdı ki, 2018-ci il inqilabı ilə qərbyönümlü inkişaf yolu tutmuş Ermənistanı daxili orbitinə qaytarsın. İkincisi, müharibənin doğurduğu reallıqlar fonunda özünün Cənubi Qafqazdakı jandarmeriya missiyasını davam etdirsin. Üçüncüsü isə yeni reallıqların gətirdiyi durumda qlobal aktor kimi regional müstəvidəki iqtisadi düzəndə həlledici rol oynasın, tərəflərə təzyiq imkanlarını saxlasın. Lakin ilk növbədə Ermənistana təsir gücünü itirdiyinin fərqinə varmadı. Moskva, habelə, Azərbaycanın müstəqil siyasət yürütdüyünün və bu siyasətin prinsiplərdə ardıcıllıq mahiyyətinin, həmin prinsiplərdən irəli gələn məsələləri gerçəkləşdirmək üçün siyasi–iqtisadi resurslara və alətlərə sahibliyinin fərqinə varmadı.



***

Nəticə etibarilə 44 günlük müharibədən sonra Bakı İrəvanı sülhə məcbur etməyə başladı və bu gün də təzyiqlərini davam etdirir. Çünki Azərbaycan üçün işğala son qoyulmasında olduğu kimi, bütün vacib məsələlərin gerçəkləşməsində həlledici faktor, gücdür.

Bəli, qətiyyətlə söyləmək mümkündür ki, hazırda Cənubi Qafqaz müstəvisindəki proseslərin inkişaf dinamikasını müəyyənləşdirən məhz Azərbaycanın gücüdür. O məsələ də var ki, Bakı bu gücü rasional şəkildə istifadə edir. Onun hər hansı kənar təsirlərə məruz qalmasına yol vermir. Belə demək mümkünsə, gücünün üstündə əsir ki, qlobal, eyni zamanda regional oyun qaydalarını pozmasın. Hesab edirik ki, bu məqamı böyük güc mərkəzləri də yaxşı görür və hesablaşırlar.

Ermənistan da hesablaşmaq məcburiyyətindədir. 44 günlük müharibədən sonra fərqli vəziyyət yaratmaq istəyən tərəf həm də odur. Hazırda istəyinə nail olmayacağını da anlamış və müəyyən mənada vəziyyətlə barışmış durumdadır. İndi Ermənistanın etmək istədiyi yalnız lokal mənafelərin təminatıdır. Böyük anlamda isə baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçilərini düşündürən ölkənin varlığı, təhlükəsizlik təminatıdır. Halbuki 44 günlük müharibədən sonrakı ilk müddətdə onlar vəziyyətin özləri üçün bu dərəcədə dramatik şəkil alacağını nəinki təsəvvürə gətirmir, heç ağıllarından belə keçirmirdilər. Düşünürdülər ki, müharibə məğlubiyyəti məntiqi durum deyil, qorxunc yuxu və ani uğursuzluqdur. Ermənistan hakimiyyəti, bir növ, yuxudan ayılaraq, rüsvayçılığı aradan qaldıracağı qənaətində idi...

Bəli, hazırda Azərbaycanın yaratdığı, gücü və iqtisadi rakursu paralel şəkildə özündə birləşdirən vəziyyətin ayrı-ayrı epizodları onu deməyə əsas verir ki, artıq Bakı-İrəvan münasibətlərinə böyük güclərin təsir imkanları yoxdur. Halbuki otuz ilə yaxın müddətdə həmin təsirlər olmuşdu. Məsələni Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb. Dövlətimizin başçısının mövcud xüsusda Ermənistan rəhbərliyinə çoxsaylı xəbərdarlıqları var. Əlbəttə, itirilmişlərin bərpasına ümid bəsləyən avantürist erməni cəmiyyətinin bu reallığı anlaması zaman sürsə də, mahiyyət və gediləcək yolun qaçılmazlığına dair siyasi paradiqma aktuallığını qorumaqdadır.

İndi istər Qarabağ ermənilərinin durumu, istər regionda kommunikasiyaların açılması, istər Zəngəzur dəhlizi, istərsə də anklavlar məsələsi və sair bu kimi daxili elementləri özündə birləşdirən Azərbaycan-Ermənistan münasibətlərinin, böyük anlamda isə Cənubi Qafqazdakı münaqişəli durumun tənzimlənməsinə xarici güclü oyunçuların birbaşa təsiri minimal olduğundan, əsas məqam Bakı və İrəvanın anlaşmasıdır. Böyük ölçüdə nə Rusiyanın, nə də ermənipərəstliyin kif atmış təmayüllərinə köklənmiş Fransanın vəziyyətə hansısa təsiri yoxdur.

Rusiya qeyri-ordinar hərəkət göstərəcəyi təqdirdə, Ermənistandan sonra Azərbaycanda da nüfuzunu itirəcək, Fransa isə onsuz da özü üçün kollektiv Qərb anlayışında sabit olmayan durumunu daha da ağırlaşdıracaq. Vasitəçilikdə kollektiv Qərbin digər təmsilçiləri olan ABŞ və Avropa İttifaqının ehtiyatlı davranmaları isə vəziyyəti düzgün dəyərləndirmək ehtiyacından irəli gəlməkdədir. Bu mənada dünyada məşhur Valday Siyasi Diskussiya Klubunun proqram direktoru, siyasi icmalçı Timofey Bordaçevin söylədikləri maraq doğurmaqdadır.

Bildirdiklərindən belə çıxır ki, T.Bordaçev Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsindəki Qərb vasitəçiliyinin aktvliyi fonunda Rusiyanın siyasi mühitində yaranmış qısqanc münasibət ifadəçilərindən fərqli olaraq, sülh müqaviləsi imzalanmasından sonra iki Cənubi Qafqaz ölkəsi arasında problemlərin qalacağını düşünmür. Çünki o, sülh prosesinə doğru yoldakı hadisələrin əsas münaqişə tərəfləri arasında ikitərəfli münasibətlər çərçivəsində inkişaf etdiyini vurğulayır, xarici qüvvələrin, hətta onların ən güclülərinin belə, təkamülə həlledici təsir göstərə bilməsinin qeyri-mümkünlüyünü qabardır. Bununla yanaşı, siyasi icmalçı hazırda getdikcə daha çox ehtimal olunan həllin, məhz ikitərəfli kontekstdə davamlılığının nəzərdən keçirilməli olduğu düşüncəsindədir. Onun bu deyimi daha çox tərəflərin məsələyə yanaşmasının fundamentallığına duyulan zərurətin vurğulanmasıdır.

Tanınmış rusiyalı politoloqun Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi nöqteyi-nəzərdən irəli sürdüyü ümumi mahiyyət daşıyan nəzəri aspektlər və həmin aspektlər fonunda gəldiyi nəticə də maraq doğurmaqdadır. Məsələn, o bildirir ki, beynəlxalq münasibətlər elmi böyük dövlətlər arasında münaqişələrlə nisbi rahatlıqla məşğul olur. "Onların maraq və dəyərlər üzərində toqquşmalarının praktiki təcəssümü kimi bu və ya digər ərazinin taleyi məsələsi ola bilər. Lakin hər zaman təhlükəsizlik problemi əsas yer tutur. Burada ərazi nəzarəti ikinci dərəcəli əhəmiyyət kəsb edir və qarşıdurmanın xarakteri beynəlxalq siyasətə təsir və strateji perspektivdə var olmaq kimi ümumi məsələlərə aiddir. Bu cür münaqişələr istər hərbi, istərsə də diplomatik, çox vaxt ciddi müharibələrə çevrilsə də, opponentlərin imkanlarının müqayisəliliyinə və ən əsası digərlərindən üstünlüyünə görə ikitərəfli münasibətlər çərçivəsində davam edir və həllini tapır. Belə konfliktlər mahiyyətcə və onların gedişatını şərtləndirən amillərə görə eynidir. Onlar formuldur və beynəlxalq münasibətlər elminin metodoloji vasitələrindən istifadə edərək proqnozlaşdırmaq üçün asanlıqla əldə edilə bilər", - deyən Bordaçevin fikirləri əvvəldə haqqında söz açdığımız motivlərə toxunulması baxımından da əhəmiyyətlidir.

Bəli, Valday klubunun proqram direktoru T.Bordaçev kifayət qədər rasional yanaşma müəllifidir. Onun fikirlərindən belə çıxır ki, hazırda Azərbaycan-Ermənistan münasibətləri, mövcud xüsusda irəli çəkilən Qarabağ amili beynəlxalq güclərin təsir imkanlarının yüksəkliyi fazasından çıxıb. Vurğuladıq və həqiqətən belədir ki, bu, Azərbaycan dövlətinin yaratdığı reallıqdır. İndi görürük ki, bu reallıq həm də beynəlxalq münasibətlər elminin qanunauyğunluqları və ahəngi fonunda meydana çıxmış təmayüldür.

Əlbəttə, Bakının bu təmayülün yetişdirilməsi, işləklik qazanması, böyük güclərin nəzəri məsələləri təhdidetmə təbiəti ilə bağlı klişelərdən qurtulması naminə apardığı siyasi-diplomatik fəaliyyətin uğuru ayrıca qeyd edilməlidir. Mövcud mənada Prezident İlham Əliyevin 44 günlük müharibənin davam etdiyi günlərdə - 2020-ci ilin oktyabrın 26-da xalqa müraciəti zamanı bildirdiyi fikirləri yada salaq: "Münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Biz bu bazanı genişləndirmişdik. Bu gün təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələri yox, digər sənədlər mövcuddur. BMT Baş Assambleyası qətnamə qəbul edib, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, digər təşkilatlar. Avropa İttifaqı ilə paraflanmış sənəddə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəa var. Yəni, bu, hüquqi bazadır və bu baza imkan verir ki, bu gün biz döyüş meydanında düşmənə dərs verək, qovaq onları, rədd edək bizim torpaqlarımızdan".

Fikrimizi dolğunlaşdırmaq üçün daha bir məqama diqqət çəkək. Baxın, Azərbaycan 44 günlük müharibəyə qədər müxtəlif beynəlxalq nüfuzlu platformalarda torpaqlarının işğala məruz qaldığını, işğal nəticəsində beynəlxalq hüququn norma və prinsiplərinin pozulduğunu, üstəlik BMT-nin dörd qətnaməsinin icra olunmaması kimi mənfi presedentin yarandığını vurğulayırdı, amma eşidən olmurdu. İkinci Qarabağ müharibəsində ölkəmizin göstərdiyi güc, eyni zamanda bu gücün tətbiqinə zəmin formalaşdırmaq üçün illərlə apardığı siyasət isə yekunda torpaqlarımızn işğalına son qoydu ki, bu, həm də həmin beynəlxalq hüququn prinsiplərinin böyük güclər tərəfindən saya salınmaması kimi mənfi tendensiyanı sıradan çıxardı. T.Bordaçevin dəyərləndirməsi baxımından yanaşsaq, bu, konfliktin obrazlı desək, böyük dövlətlərin hərəsinin bir tərəfdən tutub saxlamaqdan imtinasının ortaya qoyduğu situasiyadır.

Bəli, Azərbaycanın tarixi zəfərlə başa çatdırdığı İkinci Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasi vəziyyətinin formalaşmasında mühüm mərhələdir. Nəticədə, bölgənin keçmişi ilə gələcəyi arasında köklü dəyişiklik baş verməkdədir. Hazırda regional güc dəyişikliyi və Qafqazda yeni geosiyasi reallıq qlobal və regional güclər tərəfindən qəbul edilib. Azərbaycan və Ermənistan arasındakı sülh gündəliyini aktuallaşdıran da elə budur. Ancaq sonda dövlətimizin başçısının İrəvanla sülh müstəvisində səsləndirdiyi, eyni zamanda, ölkəmizin yeni Cənubi Qafqaz düzənindəki prioriteti olaraq meydana çıxan bir fikrini də diqqətə çatdırmaqla, yazımızı tamamlamaq istərdik. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirmişdi: "...Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Halbuki biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər. İndi imzalansa da, imzalanmasa da, biz dediyim kimi, öz hərbi gücümüzü, qüdrətimizi daim artıracağıq və artırmalıyıq".

***Əvəz CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Napoleon əsgərlərimizə qarşı

## Yaxud Ermənistan hakimiyyəti "Brüssel formatı"na saymazlıq göstərir

**Dünən Ermənistanda Azərbaycan Ordusunun hərbçilərindən biri Hüseyn Axundovun məhkəməsi başlayıb. Məlumatı erməni mediası yayıb. H.Axundov Sünikdə 57 yaşlı mühafizəçini qətlə yetirməkdə ittiham olunur. Yəni, əsgərimizə qarşı saxta ittihamın motivi budur. Cinayət işinə Napoleon Ohanyan adlı hakimin baxacağı bildirilir.**

Deməli, Ermənistan nəticə çıxarmaq istəmir. Heç şübhəsiz, ölkənin bu davranışı sülh prosesinin aktivləşdiyi hazırkı dövrdə ciddi problemlər doğuracaq. Belə yanaşma, eyni zamanda, İrəvanın səmimiyyətdən uzaqlığını göstərməkdədir. Mövzumuz həm də bu barədədir.

Əvvəlcə qeyd edək ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin və Axundov Hüseyn (2003-cü il təvəllüdlü) aprelin 9-da Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəddə yerləşən Şahbuz rayonu ərazisində əlverişsiz hava şəraiti ilə əlaqədar görüntünün məhdudlaşdırılması səbəbindən itkin düşüblər. Sonradan sosial şəbəkələrin erməni seqmentində əsgərlərimizin tutulması ilə bağlı videogörüntülər yayıldı ki, həmin görüntülərdə onların alçaldıcı rəftara məruz qaldıqları nümayiş olunurdu.

Yeri gəlmişkən, həm hərbçilərimizə qarşı nalayiq və qeyri-insani davranışa, həm də məhkəmə prosesinə Azərbaycan Prezidenti İlham Əliyevin reaksiyası kifayət qədər sərt olmuşdu. Dövlətimizin başçısı mayın 28-də Laçında öz doğma yurd-yuvalarına dönmüş rayon sakinləri ilə görüşündə məsələyə toxunmuş, diqqəti İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmaya çəkərək bildirmişdi: "Bir müddət bundan əvvəl bizim iki hərbçimiz yolu azaraq Ermənistan ərazisinə keçib və orada da işgəncələrə məruz qalıb. Bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla Azərbaycan nümayəndələri belə bir razılığa gəliblər, əgər kimsə yolu azsa, - çünki bu ehtimal çox böyükdür, xüsusilə qış aylarında, siz özünüz bilirsiniz ki, burada iqlim çox sərtdir, dağlardır, dərələrdir, yolu azmaq olar, - əgər belə bir hal baş verərsə, maksimum iki günə o adamlar qaytarılmalıdır. Biz buna əməl edirdik. Onları maksimum iki gün saxlayıb, sorğu-suala tutub qaytarırdıq, mülki vətəndaşları da, hərbçiləri də. Görün, onlar nə etdilər?! Onlar, birincisi, yolu azmış hərbçilərimizi vəhşicəsinə döyüblər, qandallayıblar, ləyaqətini alçaldıblar, döyülmə anlarını videoya çəkiblər. Ondan sonra həbs ediblər və artıq məhkum ediblər. Bu, harada görünüb?"

Qeyd edək ki, haqqında söz açdığımız məsələ mayın 14-də Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş üçtərəfli görüşündə də müzakirə olunmuşdu. Həmin vaxt görüşün nəticələri ilə bağlı məlumat verən Ş.Mişel humanitar məsələlər kontekstində bildirmişdi ki, tərəflər yaxın həftələrdə daha çox məhbusun azad ediləcəyinə dair razılığa gəliblər. Onun sözlərinə görə, təmas gedişində azaraq qarşı tərəfə keçmiş hərbçilərin tezliklə azadlığa buraxılmasının, itkin düşmüş şəxslərin taleyinin həlli və minalardan təmizlənməsi üzrə işlərin gücləndirilməsinin vacibliyi də vurğulanmışdı.

Qeyd edək ki, Azərbaycan Prezidenti Laçın sakinləri ilə görüşündə çıxış edərkən də mayın 14-də Belçikanın paytaxtındakı üçtərəfli görüş zamanı əldə olunmuş razılığı və orada hərbçilərimizə qarşı qeyri-insani rəftarla bağlı özünün hansı mövqeni ortaya qoyduğunu xatırlatmışdı. "...Mayın 14-də Brüsseldə keçirilən üçtərəfli görüşdə mən bildirdim ki, bu, dözülməzdir. Əgər siz bu razılaşmanı (İkinci Qarabağ müharibəsindən sonra yolu azmış hərbçilərin iki gün müddətində geri qaytarılması ilə bağlı razılaşma – red.) pozursunuzsa, bunun acısını siz özünüz çəkəcəksiniz. Dərhal bizim hərbçilərimizi qaytarın. Amma bunun əvəzinə onlara iş verilib, 11 il müddətinə məhkum ediliblər. Nə məhkəmə olub, nə vəkil olub, nə hakim olub, nə də media nümayəndələri. Belə məhkəmə olar? Bu, qanunsuzluqdur. Ona görə bu gün də deyirəm, hələ ki, gec deyil".

Lakin bir daha deyək ki, Ermənistan üçtərəfli Brüsseldəki görüşdə əldə edilmiş razılaşmaya əməl etmir. Əsgərimiz Hüseyn Axundovla bağlı məhkəmə prosesinin başladılması da bundan xəbər verməkdədir. Mövcud xüsusda onu da diqqətə çatdırmalıyıq ki, Prezident İlham Əliyev haqqında söz açdığımız çıxışında hərbçilərimizin mühakiməsinin yolverilməzliyini, onlara qarşı saxta ittihamların irəli sürüldüyünü vurğulayaraq, Ermənistanın hələ ki, de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyinin olduğunu xatırlatmışdı. Dövlətimizin başçısı, həmçinin, ölkənin sərhədləri anlayışının da hələlik müəyyən mənada qəbul edildiyini diqqətə çatdırmışdı. Yəni, əgər normal sərhəd yoxdursa, deməli, onun pozulması ilə bağlı hansısa hərəkətlərin edilməsinə dair ittiham da doğru sayıla bilməz. Ən əsası isə: "...Onlar bizim şərtlərimizi qəbul etməlidirlər. Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim".

Sonda bildirək ki, Azərbaycan hakimiyyəti yolunu azaraq Ermənistan tərəfə keçmiş əsgərlərimizin ölkəmizə qayıtmaları üçün bütün mümkün vasitələrdən istifadə edəcəkdir. Dövlətimizin başçısının Laçında ortaya qoyduğu qətiyyətli mövqe dirənişin növbəti bariz nümunəsidir. Bu isə o deməkdir ki, İrəvanda onlara qarşı hansı saxta hökmün çıxarılmasının heç bir əhəmiyyəti yoxdur. Əsgərlərimiz Vətənə dönəcəklər.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

**Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovla söhbətimizdə düşməndən təmizlənən Füzuli şəhərində aparılan bərpa-quruculuq layihələrinin həyata keçirilməsi, daxili yol-küçə şəbəkəsinin qurulması, həmçinin Dövlətyarlı kəndində "ağıllı kənd" konsepsiyası əsasında reallaşdırılacaq bərpa işləri, "Köndələnçay" su anbarının yenidən yaradılması və digər məsələlərə geniş yer verildi.**

# Qayıdışın Füzulisi – Zəfərdən doğulan şəhər

***Emin Hüseynov Füzuli şəhərinin bərpasından danışarkən, ilk növbədə, müfəssəl həllərlə inteqrə olunan Baş planın 2040-cı ilə qədərki inkişaf dövrünü əhatə edəcəyini dedi.*** Müsahibimiz həmin sənədə əsasən, təbiət əraziləri ilə vəhdətdə inkişaf edən şəhər strukturunun formalaşdırılmasının, kommunal xidmətlər də daxil olmaqla yüksək keyfiyyətli xidmət obyektlərinin yaradılmasının diqqətdə saxlanıldığını vurğuladı.

Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsinin, 13 məktəbəqədər və peşə təhsili, internat tipli musiqi məktəblərinin, xəstəxana, mədəniyyət və inzibati mərkəzlərin, idman kompleksinin inşasının, Qələbə və Memorial parkların, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan eko parkın salınması planlaşdırılıb.

Baş planda Füzuli şəhərinin dayanıqlı inkişaf, "ağıllı" həllər əsasında qurulması və insanların sağlam həyatını gerçəkləşdirmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib. 2030-cu ilədək dayanıqlı inkişaf üçün idarəetmə, iqtisadiyyat, sosial rifah, ətraf mühit kimi 4 əsas istiqamət seçilib.

Sənəddə sakinlərin rifahı üçün rəqəmsal həllərdən yararlanmaqla ənənəvi şəbəkələrin və xidmətlərin daha səmərəli edilməsi məqsədilə "ağıllı şəhər" yanaşması irəli sürülüb. Bu yanaşmada elektron idarəetmə sistemlərinə tam keçid, müasir texnologiyalar üzrə peşəkar kadrların hazırlanması, yaşayış evləri, təhsil, səhiyyə və digər xidmətlər sisteminin optimal əlaqələndirilməsi və digər mühüm mövzular öz əksini tapıb.

***Emin Hüseynov daha sonra dedi:***

– Baş plan çərçivəsində şəhərə bütün istiqamətlərdən giriş-çıxışı təmin edən nəqliyyat şəbəkəsi qurulacaq, ərazi 3 dairəvi avtomobil yolu vasitəsilə yığcam formada planlaşdırılacaq, ictimai nəqliyyatın hərəkətinə üstünlük verilməsi üçün uyğun küçə-yol şəbəkəsi formalaşdırılacaq, təbii çayların, su hövzələrinin mühafizə zonalarında geniş rekreasiya əraziləri təmin ediləcək, şəhərin tarixi irsinin tərənnüm etdirilməsi məqsədilə şəhər ərazisində Qələbə parkı, M.Füzuli Meydanı, Memorial park da  yaradılacaq və yaşıl zolaqlar vasitəsilə bu ərazilər bir-biri ilə əlaqələndiriləcək, məşğulluq əraziləri şəhərin şərq tərəfində, hava limanının mühafizə zonasının daxilində yerləşdiriləcək.

Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətində aparılan işlər barədə danışarkən, həm də işğalçıdan təmizlənən ərazilərin bərpasında



Azərbaycanın üzləşdiyi ən mühüm problemlərdən birinin mina və digər partlayıcı maddələr olduğunu qeyd etdi:

– ***Müsahibimiz minalarla çirklənmə ilə bağlı mübarizənin respublikamızın milli prioritetləri sırasına daxil edilməsinin önəmli məsələ olduğunu vurğuladı:***

– Yenidənqurma işlərinin birinci mərhələsində kiçik ərazilərin bərpası layihələri həyata keçirildi. Daha sonra isə iri şəhərlərin yenidən qurulmasına başlanıldı. Bütün bunlar isə minaların təmizlənməsi ilə paralel şəkildə reallaşdırıldı. Ümumiyyətlə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında bu məsələ ilk gündən diqqət mərkəzində saxlanıldı. Başqa sözlə, sürətli bərpa-quruculuq layihələri minatəmizləmə işləri ilə paralel aparıldı.

İndiyədək Ağdamın ərazisinin 30 faizə yaxını, Füzuli ərazisinin 27 faizi, Xocalının 15,8 faizi, Xocavəndin 5,3 faizi minalardan təmizlənib. Beləliklə, həm Ağdamda, həm də Füzulidə mina təmizləyən heyətin əməyi nəticəsində işlərimiz bu gün öz axarı ilə gedir. Azərbaycan dövləti öz gücü hesabına Qarabağı bərpa edir. Bu əzəli torpağımızın dirçəlişi üçün hər cür şərait var.

Hazırda Füzulidə 6 məhəllə inşa olunur. 38 binada tikinti-quraşdırma əməliyyatları sürətlə aparılır. 800 ailənin həmin yaşayış sahəsinə ilin sonunadək köçürülməsi nəzərdə tutulur. Bu proses iki mərhələdə planlaşdırılır. Sentyabr ayına kimi reallaşacaq birinci mərhələdə 260 ailənin məskunlaşdırılması gözlənilir.

Ağdam şəhərində də bu proses sürətlə gedir. Burada ərazi geniş olduğu və bu səbəbdən də böyük həcmdə infrastruktur quruculuğu aparıldığı üçün məskunlaşmanın gələn ilin sonunda başlanacağı nəzərdə tutulur. Ümumiyyətlə, 2026-cı ilin sonunadək Ağdam şəhərinə 20 min keçmiş məcburi köçkünün köçürülməsi planlaşdırılır.

Bu il həm Hadrutda, həm də Tuğda tikinti-bərpa prosesinə start veriləcəyini bildirən Emin Hüseynov söylədi:

– Suqovuşanda isə artıq ilk yaşayış məhəlləsinin salınması üçün ilk 5 beş-



mərtəbəli binanın inşası üçün dövlət satınalınması proseduru həyata keçirilir. Yaxın bir-iki aya qədər orada tikinti əməliyyatlarına başlanacağı gözlənilir.

Xatırladım ki, işğaldan azad edilmiş digər ərazilərimiz kimi, Suqovuşan qəsəbəsinə də bu gün həyat yenidən qayıdır, burada quruculuq, təmir-bərpa işləri sürətlə aparılır. İlk olaraq ərazinin mina və partlamamış sursatlardan təmizlənməsinə başlanılıb. Qısa vaxtda Tərtər-Çaylı-Suqovuşan-Talış  avtomobil yolu ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında, eləcə də Tərtər və ətraf rayonların suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiy-



yətə malik Suqovuşan su anbarında təmir-bərpa işləri aparılıb.

Yeri gəlmişkən, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və yüksək texnologiyalar əsasında, o cümlədən "ağıllı" texnologiyalar bazasında müasir kəndlərin salınması, şəhərlərin yenidən qurulması bu bölgəni təkcə ölkəmizdə yox, dünyada dinamik və sürətlə inkişaf edən bir diyara çevirəcək. Sözügedən yaşayış sahəsinin "ağıllı" texnologiyalar əsasında qurulması Qarabağın dünyanın yüksək texnologiya baxımından ən diqqətçəkən bölgələrindən biri olacağından xəbər verir.

İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir. Suqovuşanda Turizmin İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin də təməli qoyulub. Ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacağı, oturacaqlar, söhbətgahlar quraşdırılacağı, həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyektinin yaradılacağı qərara alınıb.

Turizm İnkişaf Konsepsiyasına əsasən, su anbarının ətrafında müxtəlif turizm zonalarının yaradılması planlaşdırılır. İlkin olaraq 5 hektar ərazidə istirahət parkı, onun içərisində piyadaların gəzintisi üçün ərazilər, Turizm İnformasiya Mərkəzi, qayıqla gəzinti üçün platformalar yaradılacaq. Bunlardan əlavə, su anbarının ətrafında ictimai iaşə obyektlərinin yaradılması üçün zonalar ayrılacaq. Suqovuşanın girişində olan körpünün ətrafında Tərtərçayın boyunca istirahət düşərgəsinin salınması planlaşdırılır.

**Prezidentin xüsusi nümayəndəsinin sözlərinə görə, azad edilmiş ərazilərə Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində işlər 5 mərhələ üzrə aparılır:**

– "Bunlar ümumi və baş planların layihələndirilməsi, minatəmizləmə, baza infrastrukturunun yaradılması, sosial-iqtisadi infrastrukturun tammiqyaslı yenidən qurulması və nəhayət, insanların qayıdışının təmin olunmasıdır. Planlaşdırmanın təkcə tikintiyə deyil, minatəmizləməyə də aid olması vacibdir. Baza infrastrukturu təmin edilməlidir ki, bura yollar, qaz, işıq, su, rabitə və sosial infrastruktur - məktəblər, xəstəxanalar, inzibati binalar və yaşayış evləri daxildir.

Böyük Qayıdış üzrə Birinci Dövlət Proqramına əsasən, 2026-cı ilin sonunadək 34 mindən çox ailənin azad olunmuş ərazilərə köçürülməsi planlaşdırılır. Bununla bağlı müxtəlif dövlət qurumları arasında əməkdaşlıq şəraitində bütün məsələlər əlaqələndirmə qərargahı çərçivəsində əlaqələndirilir.

Emin Hüseynov söhbət zamanı önəmli bir məqama da toxundu:

– Keçmiş məcburi köçkünlərin məskunlaşdırılması prosesində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və müvafiq icra hakimiyyəti orqanı nümayəndələrindən ibarət işçi qrup tərəfindən bu prosesdən xeyli əvvəl doğma yurd-yuvalarından didərgin düşənlərin könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıdışının reallaşmasına hazırlıq tədbirləri görülür. Bu zaman, ilk növbədə, sosial şəraiti ağır olan, qəzalı vəziyyətdəki müvəqqəti məskunlaşma yerlərində yaşayan, eyni zamanda, tərkibində iş qabiliyyəti olan şəxslərə aid ailələrin məskunlaşmasına üstünlük verilir. Məsələn, Böyük Qayıdış Proqramı çərçivəsində martın 16-da Tərtər rayonunun Talış kəndinə ilkin mərhələdə bu cür şəraitdə yaşayan 20 məcburi köçkün ailəsinin (90 nəfər) köçürülməsi bunun bariz ifadəsidir.

**Emin Hüseynov bildirdi:**

– Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 3-də bu strateji ərazini düşməndən təmizlədikdən sonra dövlətimizin başçısının tapşırığı əsasında burada tikinti-bərpa işləri aparıldı, yeni evlər inşa olundu, zəruri infrastruktur yaradıldı. Bir sözlə, kənddə zəruri, layiqli yaşayış şəraiti yaradıldıqdan sonra Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Repatriasiya departamenti ilk mərhələdə Talış kəndində məskunlaşdırılacaq 20 ailə arasında şəffaflıq və ədalətlilik prinsipləri əsasında ev bölgüsü aparılması məqsədilə püşkatma keçirdi. Püşkatma nəticəsində ailələrin hər birinə veriləcək evin ünvanı müəyyənləşdirildi. Onlardan 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü dördotaqlı fərdi evlə təmin olundu.

Tamamilə qazlaşdırılan kənddə hazırda da bərpa-quruculuq işləri davam etdirilir. Növbəti mərhələdə bu yaşayış sahəsinə 158 ailənin köçürülməsi nəzərədə tutulur. Bu evlərin tikintisinin çox qısa zamanda başa çatdırılacağı gözlənilir. Çünki əsas infrastruktur layihələri artıq hazırdır.



Talış kəndindən sonra bu il Ağdam rayonundakı üç kənddə, eyni zamanda, Hadrut qəsəbəsi və Tuğ kəndində də bərpa işlərinə başlanılacaq və hesab edirəm ki, gələn il o ərazilərə də köç reallaşacaq. Bundan başqa, Füzuli rayonunun Pirəhmədli, Dədəli və Dövlətyarlı kəndlərinin bərpa prosesinə də bu il start veriləcək. Eyni zamanda, cari il ərzində Ağdam rayonunun Xıdırlı, Sarcalı və Kəngərli kəndlərində bərpa və quruculuq işlərinə başlanılacaq. Bu layihələr qrafikə uyğun olaraq vaxtı-vaxtında təhvil veriləcək.

**Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov Qarabağ iqtisadi rayonunda məskunlaşma ilə bağlı bildirdi:**

– Keçmiş məcburi kğçkünlərin həsrətində olduqları doğma torpaqlarımıza qayıdışı, həm onların yaşayış şəraiti, həm də işlə təmin olunmaları Prezident İlham Əliyev tərəfindən qarşımıza qoyulan ən önəmli vəzifədir. Bu tapşırığın yüksək səviyyədə   gerçəkləşməsi üçün bütün imkanlardan səmərəli istifadə olunur. Əsas məqsəd isə işğaldan azad olunmuş ərazilərdə bərpa və reabilitasiya prosesinin ilk mərhələsində Füzuli və Ağdamda iki şəhər mərkəzinin və 32 kəndin yenidən qurulması, həmçinin Hadrut, Suqovuşan və Tuğda turizmin inkişafı istiqamətində nəzərdə tutulan layihələrin yüksək keyfiyyətlə, eyni zamanda nəzərdə tutulan vaxtda həyata keçirilməsidir.



Xocavənd rayonunun Tuğ kəndində 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada inşa və bərpa ediləcək binaların ümumi sahəsi 3200 kvadratmetr olacaq. Ərazidə genişmiqyaslı abadlıq işlərinin görülməsi, yerüstü parkinq sahəsinin yaradılması nəzərdə tutulub. Bu ərazilərə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. İnzibati mərkəzdə tikinti-bərpa işlərinin gələn ilin martında başa çatdırılması nəzərdə tutulur.

**Emin Hüseynovun sözlərinə əsasən, məskunlaşma prosesi başlayana kimi, məşğulluq məsələsinin həlli də prioritet istiqamət olaraq diqqətdə saxlanılır:**

– Bununla əlaqədar aidiyyəti qurumların birgə əməkdaşlığı ilə xüsusi planlar hazırlanır. Yeri gəlmişkən, 2030-cu ilə qədər Qarabağ iqtisadi rayonunda 150 minə yaxın iş yerininin  yaradılması nəzərdə tutulur. Bunun üçün hər cür şərait var. "Ağdam Sənaye Parkı"nda iş yerlərinin gözlənilən sayı 5 min, kənd təsərrüfatı sektorunda 15–17 min, dağ-mədən sənayesində 1,5–2 min, turizm sahəsində 1,5–2 min, kiçik və orta sahibkarlıq sektorunda isə 10–11,5 mindir.

Prezidentinin xüsusi nümayəndəsi söhbətində işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı fikirləri də diqqətə çatdırdı. O, düşməndən təmizlənən torpaqlarda hazırda infrastrukturun, o cümlədən kənd təsərrüfatının inkişafı baxımından sahələrin işlənilməsinin aktiv mərhələsində olduğunu vurğuladı. Emin Hüseynov, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı potensialının həqiqətən çox böyük olduğunu, bu ərazilərin fərqli təbiəti, iqlim qurşaqları və həm yerli istehlak, həm də ixrac üçün istehsalı əhəmiyyətli dərəcədə artırmaq imkanı olduğunu xatırlatdı. Müsahibimiz daha sonra dedi:

– "Qarabağ torpaqları bol məhsul yetirən ərazilərdir. Bu ərazilər zəngin relyefi, iqlim şərtləri və digər əlverişli təbii imkanları ilə diqqət çəkir, eyni zamanda, kənd təsərrüfatının sürətli inkişafı baxımından fərqlənir. Hazırda bu yerlərin sağlamlaşdırılması, minalardan təmizlənməsi istiqamətlərində ilkin zəruri addımlar atılır. İlk növbədə, uzun illər istifadəsiz qalan torpaq sahələrinin yararlı hala gətirilməsi, deqradasiya proseslərinin aradan qaldırılmasına paralel olaraq meliorasiya və irriqasiya sistemlərinin qurulması çağırışı diqqətdə saxlanılır. Şübhəsiz ki, sonrakı mərhələdə isə torpaqların uçotunun aparılması, kateqoriyalarının hazırlanması, əkin, örüş və otlaq sahələrinin müəyyənləşdirilməsi planlaşdırılır.

Prezident İlham Əliyev dəfələrlə bildirib ki, işğaldan azad olunan Qarabağ torpaqları çox münbitdir. Ona görə də bu ərazilərdə yüksək məhsuldarlığa nail olmaq üçün fermerlərə, ora qayıdacaq vətəndaşlara həm kömək göstəriləcək, subsidiya, tövsiyə veriləcək, yetişdirilən məhsulu bazarlara çıxarmaları üçün dəstək olunacaq. Bu isə öz növbəsində, gələcəkdə ölkəmizin kənd təsərrüfatı məhsullarının  idxal asılılığından azad edəcək.

**Sonda maraqlı müsahibəyə görə Emin Hüseynova təşəkkürümüzü bildirdik.**

***Vaqif BAYRAMOV,***
***Səbuhi MƏMMƏDOV,***
***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

***Əbülfəz BABAZADƏ,***
***"Bakinskiy raboçiy"***

***Bakı–Füzuli–Bakı***

# Azərbaycan Heydər Əliyev Fondunun dəstəyi ilə “Revelations” Beynəlxalq Biennalesində təmsil olunur





**Azərbaycan Parisin mərkəzində, Eyfel qülləsinin qarşısında məşhur “Grand Palais Ephemere”də 10 illiyini qeyd edən “Revelations” Beynəlxalq Sənətkarlıq və Yaradıcılıq Biennalesində təmsil olunur. Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə Biennaledə Elvin Nəbizadənin 2017-ci ildə Venesiya Biennalesi üçün yaratdığı və Heydər Əliyev Fondu tərəfindən “Revelations” Beynəlxalq Biennalesi üçün seçilmiş “Bir günəş altında” adlı müasir instalyasiyası sərgilənir. Biennale çərçivəsində Azərbaycan stendinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, stendin açılışında Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Milli Məclisdə Azərbaycan-Fransa parlamentlərarası işçi qrupunun rəhbəri Soltan Məmmədov, “Grand Palais” – Milli Muzeylər Birliyinin prezidenti Jan-Pol Kluzel, azərbaycanlı və fransız deputatlar, incəsənət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva çıxış edərək Azərbaycan mədəniyyəti və incəsənətinin təşviqi ilə bağlı Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən söz açıb. Ölkəmizin istedadlı incəsənət nümayəndələrinin əsərlərinin Fondun dəstəyi ilə Parisdə dəfələrlə nümayiş olunduğunu vurğulayan səfir Azərbaycan stendindəki instalyasiyanın göy qurşağını əks etdirdiyini deyərək, onun ölkəmizdə sülhü, aydın gələcəyi təcəssüm etdirdiyini bildirib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov instalyasiyanın müəllifi, heykəltaraş Elvin Nəbizadənin Azərbaycanın müasir incəsənəti sahəsində istedadlı heykəltaraşlardan biri olduğunu qeyd edib. E.Nəbizadənin əsərlərinin dünyanın bir çox tanınmış qalereyalarında sərgiləndiyini diqqətə çatdıran Anar Ələkbərov bildirib ki, bu əsər Venesiya Biennalesində xüsusi yer tutub. “Revelations” Biennalesində nümayiş olunan çoxsaylı əsərlər arasında da bu instalyasiya unikallığı ilə diqqəti cəlb edir.

“Grand Palais” – Milli Muzeylər Birliyinin prezidenti Jan-Pol Kluzel Azərbaycanın “Revelations” Biennalesində iştirakından şad olduqlarını deyib. Qeyd edib ki, Biennalenin əsas məqsədi bədii yaradıcılıq sahəsində istedadların aşkarlanması və tanıdılmasıdır. “Revelations” sülh, həmrəyliklə bağlı mədəniyyət sahəsində bir mesajdır. Azərbaycan stendi də məhz biennalenin mesajını əks etdirir.

Nümayiş olunan “Bir günəş altında” instalyasiyasının müəllifi, heykəltaraş E.Nəbizadə Heydər Əliyev Fonduna ona yaratdığı bu şansa görə təşəkkür edib. O, əsərin ərsəyə gəlməsindən danışıb.



Azərbaycan 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə ilə uzun sürən münaqişəyə son qoyduqdan sonra heykəltəraş saza yeni - ikinci həyat vermək qərarına gəlir və beləliklə, “Bir günəş altında” instalyasiyası yaranır.

Bildirib ki, şans rəmzi olan göy qurşağı formasında 44 sazdan ibarət instalyasiya Azərbaycan multikulturalizminin, ölkəmizdə yaşayan müxtəlif millətlərin və xalqların birliyinin rəmzidir.

Milli-mənəvi dəyərlərimizin qorunmasına töhfə verən, mədəniyyətimizin bütün dünyada tanınmasını təşviq edən Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanmış Azərbaycan stendi müstəsna instalyasiyası ilə təkcə ziyarətçilərin deyil, həmçinin müxtəlif ölkələrdən Biennaleyə qatılmış sənətkar və yaradıcı insanların diqqətini də cəlb edib.

Qeyd edək ki, biennaleyə 30 ölkədən 400-dək sənətkar və yaradıcı insan qatılıb. Bu il 10 illiyini qeyd edən və müasir yaradıcılığın episentri olan “Revelations” Beynəlxalq Sənətkarlıq və Yaradıcılıq Biennalesi iyunun 11-dək davam edəcək.

# Naxçıvanda yeni sosial-iqtisadi mühit formalaşacaq

**Hazırda ayrı-ayrı regionlar miqyasında daha dayanıqlı və davamlı gələcək qurulması istiqamətində iqtisadi artımın sürəti, onun keyfiyyəti və başlıca təkanverici amillərinin hərəkətə gətirilməsi həmin bölgələrin inkişaf gündəliyində duran əsas məsələlərdir. Bununla belə, dayanıqlı inkişafın iqtisadi, sosial və ətraf mühit komponentlərinin ahəngdar inkişafı sahələrində standart yanaşmalar mövcud deyildir. Ona görə də tarazlı inkişaf yolunun müəyyən edilməsində hər bir bölgənin spesifik və coğrafi xüsusiyyəti nəzərə alınmalıdır.**



2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta Dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır. Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxmışdır. Mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi zəruridir. Bu isə, mütəmadi olaraq, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanaraq icra olunmasını nəzərdə tutur.

Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün 2023–2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuş və Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcəkdir. Şərqlə qərbi birləşdirən ən qısa yollardan birinin Naxçıvandan keçməsi, onun coğrafi əhəmiyyətinin başlıca şərtidir. Zəngəzur dəhlizinin açılması isə Naxçıvanda azad iqtisadi zonanın yaradılması şanslarını daha da artırır.

Dövlət Proqramının əsas hədəf göstəriciləri dayanıqlı inkişafın təmin olunması; məşğulluq imkanlarının artırılması əhalinin həyat səviyyəsinin yüksəldilməsi; təbii ehtiyatlardan səmərəli istifadə edilməsi; ətraf mühitin mühafizəsinin təmin olunmasıdır. İnkişafa dair digər dövlət proqramlarından bir fərqi isə Proqram daxilində GZİT təhlilin yerləşdirilməsidir. GZİT təhlil əsasında “Güclü tərəflər”in verdiyi üstünlük və “İmkanlar”ın yaratdığı fürsətlərdən bəhrələnərək “Zəif tərəflər” inkişaf etdiriləcək və “Təhlükələr”in mümkün neqativ təsirləri minimuma endiriləcəkdir. Naxçıvanın əlverişli coğrafi mühitini nəzərə alsaq, ilk prioritetlərdə nəzərdə tutulan AİZ lərin yaradılması Naxçıvan iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir.

Burada azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcəkdir. Bu proqramların icrası istiqamətində görülən işlər Naxçıvanda rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsinə, müxtəlif təyinatlı infrastruktur obyektlərinin yaradılmasına, yeni iş yerlərinin açılmasına və əhali rifahının daha da yaxşılaşdırılmasına xidmət edir.

Proqramın mühüm istiqamətlərindən əsas hissəsi sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi təşkil edir. Bu istiqamətdə görülən işlər muxtar respublikada sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin formalaşmasına səbəb olur. Sahibkarlığın inkişafının stimullaşdırılması, öz növbəsində, yeni istehsal sahələrinin yaradılması və müxtəlif iş yerlərinin açılması yolu ilə əhali məşğulluğunun təmin olunması ilə nəticələnəcək. Zəngəzur dəhlizi açıldıqdan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisi ilə Naxçıvan Muxtar Respublikasının əhalisi arasında qarşılıqlı ticarət və səfərlər üçün imkanlar yaranacaq, güzəştlərin quru yolu ilə Azərbaycan Respublikasının digər bölgələrindən edilən səfərlərə tətbiqi məsələsinə ayrıca qiymətləndirmə aparılmaqla baxılacaqdır.

Həyata keçiriləcək tədbirlər Naxçıvan Muxtar Respublikasının ərazisində iqtisadi aktivliyin, məşğulluğun və ixracın artmasına, yerli istehsalın maya dəyərinin azalmasına və əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsinə, habelə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə işgüzar əlaqələrinin güclənməsinə kömək edəcəkdir. Xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasında vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması bölgədə investisiya mühitinə müsbət təsir edəcək.

Digər prioritetlərdən biri ixrac yönlü sənayenin inkişafıdır. İxracyönlü sənaye sahəsində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, istehsal olunmuş sənaye məhsullarının keyfiyyəti yüksələcək, həmçinin yeni iş yerləri yaradılacaqdır.

Naxçıvanda mövcud olan əlverişli təbii şərait aqrar sektorun inkişafı üçün mühüm zəmin yaradır. Bu istiqamətdə göstərilən dövlət dəstəyinin həcminin ildən-ilə artması kənd təsərrüfatını sosial-iqtisadi həyatın aparıcı sahələrindən birinə çevirir. Kənd təsərrüfatının inkişafını şərtləndirən amillərdən biri də daimi su mənbələrinin olmasıdır. Meliorasiya və su təsərrüfatının hərtərəfli inkişafı sosial-iqtisadi fəaliyyətin başlıca istiqamətlərindən birini təşkil edir. Dövlət proqramında da bu istiqamətdə tədbirlər müəyyənləşdirilmişdir.

Müasir dövrün aktual strateji məsələlərindən biri də enerji təchizatıdır. Əlverişli coğrafi mövqe və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır və bu enerji mənbələrinin sayı ildən-ilə artmaqdadır. Naxçıvandan Türkiyəyə çəkiləcək enerji xətti Naxçıvanın yaşıl enerji ixrac imkanlarını daha da genişləndirəcək və bölgənin enerji potensialının artırılmasına müsbət təsir göstərəcək. Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq, bu isə ölkənin əlavə enerji gücləri hesabına dünya bazarına (Türkiyəyə və Avropaya) elektrik enerjisi satmaq imkanlarını və alternativlərini genişləndirəcəkdir.

***Eyyub KƏRİMLİ,***
***iqtisadçı-ekspert***

**Postpandemiya dövründə iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası Azərbaycan Respublikasının qarşısında duran prioritet məsələlərdən birinə çevrilib. “Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Prezidentin fərmanında göstərildiyi kimi, iqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, “Hökumət buludu” (G-Cloud), “Böyükhəcmli məlumatlar” (Big Data), “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir. Bütün bu təşəbbüslər rəqəmsal iqtisadiyyatın formalaşmasının əsas şərtləridir.**

# “Rəqəmsal iqtisadiyyat” barədə ilk samballı dərslik

Milli Aviasiya Akademiyası ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) birgə nəşr etdirdiyi və Elm və Təhsil Nazirliyinin əmri ilə çap hüququ (qrif) verilmiş “Rəqəmsal iqtisadiyyat” kitabı bu sahədə ilk fundamental dərslikdir. Giriş hissəsini İİTKM-in icraçı direktoru, Dövlət İdarəçilik Akademiyasının professoru, iqtisad elmləri doktoru Vüsal Qasımlının yazdığı və 6 müəllifin birgə ərsəyə gətirdiyi “Rəqəmsal iqtisadiyyat” rəqəmsallaşmanın mahiyyətini və onun iqtisadi inkişafa təsirini dərindən araşdıran yenilikçi bir kitabdır. Rəqəmsal iqtisadiyyatın müxtəlif aspektlərinə xüsusi diqqət yetirməklə kitab rəqəmsal iqtisadiyyatın nəzəri əsaslarının, gələcək inkişaf perspektivlərinin, həlli zəruri olan kibertəhlükəsizlik problemlərinin, rəqəmsallaşmanın sektoral təsirlərinin, elektron ticarətin, rəqəmsal transformasiyanın və rəqəmsal hökumətin idarə edilməsinin dərin təhlilini təklif edir.




Kitabda rəqəmsal iqtisadiyyat insanlar, şirkətlər, cihazlar, məlumatlar və proseslər arasında gündəlik milyardlarla onlayn bağlantıdan qaynaqlanan iqtisadi fəaliyyətlərin toplusu kimi izah olunur. Qeyd edilir ki, rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalara fokuslanan, yəni rəqəmsal və kompüter texnologiyalarına əsaslanan iqtisadiyyatdır. Dərslikdə ənənəvi iqtisadiyyatla rəqəmsal iqtisadiyyat arasındakı fərq nümunələrlə izah olunmaqla göstərilir ki, artıq rəqəmsal iqtisadiyyat ənənəvi iqtisadiyyata dərindən nüfuz etdiyi üçün onlar arasındakı sərhədi müəyyənləşdirmək çətinləşib.

Kitabın birinci fəslində rəqəmsallaşmanın iqtisadi inkişafda əsas rolu araşdırılır. Bu fəsildə rəqəmsal iqtisadiyyatın nəzəri əsasları hərtərəfli təhlil olunur və onun ümumi sistemə təsirlərini başa düşmək üçün möhkəm zəmin yaradılır. Bundan əlavə, müəlliflər ölkələrin, o cümlədən Azərbaycanın inkişafında rəqəmsallaşmanın roluna diqqət yetirərək, problemə makro səviyyəli perspektiv təqdim edirlər.

Dərsliyin ikinci fəslində müəlliflər rəqəmsal iqtisadiyyatın müxtəlif infrastruktur komponentlərini təsnif etməklə oxuculara rəqəmsal sistemləri və şəbəkələri qorumaq üçün tələb olunan məsələlər və ehtiyat tədbirləri haqqında daha dərindən anlayış əldə etməyə kömək edirlər. Rəqəmsal əsrdə ən aktual problemlərdən olan kibertəhlükəsizlik haqqında geniş izah verilməklə, rəqəmsal iqtisadiyyatda kibertəhlükəsizliyin təmin edilməsi ilə bağlı metod və risklər barədə məlumatlar hərtərəfli nəzərdən keçirilir.

Kitabın üçüncü fəslində rəqəmsallaşmanın iqtisadiyyatın müəyyən sektorlarına nə dərəcədə nüfuz etməsi araşdırılır. Müəlliflər rəqəmsallaşmanın müxtəlif sənaye sahələrinə təsirinin hərtərəfli icmalını təqdim edərək, bu sektorlardakı əsas tendensiyaları işıqlandırırlar. Müəlliflərin elektron pul kisələri, alternativ maliyyə alətləri, kriptovalyutalar, blokçeyn texnologiyası və məsləhət botları daxil olmaqla, “FinTek” və onun alt komponentlərinin ətraflı izahı xüsusi maraq doğurur. Bu fəsildə geniş yer verilən blokçeyn texnologiyaları zəncirvari əlaqələndirilən bloklar vasitəsilə aparılan əməliyyatlar sistemi kimi göstərilir. Müəlliflər blokçeyn texnologiyalarının müasir iqtisadiyyata müsbət təsirləri ilə bərabər, onların yaratdığı riskləri də ətraflı izah edirlər.

Rəqəmsal iqtisadiyyatın əsas elementlərindən biri də elektron ticarətdir. Müəlliflər elektron ticarətə informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı və müəyyən xidmətlərin göstərilməsi üzrə fəaliyyətlərin həyata keçirilməsi tərifini verirlər. Dərslikdə bütöv bir fəsil (IV) elektron ticarətin tarixinə və hazırkı vəziyyətinə həsr olunub. Kitabda əsas fikirlərdən biri elektron ticarətin rəqəmsal iqtisadiyyatın inkişafının aparıcı qüvvəsi kimi tanınması ilə bağlıdır. Elektron ticarətin transformativ təbiətini araşdıran müəlliflər onun biznes modellərinə, istehlakçı davranışlarına və qlobal ticarətə təsirini vurğulayırlar, həmçinin Azərbaycanda elektron ticarətin vəziyyəti və elektron ticarətlə bağlı mövcud qanunvericilik haqqında geniş izah verirlər.

Müəlliflər beşinci fəsildə rəqəmsal transformasiyanı rəqəmsal texnologiyaların inteqrasiyasını və buna uyğun olaraq iş təcrübəsi və mədəniyyətinin dəyişməsi ilə sosial və sektoral ehtiyaclar üçün asan həll yollarının yaradılmasını nəzərdə tutan anlayış kimi təqdim edirlər. Burada rəqəmsal transformasiyanın hərəkətverici qüvvələri kimi vətəndaşların prosesə cəlbi, dövlət qulluqçularının texnoloji təchizatının gücləndirilməsi, hökumət əməliyyatlarının optimallaşdırılması və xidmətlərin transformasiyası sadalanır.

Kitabda xüsusilə vurğulanır ki, Azərbaycanda elektron hökumətin formalaşdırılması Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə imzaladığı “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya” ilə başlayıb. Dərslikdə Azərbaycan elektron hökumət portalı, my.gov.az elektron xidmətlər sistemi, Dövlət Nəzarəti İnformasiya Sistemi, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi, Rəqəmsal Ticarət Qovşağı, dövlət satınalmaları üçün elektron satınalma platforması, dövlət statistik məlumatlarının əldə edilməsi üçün e-sənəd dövriyyəsi sistemi, elektron məhkəmə sistemi, elektron səhiyyə xidməti, elektron təhsil, elektron sosial xidmətlər, əmlak və torpaqların elektron kadastrı və s. dövlət proqramlarının, strateji yol xəritələrinin, tədbirlər planlarının, iqtisadi yönümlü təşviq layihələrinin, habelə sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətlərin monitorinqini və qiymətləndirilməsini həyata keçirmək üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən yaradılmış monitoring.az portalının istifadəyə verilməsi rəqəmsallaşma sahəsində aparılan uğurlu siyasət nümunələri kimi göstərilib.

Dərslik Azərbaycanda rəqəmsal hökumət üçün idarəetmə və institusional çərçivənin təhlili və qiymətləndirilməsi ilə yekunlaşır. Bu fəsildə bir ölkənin rəqəmsal idarəetmənin tətbiqi sayəsində inkişafının maraqlı nümunəsi təqdim edilməklə yanaşı, rəqəmsallaşma strategiyaları və siyasətlərinin uğurla həyata keçirilməsinin vacibliyi qeyd olunur. Ölkədə təqdim olunan rəqəmsal dövlət xidmətləri haqqında məlumat verilir və ölkənin rəqəmsallaşma səviyyəsi statistik məlumatlar göstərilməklə geniş şərh edilir.

Müəlliflər “Rəqəmsal iqtisadiyyat” kitabı ilə oxuculara müasir dövrün rəqəmsal mənzərəsini və onun iqtisadi inkişafa təsirini dərindən başa düşməyi təklif edən mükəmməl və əhatəli iş hazırlayıblar. Rəqəmsallaşma, kibertəhlükəsizlik, onun sənayeyə təsirləri, e-ticarət, rəqəmsal transformasiya və rəqəmsal hökumət kimi əsas mövzuları təhlil edən dərslik həm tələbələr, magistrantlar və siyasətçilər, həm də biznes liderləri üçün əvəzolunmaz mənbə rolunu oynayır.

***Məhiş ƏHMƏDOV,***
***iqtisad elmləri doktoru, professor***

# Mandatsızların xam xəyalları



## Moskva və İrəvan Rusiya hərbi kontingentin Qarabağda qalma müddətini uzatmaq üçün çeşidli cəhdlərə baş vurur...

*(əvvəli 1-ci səhifədə)*

### Altniyyətlinə məsuliyyətsiz bəyanatlar

Otuz il əvvəl Rusiya ordusunu ölkədən çıxarmağa nail olmuş Azərbaycanın indi suveren ərazisində öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyə qadir ordusu da var, iradəsi də. Moskva isə otuz il əvvəl olduğu kimi, bu gün də münaqişəni dondurmağa çalışır. Yəni, onun üçün Qarabağla bağlı son nöqtənin qoyulmaması, qeyri-müəyyənliyin davam etməsi Cənubi Qafqazda mövcudluğunun davamı ilə düz mütənasibdir. Amma Bakı artıq belə düşünmür. Azərbaycan Qarabağ münaqişəsinin tarixə gömüldüyünü ən yüksək səviyyədə, həm də dəfələrlə bəyan edib. Fəqət Kreml–İrəvan tandeminin məhz bu yöndə son vaxtlar sərgilədiyi diplomatik fəaliyyət onu göstərir ki, Rusiya 10 noyabr razılaşmasının müəllifi və sülh danışıqlarında əsas vasitəçi olaraq poblemin tam aradan qalxmasında maraqlı deyil. Bununla bağlı rəsmi Moskvanın gerçək mövqeyini və sözünü, həmişə olduğu kimi, dırnaqarası politoloqlar, beyin mərkəzlərinin rəhbərləri, institut direktorları, ya da Dumadan kimlərsə dilə gətirirlər. Onlardan biri də vaxtilə məhz ermənipərəst çıxışlarına, separatçılığa görə Bakının təkidi ilə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundan qovulmuş psevdopolitoloq Mixail Aleksandrovdur. Bu uğursuz diplomatın Ermənistanın "Armenian News - NEWS.am" portalına müsahibəsində dediklərinə fikir verin: "Sülhməramlıları bölgədə saxlamağın ən münasib variantı BMT Təhlükəsizlik Şurasının Rusiyaya Dağlıq Qarabağda (?) idarəçiliyinin daha 20 il artırılması barədə qərarı olardı". Belə bir qərarın əldə edilməsi üçün Kremlə alternativ yanaşma təklif edən Aleksandrov hətta güman edir ki, Azərbaycanın Qarabağ problemini nizamlamağa nail ola bilməməsi ilə bağlı birtərəfli bəyanatın verilməsi daha doğrudur: "Rusiya bölgədə etnik təmizləməyə (?) yol verə bilməz. Bakı və Dağlıq Qarabağ (?) ermənilər arasında münaqişə nizamlanana qədər özünün sülhməramlı kontingentini orada saxlayacaq".

Göründüyü kimi, psevdosiyasətçi Aleksandrov bu açıqlaması ilə Moskva və İrəvan arasında sülhməramlılarla bağlı hansısa gizli razılaşmanın olduğunu ortaya qoyub. Sülh danışıqlarında vasitəçi tərəf Rusiyanın Qarabağın statusu məsələsinin müzakirəsini sonrakı mərhələlərə qədər təxirə salmaq təklifi də Kremlin İrəvanla gizli sövdələşməsinin mövcudluğundan xəbər vermirmi? Ermənistan baş naziri Nikol Paşinyan bu sözləri ötən ilin oktyabr ayında Soçi sammitində çıxış edərkən deyib: "Mən sülhməramlıların mandatının 10, 15 və ya 20 il uzadılması ilə bağlı sənədi imzalamağa hazıram. Rusiya Prezidentinin belə bir təşəbbüslə çıxış etməsini təklif edirəm. Mənim özüm də bu təklifi verə bilərəm, amma Rusiya tərəfi onu dəstəkləməlidir". O, hətta bu təklifi ayrıca bənd kimi sammitin yekun bəyannaməsinə daxil edilməsini irəli sürmüşdü. Amma təklif qəbul olunmadı. Erməni "politoloq" David Arutyunov isə xəyalları gerçəklik kimi təsəvvür edərək deyir ki, sülhməramlıların Qarabağda qalma müddətinin uzadılması, ilk növbədə, Azərbaycana təzyiq göstərmək vasitəsinə çevrilə bilər. O, bir az da irəli gedərək, bu məsələdə İranın və Rusiyanın diplomatik resurslarından yararlanmağı tövsiyə edir. Necə deyərlər, siz təklif, tövsiyə və məsləhətlərinizi verməkdə olun, Bakı da suverenliyin, beynəlxalq hüququn və ədalətin verdiyi ixtiyarla daxili məsələlərini özü həll etməyində.

### Veto qaçılmaz olacaq

İki il beş aydan sonra Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentin səlahiyyət müddəti başa çatır. Son vaxtlar intensivləşən və ümidləri göyərdən sülh danışıqları bu müddət bitməmiş özünün məntiqi sonluğuna çata bilər. Bu ehtimalın gerçəkliyə çevrilməsi üçün hazırda bütün şərtlər yetişmək üzrədir. Britaniyalı jurnalist, "Qara bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında" kitabının (New York. 2003) müəllifi Tomas De Vaal bu ilin fevralında belə yazırdı: "Bunların hamısı Rusiya sülhməramlı qüvvələrinin hələ müəyyən olunmamış mandatı məsələsi ilə bağlıdır. Moskva və Bakı bu barədə razılığa gələ bilməyiblər. Məsələnin Azərbaycanda narazılıqla qarşılandığı sirr deyil. Ehtimal olunur ki, Moskva indi beynəlxalq mandat əldə etmək istəyir".

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı, politoloq**

– Moskva və İrəvan dəridən-qabıqdan çıxsalar belə, sülhməramlıların Qarabağda qalma müddətini artırmaq üçün heç bir imkanları yoxdur. Azərbaycan 2025-ci ilin iyun ayında, müddətin bitməsinə altı ay qalmış bəyan edəcək ki, daha sülhməramlıların Qarabağda iştirakına zərurət yoxdur. O zaman da ermənilərin təhlükəsizliyi və sair məsələləri qabartmağa çalışacaqları şübhə doğurmur. Bəli, bizim hansısa alternativ təkliflərimiz ola bilər. Mən belə düşünürəm ki, Ağdamda yerləşən yüz iyirmi nəfərlik Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətini davam etdirməsi mümkündür. Məsləhət bilinərsə, həmin monitorinq qrupuna, misal üçün, Qazaxıstandan, Belarusdan da zabitlər əlavə etmək mümkündür. Sadəcə müşahidəçi qismində. Qarabağda sülhməramlılara ehtiyac qalmayacaq. Yəni, həmin müşahidəçilər lazım gələndə hansısa gərginliyin yaşandığı əraziyə gedib baxış, çəkiliş apara bilərlər. Sülhməramlı kontingentin alternativi kimi, bu xarakterli fəaliyyət göstərilməlidir.

Müddət bitdikdən sonra isə nə Rusiyadan, nə də Avropadan heç bir mülki, ya hərbi missiyanı yaxın buraxmayacağıq. Dediyim kimi, bu missiyanı Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi bəyanatı imzalanandan 2025-ci ildən sonra başqa cür ola da bilməz.

Bir anlığa güman edək ki, BMT Təhlükəsizlik Şurasının Baş Assambleyası Rusiyanın Qarabağdakı sülhməramlı hərbi kontingentinə "mavi dəbilqəli" mandatının verilməsi və onun bölgədə qalma müddətinin uzadılması məsələsini gündəliyinə daxil edir. Bəs səsvermədə özündən və Fransadan savayı, Təhlükəsizlik Şurasının beş daimi üzvündən Amerika və Böyük Britaniyanın elçiləri təklifin lehinə əllərini qaldıracaqmı? Hələ Moskvaya strateji müttəfiqi kimi baxan Çinin bu məsələdə hansı mövqeyi tutacağını birmənalı söyləmək mümkün deyil. Yəni, təklifin gündəlikdən çıxarılması üçün tələb olunan bir deyil, yüzfaizli azı iki vetonun qoyulması indidən təmin olunub.

### Moskvanın yeni ideyası: Honkonq modeli

Rusiya hökumətinə yaxın media qurumlarından biri Azərbaycana Qarabağın statusu ilə bağlı "Honkonq modeli"ni təklif etməyi "məsləhət görüb". Bakı üçün bu "yeni və maraqlı ideyanın" müəllifləri düşünürlər ki, Böyük Britaniya imperiyasının tərkib hissəsi olan, 1999-cu ildə Çinin tərkibinə verilmiş Honkonqu Qarabağa eyniləşdirmək mümkündür. Guya oradakı qismən müstəqillik elementlərini Qarabağ ermənilərinə də şamil etmək olar. Tamamilə qeyri-ciddi, təxribatçı xarakter daşıyan bu təklifə hətta ciddi yanaşmağa çalışsaq belə, bunun beynəlxalq hüquqa və Azərbaycan reallığına qətiyyən uyğun gəlmədiyi aydındır. Ölkəmizdə ermənilərdən başqa digər azlıqlar da var. Dövlətimiz onlar kimi ermənilərin də hüquqlarını və təhlükəsizliyini qorumağa hazırdır. Bunu rəsmi Bakı dəfələrlə bəyan edib. Görünür, Kreml bu cür xəyali ideyaları gündəmə gətirməyə çalışmaqla, Azərbaycanı öz mövqeyindən çəkindirmək məqsədini güdür. Uğursuz cəhdlərdir. Bakı artıq öz gücünə bütün problemləri, o cümlədən Qarabağdakı erməni sakinlərlə bağlı məsələni tənzimləməyə qadirdir.

### Mandat etimad deməkdir

Mövzuya yekun vuraraq oxucuların nəzərinə onu da çatdıraq ki, Rusiya hərbi qüvvələrinin Qarabağda sülhməramlı statusu Rusiya-Türkiyə-Azərbaycan üçtərəfli formatında müəyyən edilməli məsələdir. 2020-ci il 10 noyabr Bəyanatının 5-ci maddəsinə görə, bölgədə Rusiya-Turkiyə Birgə Monitorinq Mərkəzi qurulub. Bu Mərkəz bilavasitə sülhməramlıların işinə nəzarətetmə səlahiyyətinə malikdir. Razılaşmaya əsasən, həm Mərkəzin, həm də rus sülhməramlılarının mandatı Rusiya-Türkiyə-Azərbaycan formatında müəyyən edilməlidir. Sülhməramlı qüvvələrin mandatı məhz bu formatda həllini tapdığı zaman 10 noyabr Bəyanatındakı Ermənistan ifadəsi də öz əhəmiyyətini itirməlidir.

"Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilən sülhməramlı kontingent". Bu ifadə artıq xeyli müddətdir ki, Bakının rəsmi bəyanatlarında öz əksini tapır. Yerli siyasi ekspertlərin fikrincə, ölkəmiz bununla Moskvanın sülhməramlı fəaliyyətindən narazılığını biruzə verir.

Azərbaycanın özünün suveren ərazisi üzərində nəzarəti bərpa etmək hüququ var və Laçın yolunda Həkəri postunu qurmaqla, bu yöndə ilk addımı atdı. Bəli, Bakının buna beynəlxalq mandatı var. Bu mandatı isə o, beynəlxalq hüquqla yanaşı, həm də dediyi sözün ağası, verdiyi vədin təminatçısı kimi etimadla qazanıb.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

# Sülhməramlılar Xankəndini niyə mühasirəyə alıblar?

*(əvvəli 1-ci səhifədə)*

### Sülhməramlılar separatçıların gedişinə mane olurlar

Bu hadisədən bir ay sonra – mayın 22-də Ermənistanın baş naziri Nikol Paşinyanın İrəvanda keçirdiyi 4,5 saatlıq mətbuat konfransında 86,6 min kvadratkilometrdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, bura Qarabağın da daxil olduğunu bəyan etməsi, haylar arasında aydın səmada çaxan şimşək effekti yaratdı. Bu, çox vacib bəyanat idi. Çünki indiyədək ölkənin heç bir rəsmisi oxşar məzmunda fikir səsləndirməmişdi.

Mayın 28-də isə Prezident İlham Əliyev Laçına qayıdan əhali ilə görüşdə tarixi çıxış etdi. Dövlət başçımız bildirdi ki, biz öz doğma torpağımızdayıq və hazırda ermənilərin yaşadıqları Qarabağ bölgəsi əzəli, hüquqi yurd yerimizdir. Cənab İlham Əliyev dedi: "Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır".

Bəli, son günlərdə baş verən hadisələr Azərbaycan Bayrağı altında yaşamaq, ölkəmizin qanunlarına tabe olmaq istəməyən, onun normal, loyal vətəndaşlarına çevrilməyi düşünməyənlərin ayıldığını göstərir. Onlar Laçındakı sərhəd nəzarət-buraxılış məntəqəsindən keçməklə, Ermənistana üz tuturlar. Ancaq Rusiya sülhməramlıları hər vəchlə onların birdəfəlik gedişinə mane olmağa çalışırlar. Məqsədləri aydındır. Onların bölgədəki varlıqları erməni amilindən, indiki halda həm də separatçılığın mövcudluğundan asılıdır.

### Separatçılar yenə torpaq yolla hərbi yük daşıyır

Dünən yayılan videoda separatçıların qeyri-qanuni silahlı dəstələri üçün yüklərin torpaq yollarla daşındığı aydın görünür. O da görünür ki, Rusiya sülhməramlı kontingenti həmin yüklərin mühafizəsini həyata keçirir. Sülhməramlılar ZTR-82A zirehli texnikasının müşayiəti ilə Xankəndi-Kərkicahan-Xəlfəli yolundan istifadə etməklə ermənilərin 4 ədəd yük "KamAZ"ını, 1 ədəd çən olan "KamAZ"ını və 1 ədəd "UAZ"ını onların döyüş mövqelərinə çatdırıblar.

### Ermənilər Gorus istiqamətində maneəsiz hərəkət edirlər

Dünən Xankəndi–Gorus istiqamətində Qarabağın erməni sakinlərinin Laçındakı sərhəd nəzarət-buraxılış məntəqəsindən növbəti keçidi baş tutub. Qarabağın erməni sakinləri yenə qeyd olunan istiqamətdə maneəsiz şəkildə Ermənistana keçiblər. Ümumən erməni əsilli şəxslər heç bir maneə ilə üzləşmədən, günün istənilən saatın



da məntəqədən istifadə edə bilirlər. Onların rahat keçidi üçün hər bir şərait yaradılıb.

### BQXK 15 xəstəni Qarabağdan Ermənistana apardı

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları isə iyunun 9-da Qarabağdan olan 15 xəstəni, onları müşayiət edən şəxslərlə birlikdə, Ermənistandakı ixtisaslaşmış tibb mərkəzlərinə aparıblar. Bu barədə BQXK-nin Ermənistandakı nümayəndəliyi məlumat yayıb. Eyni zamanda müalicə olunmaq üçün Ermənistana göndərilən 16 xəstə də öz müşayiətçiləri ilə Qarabağa qayıdıb. Qeyd edək ki, bu məlumat Beynəlxalq Qırmızı Xaç Komitəsinin avtomobillərinin heç bir maneəsiz, sərbəst hərəkət etdiyinin növbəti təsdiqidir.

### Qriqoryana tutarlı cavab verildi

Bu arada Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Minskdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclası zamanı Azərbaycana qarşı iddialar səsləndirib. O deyib ki, guya Azərbaycan Ermənistanla sərhəddə və Laçın yolunda vəziyyəti gərginləşdirir, güc tətbiqi siyasəti yürüdür, Qarabağ bölgəsində yaşayan erməni sakinlərə qarşı etnik təmizləmə həyata keçirmək niyyətindədir. Azərbaycan Xarici İşlər Nazirliyinin bu iddialarla bağlı bəyanatı özünü çox gözlətməyib. Nazirlik bildirib ki, Armen Qriqoryanın səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və bu Ermənistan tərəfinin növbəti manipulyasiyasıdır: "Ermənistan tərəfinin öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etmək əvəzinə erməni sakinlərin reinteqrasiyası kimi daxili məsələlərə müdaxilə cəhdlərinə hələ də son qoymaması bu ölkənin bölgədə sülh və sabitlikdə maraqlı olmadığını göstərir. Armen Qriqoryana xatırladırıq ki, Ermənistan üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini Azərbaycan ərazisindən tam olaraq hələ də çıxarmayıb və bu qüvvələrin Azərbaycan ərazisində mövcudluğu beynəlxalq hüququn bütün norma və prinsiplərinin pozuntusu olmaqla yanaşı, ciddi təhdid mənbəyidir. Azərbaycanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinin Azərbaycan qanunvericiliyinə və müvafiq prosedurlara əməl etməklə hər iki istiqamətdə sərbəst şəkildə keçməsi bir daha göstərir ki, Ermənistanın reinteqrasiya prosesinə maneçilik cəhdləri uğursuzluğa düçar olub".

Ümumiyyətlə, Ermənistan rəsmilərinin Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı əsassız iddiaları bizim üçün yenilik deyil. Mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası zamanı Nikol Paşinyan Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın yolunun Azərbaycan tərəfindən "qanunsuz şəkildə bloklandığını" bildirmişdi. Prezident İlham Əliyev N.Paşinyanın bu iddiasına cavab olaraq demişdi: "Azərbaycan heç bir dəhlizi bloklamayıb. Laçın-Xankəndi yoluna gəldikdə, o açıqdır. Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları Ermənistan tərəfinə sərbəst keçirlər. O cümlədən Qırmızı Xaçın xətti ilə daşınan pasiyentlər, həmçinin Xankəndi şəhərindən təcili yardım maşınları ilə bağlı heç bir maneə yoxdur. Hər hansı qərəzsiz insan, təbii ki, bunu görməlidir. Zənnimcə, kürsüdən əsası olmayan ittihamlar üçün istifadə etmək lazım deyil".

### "GALLUP"un sorğusu nəyi aşkara çıxardı?

"GALLUP International Association"ın Ermənistanda keçirdiyi sorğunun dünən açıqlanan nəticələri də maraq doğurur. Sorğu nəticəsində Ermənistan vətəndaşlarının təxminən 82 faizinin baş nazir Nikol Paşinyanın Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı bəyanatını mənfi qiymətləndirdiyi məlum olub. Bunu təşkilatın Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan dünən jurnalistlərlə görüşü zamanı bildirib. Onun sözlərinə görə, sorğuda iştirak edənlərin yalnız 3,8 faizi baş nazir Nikol Paşinyanın Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı bəyanatını tam müsbət qiymətləndirib. Respondentlərin 5,4 faizi bu bəyanatı kifayət qədər müsbət, 18,5 faizi kifayət qədər mənfi qiymətləndirib, 8,9 faizi cavab verməkdə çətinlik çəkib. Rəyi soruşulanların 63,4 faizi Paşinyanın Qarabağla bağlı bəyanatının qəti əleyhinə çıxıb. A.Navasardyan qeyd edib ki, sorğu telefon vasitəsilə 1100 vətəndaş arasında keçirilib.

Beləliklə, görünən odur ki, Rusiya Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasında maraqlı deyil. Ancaq ölkəmiz cənab İlham Əliyevin dediyi kimi, Vətən müharibəsindən ötən iki il yarım ərzində bütün planlarını ardıcıllıqla, tədricən həyata keçirib və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq. Dövlət başçımızın qeyd etdiyi kimi, biz sadəcə olaraq, dözüm göstəririk: "Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var". Bu mənada verilən ismarıcdan İrəvanın, separatçı rejimin və onları himayə edən qüvvələrin nəticə çıxarmalarına ehtiyac duyulur.

**Ekspert rəyi**



**Fikrət SADIXOV, politoloq**

– Sülhməramlılar Qarabağ iqtisadi rayonuna elə ermənilərin maraqlarını müdafiə etmək üçün yerləşdiriliblər. Azərbaycan onlara heç bir təhlükə yaratmaq fikrində deyil. Amma görünür, sülhməramlılar bu şüar altında orada öz mövcudluqlarını əsaslandırırlar. Buna görə də düşünürlər ki, əgər ermənilər Qarabağdan Ermənistana kütləvi axın etsələr, o zaman kimi qoruyacaqlar? Aydındır ki, onların missiyaları sona çatacaq. Onlar üçün isə bu yol verilməzdir. Nəticədə, sülhməramlılar ermənilərin Qarabağdan çıxmasına əngəl olurlar.

Şübhəsiz, Qarabağdan çıxmaq istəyən ermənilər çıxacaq. Bunu müxtəlif vasitələrlə edəcəklər. Heç kimi zorla saxlamaq fikrində deyilik. Getmək istəyən gedə bilər. Eyni zamanda əminəm ki, orada qalanların da sayı az olmayacaq. Amma sülhməramlılar gərək bu reallığı qəbul etsinlər. Yəni, onlar etnik ermənilərin maraqlarını güdməməli, hansısa inşaat işləri aparmamalı, yaxud öz nəqliyyat vasitələri ilə separatçıların yüklərini müşayiət etmələri üçün və sair məqsədlər naminə bölgəyə yerləşdirilməyiblər.

Qarabağ ermənilərı, o cümlədən sülhməramlılar bölgədə yaranmış yeni reallıqları qəbul etməlidirlər. Şübhə etmirəm ki, Azərbaycan tərəfi bundan sonra da məsələnin həlli istiqamətində qəti addımlar atacaq. Ölkəmiz Qarabağdakı etnik ermənilərin Azərbaycan vətəndaşlığına könüllü keçməsini təmin etməyə hazırdır. Onlar sadəcə olaraq qanunlarımıza riayət etməli, normal, loyal vətəndaşlarımız olmalıdırlar.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

# Orta Dəhliz–Qərbdən Şərqə nəqliyyat körpüsü




**Baş nazir Əli Əsədov MDB Hökumət Başçıları Şurasının Rusiyanın Soçi şəhərində keçirilən iclasındakı çıxışında Azərbaycanın artıq Şərq-Qərb, Şimal-Cənub və Orta Dəhliz nəqliyyat marşrutlarında mühüm mərkəz kimi tanındığını bildirib. Hökumət başçısı nitqində ölkəmizin tərəfdaşları ilə birlikdə bu nəqliyyat infrastrukturlarının tam ötürücülük gücü ilə fəaliyyətini təmin etmək üçün praktik işlər gördüyünü, dəhlizlərin inkişafına mühüm vəsait ayırdığını, son 20 il ərzində isə respublikamızda avtomobil və dəmir yollarının salındığını, həmçinin əsaslı təmirinin aparıldığını vurğulayıb.**

### *Ekspert rəyi*

**Samir HEYDƏROV, iqtisadçı-ekspert**



Baş nazir Əli Əsədovla Rusiya Federasiyasının baş naziri Mixail Mişustin arasında işgüzar səfər çərçivəsində görüşündə iki ölkə arasında ticari-iqtisadi münasibətlərin genişləndrilməsi perspektivləri müzakirə olunub. Görüşdə hər iki ölkənin prezidentlərinin səyi nəticəsində bu dövlətlərin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb.

Qeyd edək ki, səmərəli əməkdaşlıq nəticəsində Azərbaycan və Rusiya arasında xarici ticarət dövriyyəsi 2023-cü ilin yanvar-aprel aylarında 1 milyard 387 milyon 220,4 min dollar təşkil edib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 55,3 faiz çoxdur.

Dövlət Gömrük Komtəsinə istinadən onu deyə bilərik ki, hesabat dövründə qonşu ölkədən respublikamıza idxalın həcmi 2022-ci ilin ilk 4 ayı ilə müqayisədə 49,4 faiz artaraq 1 milyard 37,7 milyon dollara bərabər olub. Eyni dövrdə Azərbaycandan Rusiyaya ixracın həcmi isə 75,7 faiz artaraq 349 milyon 476,34 min dollar təşkil edib. Azərbaycan Respublikası Mərkəzi Bankının statistikasına görə, təkcə 2022-ci ildə Rusiyadan Azərbaycana köçürülən pul baratları 4,8 dəfə artaraq 623 milyondan 2 milyard 969 milyona çatıb.

Cari ilin birinci rübündə Azərbaycan köcürülən pul baratlarının ümumi həcmi ötən ilin analoji dövrü ilə müqayisədə 84,2 faiz artaraq 442,1 milyon ABŞ dolları olub. Bu ilin yanvar -aprel aylarına görə, qeyri-neft ixracı üzrə ikinci yer Rusiyanın payına düşüb. Belə ki, ixracın həcmi 285,22 milyon ABŞ dolları (artım 48,8 faiz) təşkil edib. Qeyri-neft ixracında xüsusi çəki 24,02 faiz olub.

Yeri gəlmişkən, Rusiya Azərbaycanın ən çox mal idxal etdiyi ölkələr siyahısında 1-ci yerdədir. Rusiya rəsmilərinin də qeyd etdiyi kimi, bu il Rusiya-Azərbaycan ticarət dövriyyəsinin 5 milyard dollara çatdırılması planlaşdırılır.

Sonda bildirim ki, bu müsbət göstəricilər mövcud nəqliyyat dəhlizin uğurlu fəaliyyəti ilə bağlıdır. Belə ki, Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar Rusiyanın Qərb ölkələri ilə münasibətlərinin kəskin pisləşməsi iqtisadi ticarət münasibətlərindən də yan keçməyib. Qərb ölkələrinin Rusiyaya tətbiq etdikləri sanksiya səbəbi ilə Rusiya alternativ yollar axtararaq öz xarici ticarət əlaqələnin kursunu əsasən Çin və Hindistan üzərində qərarlaşdırıb.

Burada, təbii ki, ticarət- logistika infrasturukturunun çox böyük əhəmiyyəti var. Rusiya bu baxımdan Şimal-Cənub dəhlizinə çox boyuk əhəmiyyət verir. Astara-Rəşt yolunun istifadəyə verilməsindən sonra da bu istiqamətdə daşınılacaq yüklərin ümumi həcmi 30 milyon tona çata bilər. Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan Rusiyanın xarici iqtisadi əlaqələrinin təmin edilməsində əhəmiyyətli bir ölkədir.

Ə.Əsədov bu gün Azərbaycanın işğaldan azad olunmuş Qarabağda şaxələndirilmiş avtomobil və dəmir yolu şəbəkəsinin yaradılmasına investisiya qoyduğunu və şimal nəqliyyat şəbəkələrini cənub və şərq şəbəkələri ilə birləşdirməkdə olduğunu da qeyd edib.

"Laçında Beynəlxalq Hava Limanının inşası yüksək sürətlə davam etdirilir. Bu aeroport 2025-ci ildə artıq istismara veriləcək. Bakı limanının ötürücülük imkanlarının ildə 15 milyon tondan 25 milyon tonadək artırılması üzrə işlər davam edir. Bütün bu tədbirlər daşımaların artmaqda olan həcmini mənimsəmək və beynəlxalq nəqliyyat dəhlizlərinin fasiləsiz işini təmin etmək məqsədilə Azərbaycanın tranzit potensialını əhəmiyyətli dərəcədə artırmağa imkan verəcək",- deyə Baş nazir bildirib.

Sözügedən nəqliyyat dəhlizlərinin inkişafı nəticəsində Azərbaycanın Avrasiya İqtisadi Birliyi ölkələri ilə əmtəə dövriyyəsi 38 faiz artıb. Yeri gəlmişkən, ötən ilin yekunlarına görə, Azərbaycanın adıçəkilən Birlik ölkələri ilə əmtəə dövriyyəsi 31 faiz artaraq 4,7 milyard dollara yüksəlib, həmin dövlətlərin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub, cari ilin ilk 4 ayı ərzində isə əmtəə dövriyyəsindəki artım 38 faiz təşkil edib. Azərbaycan hazırda Avrasiya İqtisadi Birliyindən olan tərəfdaşlarla qarşılıqlı tədarüklərin diversifikasiyası üzərində çalışaraq ticari-iqtisadi əməkdaşlığın yeni sahələrini axtarmağa səy göstərir.

İclasda investisiyalar üzrə qarşılıqlı fəaliyyətin dinamikasının müsbət olduğu da bildirilib. Bu isə Azərbaycanda çox əlverişli investisiya mühitinin mövcudluğu ilə əlaqələndirilib.

Xatırladaq son illər ərzində Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi) vasitəsilə tranzit yükdaşımaların həcmi getdikcə artıb. Azərbaycanın düşməndən təmizlənən ərazilərində istifadəyə verilən beynəlxalq hava limanlarının bu istiqamətdə önəmli rol oynayıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra isə artıq regionun tranzit potensialının daha da güclənəcəyi əminliyi yaranıb.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. İndi marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılaraq "vahid pəncərə" prinsipi tətbiq olunur.

Yeri gəlmişkən, burada bir məsələni də qeyd etmək istərdik. Azərbaycan Çinlə Avropa İttifaqı (Aİ) arasında ən önəmli nəqliyyat qovşağına çevrilməklə yanaşı, bütün bölgənin iqtisadi inkişafını şərtləndirəcək yeni layihəyə başlayıb. Belə ki, Qazaxıstandakı "Kaşağan" yatağından ilk test xam neft partiyası Xəzər dənizindən keçməklə Aktau–Bakı marşrutu ilə daşınıb. Daşınma "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Akademk Xoşbəxt Yusifzadə" tankeri ilə gerçəkləşdirilib.

Orta Asiya və Cənubi Qafqazdan keçən Orta Dəhlizin əsas funksiyası Şərqdən Qərbə enerjidaşıyıcılarının və konteyner daşımalarının intensivliyi ilə miqyasının artırılmasıdır. Bir zamanlar çox böyük ümidlər bəslənən və az qala "yeni əsrin ən böyük, qlobal layihəsi" kimi təqdim edilən, Çinin təşəbbüsü olan "Bir kəmər-bir yol" layihəsindən fərqli olaraq Orta Dəhliz səmərəliliyi ilə diqqət çəkir. Bunu ötən ilin mayında Çindəki Tuanszesun şəhərindən Finlandiyaya göndərilmiş ilk test yük partiyasının Bakıya uğurla çatdırılması da sübut etdi. "Nurminen Logistics" şirkətinə məxsus yük sonradan dəmir yolu ilə Gürcüstanın Poti limanına, oradan da bərə ilə Rumıniyanın Konstansa limanına daşınmışdı.

Azərbaycan, Çin, Qazaxıstan və Gürcüstan tərəfindən Orta Dəhliz marşrutunun inkişaf etdirilməsi nəzərdə tutulur. Ekspertlərin hesablamalarına görə, marşrutun illik potensialı 10 milyon metrik ton və ya 200 min konteynerdir. Dörd ölkə daxili şirkətlər üçün vahid tarifləri müəyyənləşdirmək, habelə yükdaşıma şirkətlərinin fəaliyyətini sadələşdirmək niyyətindədir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

---

**Azərbaycanın tarixi müstəqilliyinin son 20 ili sosial-iqtisadi həyatın bütün sahələrinin yüksək inkişaf dinamikası ilə xarakterizə olunur. Belə ki, ötən müddətdə ölkəmizdə iqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan ümumi daxili məhsul (ÜDM) istehsalı 3 dəfədən çox artıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin yanvar-aprel aylarında ölkəmizdə 39 milyard 986,5 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub. Hazırda Azərbaycanda ÜDM-in hər nəfərə düşən həcmi 3945,5 manat təşkil edir ki, bu da dünyanın inkişaf etməkdə olan ölkələri arasında yüksək göstərici sayıla bilər.**

# Qeyri-neft sektoru daha da genişlənir



Azərbaycanda ümumi iqtisadi artımın əsas hissəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, 2022-ci ildə bu göstərici 69,8 milyard manat təşkil edib.

2023-cü ilin 4 ayında ölkə iqtisadiyyatının qeyri-neft sektorunda 3,1 faiz artım qeydə alınıb. Bununla belə, Dünya Bankının proqnozlarına görə, cari ilin sonunadək ÜDM-də qeyri-neft sektorunun payının 3 faizdən çox olacağı gözlənilir. Azərbaycanın dövlət büdcəsinin formalaşdırılmasında iki növ gəlirdən istifadə olunduğunu bildirən iqtisadçı ekspert Eyyub Kərimli bildirib ki, neft sektorundan ölkə büdcəsinə daxilolmalar, hələ ki, üstünlük təşkil etsə də, qeyri-neft sektorunun mühüm sahələri olan kənd təsərrüfatı, xidmət, tikinti, sənaye, turizm və digər sahələrdən, eləcə də enerji və qiymətli metalların ixracından, nəqliyyat və logistika sektorundan gələn tranzit haqları da büdcə gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Ötən il qeyri-neft sektorundan daxil olan gəlirlər hesabına ÜDM-də artımın baş verdiyini bildirən ekspert, həmçinin deyib ki, işğaldan azad edilmiş ərazilərdə həyatın tədricən əvvəlki məcrasına qayıtması ilə bu göstərici getdikcə yaxşılaşacaq.

Yeri gəlmişkən, "Qazprombank"ın Bazarın Təhlili Departamentinin rəis müavini Gülnarə Xaydarşina da bu yaxınlarda bildirib ki, qeyri-neft-qaz sektorunun inkişafı sayəsində onun ÜDM-də payı Azərbaycanın ən yaxın tarixində maksimuma çatacaq. O deyib ki, Qarabağda reallaşdırılan yeni layihələr və Azərbaycanın Avrasiya regionunda artan logistik əhəmiyyəti sayəsində qeyri-neft-qaz sektorunun hazırkı inkişaf tempini saxlamaqla 2024-cü ilə qədər onun ÜDM-də payı 70 faizə yaxınlaşacaq. 2026-cı ilə qədər Qarabağda icra olunan layihələrə təxminən 10 milyard ABŞ dolları (ÜDM-in 18 faizi) sərmayə qoyulacağını bildirən G. Xaydarşinanın sözlərinə görə, infrastrukturun və sosial əhəmiyyətli obyektlərin modernləşdirilməsi ilə yanaşı, qeyri-neft-qaz məhsullarının istehsalına və ixracına yönəlmiş yeni sənaye və iqtisadi zonalar yaradılacaq.

2018-2022-ci illədə Azərbaycanın qeyri-neft-qaz ixracının dəyəri həm faktiki qiymətlərlə, həm də real ifadədə 77,3 faiz artaraq 1,72 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına çatıb. Bu sahədə artım tendensiyası cari ilin ötən dövründə də davam edib. Belə ki, bu ilin birinci rübündə ölkəmizin qeyri-neft sektoruna yönəldilən investisiyalar 51,7 faiz artıb. İyunun 8-də "Heydər Əliyev və Azərbaycan sahibkarlığı" mövzusunda keçirilən yerli şirkətlərin sərgisində iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib ki, son 20 ildə Azərbaycan iqtisadiyyatı 4 dəfə, ixrac isə 15,6 faiz artıb. Bu da ölkədə məşğulluq, əmək haqları, sosial müavinətlər və pensiyaların sürətlə artmasına imkan yaradıb. Azərbaycanın qeyri-neft ixracının 21,8 faiz artdığını vurğulayan nazir müavini, həmçinin bildirib ki, son illər bütün ölkə ərazisində, o cümlədən Qarabağda və Naxçıvanda azad iqtisadi zonaların yaradılması əmtəə dövriyyəsinin, xüsusən də Azərbaycandan ixracın artmasına səbəb olub. "Qarabağ regionun iqtisadi dəyər zəncirinə reinteqrasiyası, Naxçıvan iqtisadi rayonun potensialının daha yüksək səviyyədə reallaşdırılması qarşıdakı dövrlərdə iqtisadi artıma təkan verəcək. Hər iki istiqamətdə inkişafın təmin olunması ilə dövlət proqramları qəbul edilib. Qarabağda iki sənaye parkı yaradılıb və rezidentlər üçün açıqdır. Azad edilmiş ərazilərin inkişafı ilə bağlı güzəştlər paketi qəbul edilib. Bu da sahibkarların həmin bölgələrə investisiya qoyuluşu üçün cəlbedici addımlardır", – deyə S.Məmmədov bildirib.

Azərbaycanda qeyri-neft sektorunun avanqard qüvvəsi sayılan sahibkarlara dövlət qayğısı ildən-ilə artır. Yaxın vaxtlarda isə ölkədə sahibkarların dəstək mexanizmlərinin əhatə dairəsi bir qədər də genişləndiriləcək. İqtisadiyyat nazirinin müavini S. Məmmədovun dediyinə görə, qarşıdakı dövrdə mövcud dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi, eyni zamanda, yerli alətlərin tətbiq edilməsi Azərbaycanda sahibkarlığın inkişafına töhfə verəcək.

Son illər ölkəmizdə özəl sektorun inkişafına mühüm töhfələr verən kiçik və orta biznes (KOB) subyektlərinin sayı da getdikcə artır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2018-ci ildən bəri ölkədə KOB subyektlərinin sayı 45 faiz artaraq 356 minə yaxınlaşıb. İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun məlumatına görə, ötən müddətdə KOB-ların qeyri-neft ÜDM-də payı 23,5 faizdən 26,6 faizə, qeyri-neft ixracında payı isə isə 23,3 faizdən 59,8 faizə yüksəlib. Bu da ölkədə yaradılmış əlverişli biznes mühitinin nəticəsidir. Yeri gəlmişkən, hazırda KOB-lar Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də biznes qurmağa çalışırlar. O. Məmmədovun dediyinə görə, bu məqsədlə agentliyə artıq 1400-dən çox müraciət daxil olub ki, onların da 500-ə yaxını xarici şirkətlərə aiddir.

Göründüyü kimi, ölkəmizdə sosial-iqtisadi inkişafın sürətləndirilməsinə yönəldilmiş məqsədli dövlət proqramlarının qəbulu, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun ümumi daxili məhsulda payının getdikcə artmasına səbəb olacaq. Bunun da nəticəsində ixracda qeyri-neft mallarının payı ildən-ilə artacaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

---

# Azərbaycanın neft-qaz sənayesinə 108 milyard dollar xarici sərmayə qoyulub

**1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın neft sənayesinin xarici investisiyalar üçün açıq elan olunmasının iqtisadi səmərəsi getdikcə artır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1994-cü ildən 2022-ci ilin sonunadək ölkəmizin neft sənayesinə 108 milyard ABŞ dolları məbləğində xarici sərmayə yönəldilib.**



SOCAR-ın illər üzrə təqdim etdiyi materiallardan aydın olur ki, 1994-cü ildə ölkəmizin neft sənayesinə yönəldilmiş xarici sərmayələrin həcmi cəmi 0,09 milyard dollar təşkil etdiyi halda, 2022-ci ildə bu göstərici 7,74 milyard dollara bərabər olub. Bu da 86 dəfə artım deməkdir.

Bütövlükdə isə, bu sahədə xarici sərmayələrin həcmi üzrə ən yüksək göstərici 2014-cü ildə qeydə alınıb. Həmin il ölkəmizdə həyata keçirilən neft və qazla bağlı əməliyyatlara 8,22 milyard dollar investisiya qoyulub.

***"Xalq qəzeti"***

---

# 5 ayda vergi daxilolmaları 2,6 milyard manat artıb



**2023-cü ilin yanvar-may ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 8 milyard 415,8 milyon manat vergi daxil olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 milyard manatdan çox və ya 45 faiz artım deməkdir.**

Hesabat dövründə qeyri-neft-qaz sektorundan büdcəyə daxilolmalar 4,6 milyard təşkil edib. 2022-ci ilin 5 ayına nisbətən bu sektordan vergi daxilolmaları 17,8 faiz və ya 697,2 milyon manat artıb.

***"Xalq qəzeti"***

---



# Zəmilərdən 250 min ton arpa yığılıb

**Azərbaycanda arpa biçini getdikcə sürətlənir. Biçin mövsümünün əvvəlindən ölkənin 38 rayonunda mövcud arpa əkini sahələrindən 250 min ton məhsul yığılıb. Bununla da, sahələrin təxminən 23 faizində biçin başa çatdırılıb.**

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu günə qədər ölkə üzrə 90 min 444 hektar sahədə arpa biçini aparılıb. Biçilmiş sahələrin orta məhsuldarlığı isə 27,3 sentner təşkil edib. Sahələrin 29 min 72 hektarı "Aqroservis" ASC-nin kombaynları, qalan hissəsi isə özəl kombaynlar vasitəsilə biçilib.

Bütövlükdə isə 2023-cü ilin məhsulu üçün ölkə ərazisində 1 milyon 58 min 398,9 hektar sahədə taxıl əkilib ki, bunun da 658 min 383,7 hektarı buğda, 400 min 15,2 hektarı isə arpa sahəsidir.

***"Xalq qəzeti"***

# ÜST və Azərbaycanda səhiyyənin müasirləşdirilməsi perspektivləri

## Xəstəxana yalnız insanlara xidmət göstərilən bina deyil, həm də cəmiyyətin bir hissəsidir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ilə birgə Bakıda xəstəxanaların gələcəyi ilə bağlı yüksək səviyyəli regional görüşə evsahibliyi edir. "Məqsədə uyğun xəstəxanalar: müasir səhiyyənin tələblərinə cavab vermək üçün keyfiyyət və davamlılığın prioritetləşdirilməsi" mövzusuna həsr olunan tədbir ÜST-nin Avropa Regionunda, xüsusən də Şərqi Avropa və Mərkəzi Asiyadakı xəstəxanaların üzləşdiyi başlıca çağırışları müzakirə etmək üçün 200-dən çox hökumət nümayəndəsini, xəstəxanaların tibb işçilərini və tərəfdaşları bir araya gətirib.**




ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ÜST-nin Azərbaycandakı Ölkə ofisi ilə birgə həyata keçirdiyi layihə çərçivəsində dəstəklədiyi üç günlük tədbirdə xəstəxanaların üzləşdiyi çağırışlar və bu sahədə mövcud imkanlar, tibb müəssisələri üçün gələcək transformasiya, ekoloji cəhətdən dayanıqlı xəstəxanaların yaradılması, rəqəmsal transformasiya, insan resurslarının optimallaşdırılması, xəstəxanalara effektiv rəhbərlik və idarəetmə, eləcə də xəstəxana transformasiyasını ilkin səhiyyə yönümlü sistemlərə yönəltmək kimi bir çox mövzular müzakirə olunub.

Səhiyyə naziri Teymur Musayev beynəlxalq görüşün müasir dövr üçün mahiyyəti və məqsədlərinin aktuallığını yüksək qiymətləndirib. O, bu il Azərbaycanda 100 illik yubileyi qeyd edilən ümummilli lider Heydər Əliyevin ölkəmizin ÜST ilə uğurlu əməkdaşlığının əsasını qoyduğunu vurğulayıb. Bildirib ki, milli səhiyyəmizin əldə etdiyi nailiyyətlərin əksəriyyəti üçün zəmin məhz ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə şəxsi iştirakı ilə həyata keçirilib.

Teymur Musayev diqqətə çatdırıb ki, son 15 ildə Azərbaycan milli səhiyyə sisteminin infrastruktur, insan kapitalı və bu sahənin modernləşdirilməsi istiqamətində mühüm işlər görülüb. Müasir avadanlıqlarla təchiz edilmiş 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub. Peşəkar tibbi kadr potensialının formalaşdırılması və inkişafında mühüm nailiyyətlər əldə edilib.

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov xəstəxanaların mühüm rolundan söz açaraq qeyd edib ki, xəstəxanaların fəaliyyətini dəyişən tələblərə uyğunlaşdırmaq istiqamətində davamlı işlər görülür. Lakin bununla yanaşı, xəstəxana sektorunda əsas problemlərin aradan qaldırılması, idarəetmənin təkmilləşdirilməsi ehtiyaclarını müəyyən etmək də vacibdir. Xəstəxanada davamlı öyrənmə və innovasiyanı dəstəkləyən mühitin yaradılması, tibb işçiləri arasında pasiyentə müasir qayğı metodlarını aşılamaq, eləcə də xəstəxana işçilərinin sağlamlığını və rifahını təmin etmək istiqamətində üzərimizə məsuliyyət düşür.

ÜST-nin Avropa üzrə Regional Ofisinin Ölkə Səhiyyə Siyasəti və Sistemləri Departamentinin direktoru Nataşa Azzopardi Muskat hər bir xəstəxananın xüsusi və unikal olduğunu diqqətə çatdırıb: "Xəstəxana bizim üçün sadəcə, xidmət göstərilən bina deyil. Xəstəxana aid olduğu cəmiyyətin bir hissəsidir. Bura insanların hər gün gəldiyi iş yeridir. Bura ailələrin yaxınlarının sağalacağına, özünü daha yaxşı hiss edəcəyinə ümid edərək gəldiyi məkandır.

ÜST-nin Azərbaycandakı nümayəndəsi və Ölkə ofisinin rəhbəri Hande Harmancı isə xəstəxanalar sahəsində transformativ dəyişikliyin əhəmiyyətini vurğulayıb: "Xəstəxanalar səhiyyə sisteminin ayrılmaz tərkib hissəsidir və bizim xəstəxanaların problemlərini həll etməyə yönələn səylərimiz, habelə inkişaf imkanlarına dəstəyimiz olduqca vacibdir.

Üç gün davam edən tədbirin son günü Azərbaycanın səhiyyə sisteminə həsr olunub. Müzakirələrdə əsas diqqət ölkənin bu sahədəki xüsusi ehtiyaclarının müəyyənləşdirilməsinə və dəstəyin, həll yollarının göstərilməsində ÜST-nin rolunun müəyyənləşdirilməsinə yönəldilib.

Üç gün davam edən yüksək səviyyəli regional görüş Avropada xəstəxanaların üzləşdiyi əsas problemlərin həllində irəliyə doğru atılmış mühüm addımdır. Genişmiqyaslı müzakirələr, uğurlu təcrübələrin bölüşülməsi və həmin praktikadan istifadə vasitəsilə tədbir keyfiyyət, davamlılıq və müasir xəstəxanaların artan tələblərinə və onların ehtiyac duyduğu transformativ dəyişikliyə üstünlük verən strategiyaların və həllərin müəyyənləşdirilməsinə töhfə verəcək.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

## Qarabağ Dirçəliş Fondu biznes qurumları ilə görüş təşkil edib




**İyunun 9-da Qarabağ Dirçəliş Fondunun (QDF) təşkilatçılığı ilə ölkənin aparıcı biznes qurumları ilə görüş keçirilib.**

Tədbirdə Qarabağa investisiya qoyuluşunun potensialının, perspektivli istiqamətlərinin təşviqi, potensial investorlardan təkliflərin toplanması, təhlili və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev işğaldan azad edilmiş ərazilərin bərpasında ölkənin aparıcı biznes qurumlarının rolunu xüsusi qeyd edib. Onun sözlərinə görə, bu sahədə biznes qurumlarının əməkdaşlığı və birgə layihələrin həyata keçirilməsi bərpa prosesini sürətləndirə bilər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev Qarabağa investisiya qoyuluşunun potensialının, perspektivli istiqamətlərinin təşviqi ətrafında çıxış edib.

Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və kommunikasiya şöbəsinin müdiri Pərvin Bağırova təqdimatla çıxış edərək tədbir iştirakçılarına "Qarabağ Gecəsi" xeyriyyə konserti haqqında geniş məlumat verib. Qeyd edib ki, 2023-cü il iyunun 17-də Gəncə şəhərində Qarabağ Dirçəliş Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi, Veysəloğlu Şirkətlər Qrupunun baş sponsorluğu ilə "Qarabağ Gecəsi" adlı xeyriyyə konserti keçiriləcək. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında baş tutacaq konsertdən əldə ediləcək vəsait Ağdam rayonun ərazisində yerləşən Pənahəli xanın İmarət kompleksinin bərpasına yönəldiləcək.

# Taksi xidməti: nizamsızlıq mərəzi və itən mizan-tərəzi...

**Bakı və Sumqayıtda, eləcə də bu iki şəhər arasındakı magistral yolda gün ərzində şütüyən maşınlar arasında müxtəlif markalı minik avtomobillərindən ibarət taksilər üstünlük təşkil edir. Bu nəqliyyat növü həm çeşidli adları ilə tanınır, həm də bir növ anonim xidmət və ya "xalturaçı" taksilər kimi təsnifatlandırılır. Gizli deyil ki, taksi xidməti üçün lisenziyası olmayan, müvafiq qeydiyyatdan keçməyən, vergidən yayınan, yəni "özündənbəy" taksi sürücüləri də çoxdur. Onların da ki, avtomobillərinin texniki sazlığı, sərnişin təhlükəsizliyinə zəmanət əmsalı yetərincə deyil.**




Son vaxtlar ictimaiyyət arasında, mətbuat və televiziya kanallarında, hətta parlament müzakirələrində taksi fəaliyyəti ilə bağlı problemlər gündəmə sıx daxil olub, aktuallaşıb. Taksi xidmətinin xaosu istifadəçi və nəzarətçiləri narahat edir, hərəkəti tənzimləməyə cavabdeh olanları çıxılmaz vəziyyətə salır, ictimai nəqliyyatın nizamının pozulmasına, uzun tıxaclara səbəb olur. "Omeqa", "Bolt", " Yanqo", "Ekonom", "Uber"lərin yarışı qızğınlıqla davam edir. "Rəqabət qazanı"nda pörşələn taksi sürücülərinin bu fəaliyyətdən qazancları elə də çox deyil. Yanacaq və təmir xərcləri, cərimə ödəmələri, əsəb gərginliyi, necə deyərlər, kəlləçarxda olur. Bəzən isə bank hesablarına köçən pulu taksi sürücüləri həftələrlə ala bilmirlər. Buna görə də nağdsız ödənişlər onlara sərf etmir deyə, gəlmirlər.

Məsələnin sosial tərəfi də var. Hansı "taksiçi"ni dindirirsən, giley-güzar edir, qəpik-quruşdan ötrü 12–14 saat çalışıb-vuruşduğunu deyir. Əlbəttə, bu müddət ərzində sükan arxasında oturanı yuxu da tutar, gözlənilməz, qeyri-adekvat vəziyyətlərə çevik reaksiyası da korşalar.

Bu sətirlərin müəllifi Sumqayıtda yaşayıb, Bakıda çalışdığı üçün hər gün sözügedən problemin bu və ya digər "eskiz"ləri ilə rastlaşır. Şəxsi minik avtomobilim olsa da, uzun müddətdir ki, bir çox sumqayıtlılar kimi mən də paytaxta elektrik qatarı, avtobus, ya da taksi ilə gedib-gəlməli oluram. Çünki tıxaclarda qalıb işə gecikmək, maşını "park" etməyə yer tapmamaq, əsəb gərginliyi keçirmək və sair kimi müşküllər, demək olar ki, daimi səciyyə daşıyır. Sumqayıtda evdən avtovağzala gedib çıxmaq ən azı yarım saat vaxt aparır, şəhərlərarası avtobusda rahat yer tutub oturmaq qismət işidir, 30-35 kilometrlik yol da ən azı 40 dəqiqəyə baça gəlir. Birtəhər Bakıya çatandan sonra burada şəhərdaxili ictimai nəqliyyatda eyni çətinliklərlə qarşılaşırıq, üstəgəl metronun "pik" saatlardakı sıxlığı, iş yerinə yaxın stansiyadan mənzil başına qədər piyada yürümək... Beləliklə, ümumilikdə, ən yaxşı halda iki saata qədər vaxt sərf olunur. İşdən çıxanda da eyni hal geriyə fırlanan kino lenti kimi təkrarlanır. Hələ, yaxşı ki, şəhərlərarası elektrik qatarı var və nisbətən normal işləyir, yoxsa sərnişindaşımanın vəziyyəti daha acınacaqlı olardı.

Qayıdaq əhaliyə xidmətin mühüm növü olan taksi xidmətinə. Bu sahəyə nəzarət olduqca zəifdir. Nəticədə çeşidli xoşagəlməz hallar davam edir. Bir çox taksilərdə natəmizlik adi hal alıb. Bəzən sürücü sərnişinləri saymadan siqaret çəkir, bayağı musiqilərə "xod" verib baş aparır, sükanı buraxaraq, geri qanrılıb gediş haqqı yığır, qalıq qaytarmalı olur və s. Qızla, qadınla davranışda nəzakət çərçivəsini aşan nadan sürücülər haqqında da az eşitməmişik.

Xatırladaq ki, bir ay öncə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində (RİNN) Azərbaycanda fəaliyyət göstərən taksi şirkətlərinin nümayəndələri ilə görüş keçirilib və ölkə ərazisində sərnişindaşıma sisteminin təşkilini təkmilləşdirmək məqsədilə taksi xidməti kompleks şəkildə tədqiq olunub. Daha səmərəli idarəetmə sistemi yaratmaqla taksi xidmətinin keyfiyyətinin yüksəldilməsi imkanları araşdırılıb. Əsas məram vətəndaşlara keyfiyyətli və təhlükəsiz xidmət göstərilməsi, sərnişinlərin və fərdi məlumatların təhlükəsizliyinin təmin olunması, həmçinin ekoloji tələblərə riayət edilməsi olub. Haqsız rəqabət və inhisarçılığın, qeyri-formal məşğulluğun qarşısının alınması, bu sahədə qanuni fəaliyyət göstərən bütün sahibkarların maraqlarının qorunması önə çəkilib. Taksi ilə sərnişin daşımaları sahəsində yeni dövlət siyasətinin formalaşdırılması və islahat mexanizmlərinin tətbiqi yönümündə mütəmadi tədbirlərin həyata keçirilməsi zərurəti vurğulanıb.

Nazirlər Kabinetinin taksi fəaliyyətinin tənzimlənməsinə və minik avtomobillərinə dair tələblərin müəyyən edilməsinə dair 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarında da göstərilir ki, taksi nəqliyyat vasitələri milli və beynəlxalq standartlara və normativlərə uyğun texniki təchizata və ekoloji tələblərə uyğun olmalıdır. Bu avtomobillər müvafiq rəngdə olmalı, salonunda sürücü və daşınma tarifi haqqında məlumat lövhələri yerləşdirilməlidir. Sürücülər mütləq etik davranış qaydalarına və sərnişindaşımanı tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər. Riayət edilsə, yaxşı olar.

Hələliksə, "köhnə hamam, köhnə tas"dır. Ölkədə özfəaliyyət formasında, primitiv şəkildə sərnişindaşıma ilə məşğul olan avtomobillərin sayı həddindən artıq çoxdur. "Onlayn" platformalar üzərindən fəaliyyət göstərən taksi xidmətlərinin də öz müşkülləri var. Buna görə də "çörəkpulunu" taksi fəaliyyəti göstərməklə qazanmaq istəyənlərin arzu yolu, necə deyərlər, daşlıqdan keçir.

Sumqayıtda avtovağzal ətrafı, "Sülh" küçəsi, "Heydər Parkı"nın yanı, 17-ci mikrorayon dairəsi və bir sıra digər ərazilər Bakıya sərnişin daşıyan taksilərin "lövbər" yeridir. Bu taksilərin hərəkət istiqaməti əsasən Ceyranbatan və Saray qəsəbələrinin ərazilərindən keçir. Bir qayda olaraq, səhər və axşam saatlarında Xırdalan yoxuşundan sonra, Ekologiya postu tərəfdə uzun-uzadı tıxaclar başlayır. İndi gəl, bu basırığa döz, əndişə keçirmə, işə gecikmə, xoş ovqatını qoruyub saxla!

Axşamlar metronun "20 Yanvar" stansiyasından çıxan kimi isə sumqayıtlı sərnişinlərin başının üstünü yenə də sərnişin haraylayan taksı sürücüləri alır. Respublika Velotrekinin yanında qulaq deşən tenor, bariton, bas çağırtıları gəlir. Artıq çoxdan əzbər bilirik: "Ceyranbatandan keçməklə – iki nəfər!", "Çerez Saray – bir nəfər!", "Gedirsənsə, gəl, çıxıram, tez ol!", "Adamın biri – bir manat!" (son vaxtlar isə manat yarım və ya iki manat). Eybəcər siqnal səsləri aləmi bürüyür. Bəzi sürücülər az qala, adamı zorla dartıb maşına otuzdururlar. "Getdik, ey!". Eyni mənzərə "Şamaxı yolu" adlanan ərazidə hökm sürür. Xaotik hərəkət, süni ajiotaj amili qanunsuz sərnişindaşımanın törəmə hallarıdır. Cəld tərpənən sürücülər DYP-nin qadağalarından yayına bilir, astagəllər isə, öz dilləri ilə desək, ilişirlər.

Biz hələ bəzi taksi sürücülərinin aşkar naşı, peşəkar baxımdan aşağı səviyyəli olmasını, bəzilərininsə az-maz "hallı" vəziyyətdə yola çıxdığını demirik. Sərnişin daşıdığı halda yol boyunca "avtoşluq" etməkdən çəkinməyənlər, qorxulu filmlərdəki kimi, aqibəti düşünmədən riskli manevrlər – "forsaj" edənlər də eləcə. Bütün bunlar sərnişin məmnunluğu bir yana, heç elementar təhlükəsizliklə də bir araya sığmır. Obrazlı şəkildə desək, nizamsızlıq mərəzi artıb, mizan-tərəzi itib.

Taksi xidmətinin problemləri ilə bağlı Bakı–Sumqayıt yolunda hər gün müşahidə etdiyimiz halların icmalına nöqtə qoymaq istəyəndə ara-sıra ekran və efirlərdən eşitdiyimiz "Nəqliyyatın intellektual idarəetməsi" terminologiyasını xatırladıq. Ümid edirik ki, bu deyim təkcə leksikonda qalmayacaq, tezliklə real həyata da nüfuz edəcək. Müvafiq qurumlar Azərbaycan qanunlarına hörmət etməyən, qaydaları pozan taksi operatorlarına qarşı təsirli sanksiyalar tətbiq edəcək, özbaşınalıqları cəzasız qoymayacaq. Eyni zamanda, profilaktika işi güclənəcək, qaydalara əməl olunmasına nəzarət funksiyalarının həvalə edildiyi agentliklər də fəallıqlarını artıracaqlar.

*Əli NƏCƏFXANLI, "Xalq qəzeti"*

### Ekspert rəyi



**Elməddin MURADLI, Nəqliyyat eksperti**

– Bakı-Sumqayıt yolunda taksi fəaliyyətinin xaotik formada olması gizli deyil. Nəzarət mexanizmi normal vəziyyətdə deyil. Orada lazım olan sistemi qurmaq o zaman mümkün olar ki, normal ictimai nəqliyyat xidməti yaradılsın. Belə olsa, sıxlıq da azalar, problem də həllini tapar. İki şəhər arasında normal intervalla işləyən təmiz, səliqəli, komfortlu avtobuslar olmadığına görə vətəndaş məcburən taksilərə üz tutur. Əslində, bu gün o taksilər də olmasa, insanlarımız çıxılmaz vəziyyətdə qalar.

Biz dəfələrlə təklif etmişik ki, Bakı ilə Sumqayıt arasında nəqliyyatın normal forması qurulsun. Hazırda iki şəhər arasında elektrikli avtobusların işləməsi ilə bağlı təklifimiz müzakirə olunur. Özəl bir şirkət də layihə irəli sürüb və bütün xərcləri öz üzərinə götürüb məsələni ən yüksək səviyyədə həll etməyə hazırdır. Ümid edirik ki, hökumət özəl sektorun bu təklifinə müsbət münasibət göstərəcək və biz Bakı-Sumqayıt arasında konkret marşrut üzrə elektrikli avtobusların hərəkətinin şahidi ola biləcəyik.

Bu da var ki, ictimai nəqliyyat olmadığına görə, manatlıq taksilərə çox xərc çəkildiyinə görə, vətəndaşlar sürətli şəkildə avtomiobilləşməyə maraq göstərirlər, maşın alırlar. Nəticədə günün "pik" saatlarında Bakı-Sumqayıt yolunda tıxac əlindən yerimək olmur. Əslində, saat kimi işləyən ictimai nəqliyyat sistemi qurulmalıdır və belə olan halda da insanlar 50-60 qəpiyə gedə biləcəkləri yolu 1 manata və yaxud daha baha qiymətə getməzlər.

# Vaşinqtonun nüfuzu Kiyevin cəbhədəki uğurundan asılıdır

## *Ukrayna əks-hücum əməliyyatlarını genişləndirməyə çalışır*

**Ukraynada döyüşlər davam edir. Kiyev Baxmut yaxınlığında və Zaporojyenin bəzi rayonlarında müəyyən uğurlar əldə edib. Ukrayna müdafiə nazirinin müavini Anna Malyar deyib: "Düşmən hücuma keçməyə çalışır, lakin heç bir nəticə yoxdur. Ukrayna Zaporojye istiqamətində əks-hücum əməliyyatını genişləndirir. Baxmut ətrafında cinahlardan qismən irəliləyişlər əldə edilib".**



Zaporojye istiqaməti Ukrayna Silahlı Qüvvələrinin əsas məqsədlərindən biri sayılır, çünki Kiyev rusların döyüş zonasına yük daşımalarına imkan verən Krım yarımadasından Donbasa gedən dəhliz buradan keçir. Bu dəhliz bağlanmalı, Rusiya Ordusuna hərbi təchizatın qarşısı alınmalıdır. Artıq bu istiqamətdə Ukrayna hərbçiləri Rabotino-Verbovoye bölgəsində rusların müdafiə xəttini yara bilib. Rəqibin 291-ci alayı ciddi itkilər verərək geri çəkilib. Son sutkada ruslar Baxmut və Zaporojye döyüşlərində min nəfərdən çox hərbçi itirib. Hazırda Zaporojye vilayətinin 80 faizi rusların işğalı altındadır. Dəhliz tutulandan sonra Krımın da işğaldan azad edilməsi asanlaşacaq.

Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin (BKİ) sözçüsü Andriy Yusov bu barədə danışaşrkən deyib ki, Ukrayna, şübhəsiz ki, Krımı qaytaracaq". O, Ukrayna təhlükəsizlik və müdafiə qüvvələrinin hərəkətlərinin aktiv mərhələsinin və müdafiə əməliyyatının davam etdirildiyinə işarə edərək, Krımın işğaldan azad edilməsi üçün ehtimal olunan yeni tarix açıqlamayıb. "Düşünürəm ki, indi konkret tarixləri müzakirə etməyimiz düzgün deyil, amma bu baş verəndə hələ "isti mövsüm" olacaq", - deyə Yusov bildirib.

Rusiya tərəfi isə vəziyyəti daha da gərginləşdirməyə çalışır. Bu, tamamilə bilərəkdən edilir. Onlar Xersonu və bölgənin su altında qalan yaşayış məntəqələrini atəşə tutmaqda davam edirlər. Hətta evakuasiya məntəqələrini də atəşə tuturlar. Evakuasiya zamanı mülki şəxslərin atəşə tutulması nəticəsində həkimlər və xilasedicilər də daxil olmaqla azı 9 nəfər xəsarət alıb. Digər tərəfdən Ukraynanın Jıtomir vilayəti atəşə tutulub.

Rusiya Müdafiə Nazirliyi iddia edir ki, Rusiya ordusu Ukrayna Silahlı Qüvvələrinin hücumlarını dəf edə bilib. "Kiyev rejimi yalnız Qərb ölkələrinin koalisiyasının görünməmiş dəstəyi sayəsində ayaqda qala bilir", – məlumatda deyilir.

Amerikalı təhlilçilər də bu fikirdədirlər. Onlar əmindirlər ki, Avropa və ABŞ yardımı müharibənin davam etməsində əsas rol oynayır. Hərbi yardımların qorunub saxlanması yalnız Ukrayna ordusu əsgərlərinin Rusiya mövqelərinə əks-hücum zamanı əldə edəcəyi nəticələrdən asılıdır. Fakt budur ki, bu gün ABŞ lideri Co Baydenin və indiki Vaşinqton administrasiyasının reputasiyası əsasən Ukraynanın müharibədə uğurundan asılıdır.

Kiyev Qərb idarəçilərinin ümidlərini doğrulda bilməsə, dəstək dayandırılacaq və Moskva ilə sülh danışıqlarına çağırışlar daha da güclənəcək.

Onlara görə, yaxın vaxtlarda belə bir müqavilənin bağlanması real görünməsə də, uğursuzluq onu perspektivdə reallığa çevirə bilər. Ya da Rusiya münaqişənin həllinə yanaşmasını dəyişməlidir.

Müharibənin gedişindən asılı olmayaraq, istənilən halda Şimali Atlantika Alyansı (NATO) ölkələri Ukrayna ərazisinə qoşun yeritməyəcək. "Ukrayna ərazisində silahlı münaqişə bitənə qədər xarici dövlətlər bizim ölkə ərazisinə öz qoşunlarını göndərməyəcək. Üstəlik, biz bunu tələb etmirik", - deyə Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bildirib.

Xatırladaq ki, NATO-nun sabiq baş katibi Anders Foq Rasmussen "The Guardian" qəzetinə müsahibəsində bildirib ki, əgər Kiyev NATO-nun iyul ayında Vilnüsdə keçiriləcək sammitində təhlükəsizlik zəmanəti ilə bağlı ciddi irəliləyişə nail olmasa, Polşa və Baltikyanı ölkələr öz qüvvələrini Ukraynaya yerləşdirə bilər.

Hadisələrin bu fonunda Pentaqon Ukraynaya hərbi yardım göstərməkdə davam edir. Artıq 2 milyard dollar dəyərində yeni hərbi yardım paketi hazırlanır. Hərbi yardımın konkret nədən ibarət olacağı barədə hələlik məlumat verilməyib.

Ukraynanın özü də Qərbdən hərbi asılılığını azaltmaq məqsədilə silah istehsalını qaydaya salmağa çalışır. Artıq raket proqramı rəsmən təsdiqlənib və onun reallaşdırılması üçün büdcədən vəsait ayrılır. Bu, Ukrayna Silahlı Qüvvələrinə 1000 kilometr məsafəli (mənzilli) raketləri əldə etməyə imkan verəcək.

Qeyd edək ki, Rusiya ilə Ukrayna arasındakı genişmiqyaslı müharibə ötən il fevralın 24-də başlayıb. Ümumilikdə, Ukraynada hərbi əməliyyatlar başlayandan indiyədək Rusiya ordusunun 213 min hərbçisi məhv edilib. Rusiya tərəfu bu rəqəmi təkzib edir, əksinə, qarşı tərəfin daha çox itki verdiyini vurğlayır.

***P.ƏFƏNDİYEV, "Xalq qəzeti"***

# Ağ evdə ABŞ və Böyük Britaniya liderlərinin görüşü



**ABŞ Prezidenti Co Bayden Böyük Britaniyanın Baş naziri Rişi Sunakı cümə axşamı Ağ evdə qəbul edib. R.Sunakın səfəri onun ötən ilin oktyabrında Baş nazir seçilməsindən sonra ABŞ-a ilk səfəridir, lakin o, Baydenlə bu il artıq üç dəfə görüşüb. Məlumatı "Amerikanın səsi" radiosu yayıb.**

Ağ evin mətbuat katibi Karin Jan-Pyer jurnalistlərə bildirib ki, liderlər bir sıra qlobal məsələləri, o cümlədən iqtisadi tərəfdaşlığı, Rusiyanın işğalçı müharibəsinə qarşı özünü müdafiə edən Ukraynaya birgə dəstəyi, həmçinin təmiz enerjiyə keçidin vacibliyi və s. məsələləri müzakirə ediblər.

Mətbuat katibi həmçinin bildirib ki, Prezident və baş nazir danışıqlar zamanı modern texnologiyalar üzrə qlobal müstəvidə ABŞ-Böyük Britaniya liderliyinin, eləcə də iqtisadi təhlükəsizliyin gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Onlar, həmçinin strateji tərəfdaşlıq üzrə əldə olunan nailiyyətləri qorumaq üçün birgə öhdəliklərin bir hissəsi kimi Şimali İrlandiyada baş verən hadisələri nəzərdən keçiriblər.

Böyük Britaniyanın Baş naziri ABŞ Prezidenti ilə danışıqlardan əvvəl bildirib ki, rəsmi London iki ölkə arasında müdafiə və təhlükəsizlik sahəsindəki sıx əməkdaşlığı eyni ruhda iqtisadi əlaqələrə şamil etməyi zəruri sayır.

"Hərbçilərimiz arasında qarşılıqlı fəaliyyət bizə düşmənlərimiz üzərində döyüş meydanında üstünlük verdiyi kimi, daha böyük və qarşılıqlı iqtisadi fəaliyyət də qarşıdakı onilliklərdə bizə mühüm üstünlük verəcək" - deyə R.Sunak bildirib.

Xatırladaq ki, R.Sunak Prezident Baydenlə görüşdən əvvəl ABŞ Konqresinin liderləri ilə danışıqlar aparıb və Arlinqton Milli Qəbiristanlığına əklil qoyulmasında iştirak edib.

***M.HACIXANLI, "Xalq qəzeti"***

# Makron Tokioda NATO ofisinin açılmasını istəmir

**Fransa Tokioda NATO ofisinin açılmasına qarşı çıxıb. Fransa Prezidenti Emmanuel Makron bildirib ki, əgər Tokioda NATO ofisi açılarsa, bu, Asiya dövlətləri və ilk növbədə Çinlə münasibətləri gərginləşdirəcək. O, diqqəti Şimali Atlantika regionuna yönəltməyə çağırıb.**

Qeyd edib ki, təşkilatın fəaliyyət sərhədləri nizamnamə ilə müəyyən edilir. "Əgər NATO-nu əhatə dairəsini və coğrafiyasını genişləndirməyə sövq etsək, böyük səhv etmiş olarıq".

Fransa Prezidenti Çinin Rusiyaya yaxınlaşaraq onu silahla təchiz etməyə başlayacağından ehtiyat edir.

Alyansın Asiyada ilk nümayəndəliyinin açılması ilə bağlı qərar isə Vilnüsdə iyulun 11-12-də keçiriləcək sammitdə qəbul edilə bilər. Forumda Yaponiyanın Baş naziri Fumio Kişidanın şəxsən iştirakı planlaşdırılır.



Lakin Parisin mövqeyi danışıqları çətinləşdirir, çünki bütün NATO üzvlərinin yekdil razılığı lazımdır. Beləliklə, Fransa bu hərəkəti əngəlləyə bilər.

***Ə.PÜNHAN, "Xalq qəzeti"***

# "Azərbaycan dramaturgiyası və milli teatr"

**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan milli teatrının yaradılmasının 150-ci ildönümünə həsr olunmuş "Azərbaycan dramaturgiyası və milli teatr" mövzusunda respublika elmi konfransı keçirildi.**



Tədbir iştirakçıları əvvəlcə görkəmli dramaturqlar Hüseyn Cavid və Cəfər Cabbarlının yaradıcılığından bəhs edən sərgi ilə tanış olublar.

Konfransı Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru akademik Rafael Hüseynov açaraq Azərbaycan milli teatrının və dramaturgiyasının tarixindən, keçdiyi inkişaf yolundan söz açıb. Akademik bildirib ki, Azərbaycan dramaturgiyası və milli teatrı hər bir azərbaycanlı, eyni zamanda, tariximiz və mənəviyyatımız üçün yüksək məna və dəyər daşıyır. Çünki peşəkar tariximizin yaşı ilk afişadan götürülsə də əslində Azərbaycan teatrının yaşı daha qədimdir. Meydan tamaşalarından tutmuş, xalq arasındakı müxtəlif kütləvi tamaşa növlərindən başlamış milli teatrımız özünəməxsus tərzdə inkişaf edib.

Rafael Hüseynovun sözlərinə görə, Azərbaycan peşəkar teatrının yarandığı 1873-cü il mədəniyyət hadisəsi Avropa üslublu teatr tariximizin başlanğıc dövrüdür. Lakin Azərbaycanda hələ orta əsrlərdə Yaxın Şərqdə olduğu kimi, imam Hüseyn müsibətini səhnələşdirən şəbih tamaşaları göstərilirdi. Akademik onu da əlavə edib ki, Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərini bu mənada Kərbəla hadisələrindən bəhs edən xüsusi bir ssenari hesab etmək olar. Ərəb və farsdilli mənbələrdə bu mövzuda yazılmış əsərlərdən fərqli olaraq ustad Füzulinin yaratdığı poemada həmin faciənin türkmənşəli tarixi qəhrəmanlarının da obrazları yer alır.

R.Hüseynov dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun"dan "Koroğluya" qədər" məqaləsinə istinad edərək xalq musiqisi əsasında yazılmış "Leyli və Məcnun" operasından Avropa üslubunun tələblərinə cavab verən "Koroğlu" operasına qədərki inkişaf dövrünü Azərbaycan operasının otuz illik yüksəliş çağı olduğunu qeyd edib.

Akademik R.Hüseynov Azərbaycan dramaturgiyasının da inkişaf mərhələlərindən bəhs edərək, rus, Avropa ədəbiyyatına yaxından bələd olmuş Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və digər ədiblərimizin zəngin dramaturji irsini teatr sənətinin vüsəti adlandırıb. Azərbaycan dramaturgiyasının şərəfli tarixinə nəzər salan R.Hüseynov Hüseyn Cavidin və Cəfər Cabbarlının yaradıcılığından söz açıb. Zəngin Azərbaycan dramaturgiyasının inkişafında bu böyük mütəfəkkirlərin xüsusi rolu olduğunu vurğulayıb. Qeyd edib ki, Hüseyn Cavid Azərbaycan poetik teatrının təməlini qoyan bir şəxsdir, Cəfər Cabbarlı isə müasir Azərbaycan dramaturgiyasının yaradıcısı idi.

Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova rəhbərlik etdiyi mədəniyyət ocağının yaranma tarixindən və fəaliyyətindən söz açıb.

Konfransın plenar iclasında AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsinin müdiri filologiya elmləri doktoru, dosent Nərgiz Hacıyevanın "Azərbaycan dramaturgiyasında tələffüz məsələləri", Azərbaycan Dillər Universitetinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Vüsalə Ağabəylinin "Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin yaradıcılığında gender problemi", Nizami Muzeyinin əməkdaşı Zarema İbrahimovanın "Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin dəyişilən ekspozisiyasında Azərbaycan teatrının əksi keçmişdə və indi" mövzusunda məruzələri dinlənildi.

Elmi konfransın "Azərbaycan teatr tarixi muzey arxivlərində", "Tarixi şəxsiyyətlər dram əsərlərində və teatr səhnəsində", "Teatr tarixi, teatr tənqidi və ədəbi tənqid" və digər mövzuları əhatə edən bölmə iclaslarında ən müxtəlif elm, təhsil, mədəniyyət ocaqlarından daxil olmuş məruzələr təqdim edildi.

Sonda konfransda çıxış edən məruzəçilərə sertifikatlar təqdim olundu.

***Qabil YUSİFOĞLU, "Xalq qəzeti"***

# "Fintex sammit 2023 – Maliyyə və texnologiyalar"

**Bakıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan "Fintex sammit 2023 – Maliyyə və texnologiyalar sərgisi" keçiriləcək. Bu barədə Mərkəzi Bankın məlumatında bildirilir.**

Azərbaycan Banklar Assosiasiyası və Mərkəzi Bankın təşkilatçılığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Azərbaycan Fintex Assosiasiyasının dəstəyi və VİSA şirkətinin qlobal tərəfdaşlığı ilə iyunun 13-14-də "Fintex sammit 2023" (Maliyyə və texnologiyalar sərgisi) "Bank və Maliyyə Ekosistemində Yeni Trendlər: İnnovativ Həllər, Fintex və Təhlükəsizlik" adlı sammit keçiriləcək.

Müvafiq dövlət qurumları, banklar və ödəniş ekosistemində təmsil olunan təşkilatlarla yanaşı, beynəlxalq maliyyə institutlarının, yerli və xarici ictimai təşkilatların, habelə xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin nümayəndələrinin iştirak edəcəyi bu tədbirdə Türkiyə, Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, Yaxın Şərq və digər ölkələrdən 200-ə yaxın beynəlxalq təşkilatların və nüfuzlu şirkətlərin nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Məlumatda qeyd edilir ki, 2 gün davam edəcək sammit maliyyə texnologiyaları, rəqəmsallaşma, ödəniş ekosisteminə dair fikir və təcrübə mübadiləsi üçün platforma olmaq məqsədi daşıyır. Bu platforma yeni maliyyə və bankçılıq məhsullarının, innovativ ödəmə həllərinin, rəqəmsal valyutaların, banklar və fintexlərin əməkdaşlıq imkanlarının və belə yeni texnologiyaların geniş vüsət alması ilə paralel yarana biləcək təhlükəsizlik çağırışlarının müzakirəsinə imkan yaradan məkandır.

Sammit 8 paneldən ibarət olmaqla, "Müasir bankçılıq və maliyyə ekosisteminin inkişafında ümummilli lider Heydər Əliyevin rolu", "Gələcək: rəqəmsal bank", "Ayrılmaz ekosistemlər: bankçılıq və texnologiya", "Ödənişlərdə növbəti böyük partlayış (BIG BANG)", "Komplayns üçün rəqəmsal həllər", "Super bank tətbiqləri, yaxud super fintex xidmətləri", "Kibertəhlükəsizlik" və "ESG üçün faydalı olan sektor üçün faydalıdır" kimi mövzuları əhatə edəcək.

Sammit çərçivəsində iyunun 13-də "Türkdilli Dövlətlərin Banklar Assosiasiyaları Şurası"nın ikinci iclası baş tutacaq. 2022-ci ilin noyabr ayında yaradılan və ikinci iclası Bakıda keçiriləcək şuranın iclasına üzv ölkələr olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və qonaq qismində Macarıstan, Şimali Kipr Banklar Assosiasiyasının rəhbərləri və nümayəndələri qatılacaq.

Bundan əlavə, sammit çərçivəsində Azərbaycan Banklar Assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası (IFC), "Türk Katılım Banklar Birliği" və Macarıstan Banklar Assosiasiyası arasında əməkdaşlığa dair sənədlər imzalanacaq. 1200 iştirakçının qatılacağı sammitdə 50-yə yaxın spikerin əlaqədar mövzularda çıxış etməsi gözlənilir.

***"Xalq qəzeti"***

ÜÇÜNCÜ BİLDİRİŞ

# LPO "Günay Bank" ASC də qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi barədə məlumat

Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-3(103)-42/2023 nömrəli, 18 may 2023-cü il tarixli qərarı ilə "Günay Bank" ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi təyin edilmişdir. Həmçinin, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq "Günay Bank" ASC-də sığorta hadisəsi günü 18 may 2023-cü il müəyyən edilmişdir.

Bildiririk ki, kompensasiyaların ödənilməsi "Bank Respublika" ASC vasitəsilə 19 iyun 2023-cü il tarixdən başlayaraq həyata keçiriləcəkdir. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 28.3-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir.

Qorunan əmanətçilər əmanət hesabları üzrə hesabdan çıxarışları ləğv prosesində olan "Günay Bank" ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi 45 ünvanında yerləşən baş ofisindən əldə edə bilərlər.

Əmanətçilərdən kompensasiyaların alınması üçün "Bank Respublika" ASC-nin istənilən filial və şöbələrinə müraciət edərkən kompensasiyaların ödənilməsi prosedurlarına uyğun olaraq ərizəyə əmanət müqaviləsi, əmanət kitabçası, yaxud qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmanəti təsdiqləyən digər sənədlər və onların surəti, habelə əmanətçinin şəxsiyyətini təsdiq edən sənədin təqdim edilməsi xahiş olunur. Həmçinin bildiririk ki, kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, qeyd edilən sənədlərlə yanaşı əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni təqdim etməlidir.

Qorunan əmanətçilər ərizə formalarını 19 iyun 2023-cü il tarixdən etibarən "Bank Respublika" ASC-nin filial və şöbələrindən, eyni zamanda ƏSF-nin www.adif.gov.az saytından əldə edə bilərlər. Kompensasiyaların ödənilməsi "Bank Respublika" ASC-nin bütün filial və şöbələri tərəfindən həyata keçiriləcəkdir.

Məlumat üçün qeyd edək ki, əmanətlər "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kompensasiya olunacaq. Belə ki, sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 (bir yüz) min manatdan çox olmamaqla, fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə kompensasiya məbləği 20 (iyirmi) min manatdan çox olmamaqla, notariusların depozit hesablarında olan fiziki şəxslərə məxsus pul vəsaitləri üzrə kompensasiya isə həmin pul vəsaitlərinin 100 faizi həcmində ödəniləcəkdir.

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

***www.adif.gov.az***

Region xəbərləri

# Naxçıvanda taxıl biçini



**İyunun 9-da muxtar respublika üzrə mövsümün ilk taxıl biçininə Ordubad rayonunun Dəstə kəndindən başlanılıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Dəstə kəndində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.**

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov, Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev, Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev və kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova biçinə hazırlıq barədə məlumat veriblər.

Bildirilib ki, taxıl biçininin idarə olunması üçün Kənd Təsərrüfatı Nazirliyində qərargah yaradılıb. Biçinin vaxtında və yüksək səviyyədə aparılması məqsədilə texnika və avtomobillər saz vəziyyətə gətirilib. Biçin dövründə sahələrdə yanğın təhlükəsizliyinin etibarlı təmini ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qrupları xidmət aparır.

Ümumilikdə, bu il muxtar respublikada 21 min 247 hektar sahədə taxıl əkilib. Onun 485 hektarını yaz əkinləri təşkil edir. Ordubad rayonu ərazisində isə 856 hektar sahədə taxıl əkini aparılıb ki, bunun da 85 hektarı buğda, 771 hektarı arpa əkinləridir. Təkcə Dəstə kəndində 389,45 hektar sahədə payızlıq taxıl əkini aparılıb ki, bunun 9,5 hektarı buğda, 379,95 hektarı isə arpa olub.

Səlahiyyətli nümayəndə taxılçılara və mütəxəssislərə müvafiq tapşırıq və tövsiyələrini çatdırıb.

Sonra fermer Zamin Hüseynovun əkin sahəsində taxıl biçininə başlanılıb.

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Gəncədə İtaliya traktorları yığılacaq

**Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin rəhbərliyi təkcə Avropada deyil, həm də dünyanın kənd təsərrüfatı bazarında öz keyfiyyəti və davamlılığı, yüksək məhsuldarlığı ilə seçilən traktorlarların istehsalçısı olan İtaliyanın "SDF groupu"nda rəsmi səfərdə olub.**



Müəssisənin mətbuat xidmətindən verilən məlumata görə, birliyin müşahidə şurasının sədri Xanlar Fətiyevin rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyanın Treviglio şəhərində "SDF qroup"un istehsal etdiyi texnikalara baxıb, onların keyfiyyəti və yığım şəraiti ilə yaxından tanış olub. Şirkət rəhbərliyi ilə keçirilən görüş zamanı uzunmüddətli əməkdaşlıq şərtləri müzakirə edilib.

Söhbət zamanı qeyd olunub ki, "SDF qroup"un istehsal etdiyi kənd təsərrüfatı texnikalarına Azərbaycanda olan marağı nəzərə alaraq bir müddət əvvəl Gəncədə ilkin əməkdaşlıq müqaviləsi imzalanıb. Müqavilənin şərtlərinə görə, Gəncə müəssisəsi bir sıra modellərin yığımını həyata keçirə bilər.

İtaliyada, şirkətin ofisində bağlanan bu dəfəki uzunmüddətli əməkdaşlıq müqaviləsini Gəncə avtomobil zavodu İB-nin müşahidə şürasının sədri Xanlar Fətiyev və "SDF qroup"un kommersiya direktoru Alessandro Maritano imzalayıblar. Müqavilə Gəncə Avtomobil Zavoduna burada yığılan ttaktorların Azərbaycan bazarı ilə yanaşı, üçüncü ölkələrə satmaq hüququ da verəcək.

Xanlar Fətiyev qısa açıqlamasında demişdir:

– Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi avtomobillərin və kənd təsərrüfatı texnikalarının yığımı sahəsində yetərincə ixtisaslaşmış bir müəssisədir. Zavodun həm texniki şəraiti, həm də kadr potensialı istənilən modelin yığımını həyata keçirməyə imkan verir. İtalyan şirkətinin müxtəlif modifikasiyalarda olan traktorları da hesab edirəm ki, müəssisəmizdə çox yüksək səviyyədə yığılacaq və Azərbaycan bazarında böyük marağa səbəb olacaq.

Hələlik ilkin mərhələdə 3 modelin yığılması nəzərdə tutulur. Lakin gələcəkdə bazarın tələbinə uyğun olaraq digər müxtəlif model traktorların da yığılması nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, 2004-cü ildən fəaliyyətə başlayan Gəncə Avtomobil Zavodu indiyədək 15 minə yaxın müxtəlif modeldə traktor, 5 mindən çox müxtəlif markalı yük avtomobili yığıb və satışını həyata keçirib.

# Göygöl rayonunda uşaq festivalı

**Bu festivalın sorağı ona görə hər yerə yayıldı ki, uşaqların geyimlərindən tutmuş rəqslərinə, idman yarışlarına, əl işlərinə, rəsmlərinə kimi olduqca təbii və baxımlı idi. Hiss olunurdu ki, göygöllü uşaqlar öz məharətlərini göstərmək üçün belə bir fürsəti əldən vermək istəmirlər.**



Müəllimlərin, tərbiyəçilərin, məşqçilərin, bir sözlə, uşaqların festivala daha yaxşı hazırlaşmaları üçün əziyyət çəkənlərin hamısının imtahanı idi həmin gün. Valideynlərin isə əhval-ruhiyyəsi bir bambaşqa idi. Onlar üçün öz övladlarının qabiliyyətini, istedadını, bacarığını kənardan müşahidə etmək çox xoş idi.

Rayon rəhbərliyinin festivala dəstək verməsi, lazımi şərait yaratması və köməklik göstərməsi də göz qabağında idi. Uşaq bayramı özünün rəngarəngliyi, mütəşəkkiliyi və möhtəşəmliyi ilə yadda qaldı. Rayon icra hakimiyyətinin başçısı Eivin Paşayevin fərqlənənləri mükafatlandırması, hədiyyələr verməsi, burada iştirak edən hər bir uşağa diqqət yetirməsi festivalın ruhunu bir qədər də canlandırdı.

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Səmərqənddə Azərbaycan Fondu yaradılacaq

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Səmərqənddəki Puşkin adına regional kitabxana-informasiya mərkəzinə zəngin kitab kolleksiyası hədiyyə edib.**



Kitabxananın oxu zalında Mədəniyyət Mərkəzi tərəfindən hədiyyə olunan kitabların sərgisi açılıb və bir ay ərzində həmin nəşrlərin sərgilənməsi nəzərdə tutulub. Səmərqənd regional kitabxana-informasiya mərkəzinin direktoru Zebinisa Şodieva ilə AMM-nin direktoru Samir Abbasov arasında görüş keçirilib. Səmərqənd kitabxana mərkəzi ilə Azərbaycan kitabxanaları arasında əməkdaşlıq məsələləri, birgə layihələrin həyata keçirilməsi, kitabxanada Azərbaycan fondunun yaradılması müzakirə edilib və bu barədə razılıq əldə olunub.

Sonra qonaqlar üçün kitabxanaya ekskursiya təşkil olunub, Zebinisa Şodieva AMM ilə sıx əməkdaşlıq edildiyini və hər il mərkəz tərəfindən kitabxanaya Azərbaycana dair nəşrlərin hədiyyə olunduğunu bildirib. S. Abbasov Özbəkistanın kitabxana fondlarında Azərbaycana dair nəşrlərin zənginləşdirilməsi istiqamətində mühüm layihələrin həyata keçirildiyini, bugünə qədər Mədəniyyət Mərkəzi tərəfindən minlərlə kitabın Özbəkistan kitabxanalarına hədiyyə edildiyini deyib. Rəhbərlik etdiyi Mərkəzin layihəsi ilə Azərbaycana dair 100-dən şox əsərrin özbək dilinə tərcümə və Daşkənddə çap edildiyini söyləyən Samir Abbasov Nəvai adına Özbəkistan Milli Kitabxanasında da Azərbaycan Fondunun təşkil edildiyini vurğulayıb.

**Qulu KƏNGƏRLİ,**
**"Xalq qəzeti"**

**Daşkənd**

YENİ FİLMLƏR

**Bugünlərdə Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Millət naminə. Əbdül Kərim bəy Mehmandarov" sənədli filminin təqdimatı keçirildi.**

Filmin nümayişindən əvvəl Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev yeni ekran əsəri barədə məlumat verərək bildirdi: "Mehmandarovlar nəslinə həsr olunan bu film tarixi-publisistik səpkidə çəkilib, özünəməxsusluğu ilə seçilir. Prodüseri Nazim Hüseynov, rəssamı Rafiq Nəsirov, bəstəkarı Azər Hacıəsgərli olan sənədli filmin çəkilişləri Bakıda və Şuşada aparılıb. Tarixi mövzuda sənədli film çəkmək çətin olsa da rejissor burada oynaması, eləcə də 1905-1906-cı illərdə ermənilərin törətdiyi qırğınlara qarşı şuşalıların mütəşəkkil qaydada müqavimət göstərməsində, xalqın səfərbər edilməsində və Difai təşkilatının yaradılmasında müstəsna xidmətləri əksini tapır".

Sonra "Millət naminə. Əbdül Kərim bəy Mehmandarov" filmi nümayiş olundu.

Mehmandarovlar barədə çoxillik araşdırmaları ilə tanınan tədqiqatçı-jurnalist Vasif Quliyev qəzetimiz üçün qısa müsahibəsində dedi:

# "Millət naminə. Əbdül Kərim bəy Mehmandarov"




özünəməxsus forma tapa bilib. Eyni zamanda, ekran əsərinin simvolik sonluğu var. Əminəm ki, bu film milli kinematoqrafiyada öz layiqli yerini tutacaq".

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Mehmandarovlar soyunun nümayəndəsi Mustafa Mehmandarov təqdimatdan məmnunluğunu bildirərək, filmin yaradıcı heyətinə təşəkkür edərək dedi: "Mehmandarovların irsinə və xatirəsinə göstərilən layiqli diqqətə görə bu nəsilin nümayəndələri adından Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya sonsuz minnətdarlığımı bildirirəm. Mehmandarovların Şuşada olan malikanə kompleksi misilsiz və gözəl şəkildə bərpa edilib.Bu film isə Azərbaycan kubarlığının yurdsevər bir nəsli olmuş Mehmandarovları xalqımıza tanıtmaq işinə dəyərli töhfədir".

AMEA Tarix İnstitutunun direktoru professor Kərim Şükürov, filmin ssenarisinin və "Mehmandarovlar" kitabının müəllifi, "Şuşa" qəzetinin baş redaktoru Vasif Quliyev, ekran əsərinin rejissoru, Əməkdar incəsənət xadimi Yavər Rzayev Mehmandarovların milli-mənəvi dəyərlərimizə sıx bağlılığı və vətən sevgisi haqqında danışdılar.

Bildirildi ki, filmdə Qarabağ hökmdarı İbrahimxəlil xanın mehmandarı Mirzə Əli bəy tərəfindən əsası qoyulmuş, daha sonra Şuşada və Azərbaycanın digər bölgələrində məskunlaşan Mehmandarovlardan bəhs edilir: "Mehmandarovlar XIX-XX əsrlərdə Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus rol oynayıblar. Filmdə Peterburq Tibb-Cərrahlıq Akademiyasının məzunu Əbdül Kərim bəy Mehmandarovun həkimlik fəaliyyəti ilə yanaşı, Qarabağın və ümumilikdə Azərbaycanın tarixində əhəmiyyətli rol

–Mehmandarovların bioqrafiyasının filmə gətirilməsi ssenari müəllifi kimi məni çox sevindirir. Bu nüfuzlu və qeyrətli şəcərənin tanınmış nümayəndəsi Kərim bəyin həyat və fəaliyyəti xalqa xidmətin indiki nəsillərə ornək olan parlaq nümunəsidir.

Ümumiyətlə, Qarabağın köklü və tanınmış sülalələrinin tarixcəsinin yazılması, bu barədə filmlər çəkilməsi olduqca gərəklidir. Mən bu işə öz töhfəmi vermək üçün üzün illər müxtəlif qaynaqlardan–ailə saxlanclarından, arxivlərdən, rusdilli və anadilli mətbuatın səhifələrindən sənədlər, yazılar, xatirələr, şəkillər tapıb-toplamışam. Ötən illərdə silsilə məqalələr yazmışam, ayrıca kitab hazırlamışam. Odur ki, bu mövzuda filmin ssenarisini ərsəyə gətirmək o qədər də çətin olmadı.

Bu gün təqdim edilən film bu dəyərli nəsilin bitkin bioqrafiyasını və ictimai-mədəni fəaliyyətini öyrənmək baxımınan deyil, həm də Qarabağın və dövlət müstəqilliyini itirdikdən sonra onu iki dəfə bərpa etməyə nail olmuş Azərbaycanın son iki yüzillik həyatının bir çox məqamlarını öyrənməklə bağlı da olduqca qiymətli bir xronikadır.

Filmdə Mehmandarovlar sülaləsinin mənşəyi, Qarabağ xanlığının idarə edilməsində rolu, onların rus işğalından sonrakı dövrdə soy-kökdən gələn bacarıqları, təhsil və elmlərə yiyələnmək yolu ilə milli genefondun inkişafında seçilən rol oynamaları aparıcı yer tutur. Əbdül Kərim Mehmandarov barədə geniş məlumat və tarixi-etnoqrafik səciyyələndirmə bu nəsilin xalqımızın milli-mədəni həyatında oynadığı xüsusi rolu və xidmətlərinin çəkisini dolğun təsəvvür etməyə imkan yaradır.

***T.AYDINOĞLU, "Xalq qəzeti"***

# Ordu və milli-mənəvi dəyərlər



**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, hərbi qulluqçulara vətənpərvərlik hissinin aşılanması məqsədilə həyata keçirilən tədbirlər davam edir.**

Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin, eləcə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri "N" hərbi hissəsində olub, hərbi qulluqçularla görüşüblər.

Tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərlə onların xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlıqlarının qorunması məqsədilə söhbətlər aparılıb, lazımi tövsiyələr verilib.

Həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti şəxsi heyətin diqqətinə çatdırılıb.

Sonda hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

# Qələbə soraqlı idmançılarımız

## Onların uğurları "Berlin-2023"də davam edəcək

**Azərbaycan Xüsusi Olimpiya Komitəsinin (XOK) komandası ciddi sınaq qarşısındadır. Sağlamlıq imkanları məhdud idmançılarımız iyunun 18-də Almaniyanın Berlin şəhərində start götürəcək dördilliyin nüfuzlu yarışlarından biri Dünya Xüsusi Yay Olimpiya Oyunlarında mübarizə aparacaqlar. Uzun aylar, illər yorulmadan çalışaraq idman bacarıqlarını artıran, hədəfə çatmaq üçün bütün maneələri aşmağa nail olan təmsilçilərimiz bu dəfə də sübut etməyə çalışacaqlar ki, idman heç bir əngəl tanımır.**

SPECIAL OLYMPICS WORLD GAMES BERLIN 2023



Onlar "Berlin-2023"də istər Qış, istərsə də Xüsusi Yay Olimpiya Oyunlarında qazandıqları böyük uğurların davamını gətirməyə çalışacaqlar. Berlinin Olimpiya stadionunda keçiriləcək mötəbər yarışda komandamız idmanın 10 növü üzrə 72 nəfərdən ibarət heyətlə təmsil olunacaq. Bədii gimnastımızın isə ilk dəfə Olimpiadada təmsil olunacağını xüsusi vurğulamalıyıq.

XOK-un sədri Şahin Əliyev "Xalq qəzeti"nə açıqlamasında atletlərimizin yarışa yaxşı hazırlaşdıqlarını bildirdi: "Xüsusi olimpiyaçılarımız atletika, badminton, basketbol (qızlar), cüdo, bədii gimnastika, həndbol (qızlar), pauerliftinq, stolüstü tennis, üzgüçülük və voleybol (oğlanlar) idman növlərində mübarizə aparacaqlar. Oyunların açılış mərasimi iyunun 17-də, bağlanışı isə 25-də olacaq.

Qarşıya duran əsas məqsədimiz komandamızın uğurlu çıxışını təmin etməkdir. Bununla bağlı bütün tədbirlər görülüb. İdmançılarımız yaxşı formadadırlar. Ümid edirik ki, nəticələr də yaxşı olacaq". Bundan əvvəl Dünya Xüsusi Olimpiya Oyunları Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilib. Həmin yarışda 54 idmançı ilə təmsil olunan Azərbaycan yığması atletika, pauerliftinq, cüdo, stolüstü tennis, badminton, futbol, həndbol, basketbol, voleybol və üzgüçülük idman növlərində mübarizə aparıb. Yüksək potensial və böyük əzmkarlıq nümayiş etdirən idmançılarımız 6-sı qızıl, 10-u gümüş, 8-i bürünc olmaqla 24 medal qazanıblar.

Qeyd edək ki, Beynəlxalq aləmdə "Special Olympics" (Speşial Olimpiks) adı ilə tanınan Xüsusi Olimpiya hərəkatının əsasını 1963-cü ildə ABŞ Prezidenti Con Kennedinin bacısı Yunis Kennedi-Şrayver qoyub. Hər şey əqli imkanları məhdud olanlar üçün onun evində idman-sağlamlıq düşərgəsinin təşkilindən başlayıb. Onların futbol oynamaqda, qaçmaqda və üzgüçülükdə göstərdikləri məharət və fəallıq tezliklə bütün dünyanın diqqətini cəlb edib və bütün bunlar əqli imkanları məhdud olanlara qarşı ictimai fikrin tam dəyişməsinə səbəb olub.

1968-ci ildə Çikaqoda ilk Dünya Xüsusi Yay Olimpiya Oyunları keçirilib. Xüsusi Olimpiya Komitəsinin Baş Qərargahı ABŞ-ın paytaxtı Vaşinqton şəhərindədir. Azərbaycan Xüsusi Olimpiya hərəkatına 1990-cı ildən etibarən qoşulub. Komitə 1993-cü ildən etibarən Beynəlxalq Xüsusi Olimpiya və Avropa/Avrasiya Komitəsinin üzvüdür.

Xüsusi Olimpiya hərəkatında əsas məqsəd xüsusi olimpiyaçıların məhz böyük idmanla deyil, kütləvi idmanla məşğul olmasını təmin etməkdir. Təsadüfi deyil ki, xüsusi Olimpiya hərəkatının devizi "Mənə imkan verin, mübarizə aparıb qalib gəlim. Qalib gələ bilməsəm də hər yarışdan sonra cəsarətli olum", – fikridir. Bu şüar belə insanların nə qədər həssas münasibətə ehtiyac duyduqlarını və qabiliyyət uğrunda mübarizə aparmalarının əsl qəhrəmanlıq olduğunu aydın göstərir.

Bəli, heç bir maneə tanımadan böyük əzmkarlıqla mübarizə apararaq qələbə qazanmaq üçün fədakarlıq göstərən idmançıların hər biri qalibdir! Qələbə soraqlı idmançılarımızdan uğurlar gözləyirik!

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# "GÖZDE" SURSATI İLƏ İLK ATƏŞ

**Türkiyə Müdafiə Sənayesi nazirinin başçılığı (SSB) ilə imzalanan Müasir Sursat Təchizat Layihəsi çərçivəsində təslim ediləcək "GÖZDE" təlimat dəsti seriya istehsala hazırdır.**



"TÜBİTAK SAGE" ilə ortaq şəkildə hazırlanmış" GÖZDE" bələdçi dəsti 500 lb, öz sinfində olan "MK-82" markalı ümumi təyinatlı bombaları "INS/GPS" və Lazer Axtarış Başlı (LAB) idarə olunan sursatlara çevirir, sabit və yüksək sürətlə hərəkət edən (50 -120 km/saat) hədəfləri dəqiq vurmağa imkan verir.

"GÖZDE" sursatlarının uçuş sınaqları tamamlanmış ,"F-16" və "AKINCI SİHA" platformalarından ilk atış sınaqları həyata keçirilmişdir. Atış testlərində hədəf yüksək dəqiqliklə vurulmuşdur. Hazırda "GÖZDE" bələdçi dəstinin seriya istehsalı davam edir." F-16" sertifikat testləri çərçivəsində Konya Karapınar Atıcılıq Poliqonunda atışlar uğurla həyata keçirilmişdir. SSB, Hava Qüvvələri Komandanlığı, "ASELSAN" və TÜBİTAK SAGE" nümayəndələrinin qoşulduqları fəaliyyətdə, "ANS" idarəolunan dəstli bomba izləmə təyyarəsi tərəfindən lazerlə işarələnmiş hədəfi tam dəqiqliklə vurmuşdur.

"GÖZDE" uğurlu atış sınaqlarından sonra "AKINCI" platformasına inteqrasiya edilib. "GÖZDE-ANS", "MK-82(500 lb)" ümumi təyinatlı bombaları "ANS/Lazerlə" idarə edən bir dəstdir və lazer axtarış başlığı sayəsində hərəkət edən hədəflərə qarşı da səmərəli işləyir.

"ASELSAN "ın idarə heyətinin sədri və baş direktoru professor , doktor Haluk Görgün qeyd etmişdir ki , bu sınaq ölkəmizə əhəmiyyətli bir üstünlük verəcəkdir. "GÖZDE" sursatının uçuş sınaqlarının uğurla həyata keçirildiyini bildirən Haluk Görgün, "ilk atış sınaqlarında 28 min 500 fut yüksəklikdən 0,9 mach sürətlə atılan" GÖZDE-ANS" idarəedici dəstli bomba 13 kilometr uzunluğunda məsafədən hədəfi vurmuş və bu da izləyici təyyarə tərəfindən lazerlə işarələnilmişdir. "F-16" sertifikat testləri çərçivəsində davam edən fəaliyyətlər zamanı 40 min fut hündürlükdən 0,9 mach sürətlə atılan başqa bir "GÖZDE-ANS" idarəedici dəst bombası 21 kilometr uzunluğunda məsafədən lazer işarəsi ilə hədəfi vurmuşdur. İzləyici təyyarə tərəfindən lazerlə işarələnmiş diapazonda "GÖZDE-ANS", "MK-82(500 lb)" markalı ümumi təyinatlı bombaları "ANS/Lazerlə" idarə edən və "F-16 " təyyarələrindən 40 min fut hündürlükdən atıldıqda 28 kilometr uzunluğunda məsafədəki hədəfləri yüksək dəqiqliklə vurmaq qabiliyyətinə malik olan dəstdir.


## "Bakı Mexaniki-Təmir" ATSC səhmdarlarının nəzərinə!

11 iyul 2023-cü il saat 16.00-da "Bakı Mexaniki-Təmir" ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

2.Maliyyə-təftiş komissiyasının hesabatı.

3.Digər məsələlər.

Telefon- 050-216-30-52.

Ünvan-Bakı, Keşlə qəsəbəsi, A.Mirzəyev küçəsi 60.

***İdarə heyəti***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının şifrə siyasətinin təkmilləşdirilməsi sisteminin (SpecOps) lisenziyasının satın alınması ilə əlaqədar elan edilmiş və elektron satınalma prosedurları ilə keçirilmiş kotirovka sorğusu üzrə satınalmalar komissiyasının 31 may 2023-cü il tarixli qərarına əsasən "JET İNFORMASİYA SİSTEMLƏRİ" MMC qalib elan olunmuş və həmin cəmiyyətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankı idarə heyətinin 7 iyun 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 2** nəfər fiziki şəxsə **sığorta vasitəçiliyi** fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların

**SİYAHISI**

| № | Lisenziya sahiblərinin adları | Fəaliyyət növü | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|---|
| 1 | Hüseynov Məmmədəli Yaşar oğlu | Sığorta brokeri | 22.06.2009 | 000182 | 1001623482 |
| 2 | Namazov Oruc Şöhrət oğlu | Sığorta agenti | 09.03.2023 | SA-0282 | 2906309872 |

**İDMAN ALƏMİNDƏ**

# "Əziz Şuşa": İtaliyalı Emanuele Ansolini liderdir

**Gənclər və İdman Nazirliyi və Azərbaycan Velosiped Federasiyasının birgə təşkil etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa" beynəlxalq velosiped yarışının üçüncü mərhələsi başa çatıb.**



Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürən yarışda velosipedçilər Qəbələ-Ağdaş-Mingəçevir-Gəncə marşrutu üzrə 170 kilometr məsafə qət ediblər. Gəncənin mərkəzinə hamıdan tez çatan belçikalı velosipedçi Yari Verstraeten qalib adını qazanıb. İkinci yeri Rumıniya millisinin üzvü Mixnea-Aleksandru Harasim tutub. Üçüncü pillədə isə qazaxıstanlı Anton Kuzmin qərarlaşıb.

İlk üç turdan sonra ümumi sıralamada italiyalı idmançı Emanuele Ansolini liderdir.

Qeyd edək ki, Bakıdan Şamaxıya qədər olan birinci mərhələni bolqarıstanlı Martin Papanov, Qəbələ-Şəki-Qəbələ marşrutunu əhatə edən ikinci mərhələni isə niderlandlı Luk Şurmans qazanıb.

Yarış iyunun 11-dək davam edəcək.

# "Paris-2024"ün məşəli apreldə alovlandırılacaq

**"Paris-2024" Olimpiadasının məşəlinin alovlandırılması mərasiminin vaxtı bəlli olub.**



Mərasim gələn il aprelin 16-da Yunanıstanın Olimpiya şəhərində təşkil ediləcək. Həmin vaxt yarışın açılış mərasiminə 101 gün qalacaq.

Sonra isə estafetə start veriləcək və təxminən bir həftə ərzində Afinaya çatdırılacaq. Məşəlin oradan Aralıq dənizi vasitəsilə üçdirəkli "Belem" gəmisi ilə yola salınması nəzərdə tutulub. Mayın 8-də gəmi Olimpiya Oyunları zamanı futbol və yelkən yarışlarına ev sahibliyi edəcək Marselə çatacaq. Daha sonra məşəl estafeti bütün Fransanı əhatə edəcək.

Qeyd edək ki, "Paris-2024" Yay Olimpiya Oyunlarının açılış mərasimi gələn il iyulun 26-da olacaq.

# Futbolçularımız həmyaşıdlarına məğlub olub



**17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Qəbələdə təlim-məşq toplanışında hazırlıq çərçivəsində ilk yoldaşlıq oyununda iştirak edib.**

Yığmamız Gürcüstanın müvafiq yaş qrupundan ibarət komandasına qarşı oyunda 0:2 hesabı ilə məğlub olub.

Komandalar arasında növbəti qarşılaşma iyunun 11-də baş tutacaq.

# Slovakiyadan gümüş medal

**Azərbaycan atleti Nazim Babayev Slovakiyanın Koşitse şəhərində Dünya Kontinental Turu - Bürünc səviyyədə keçirilən JBL Tullanmalar Festivalında uğurlu nəticə ilə yadda qalıb.**



Atletimiz uzunluğa tullanma üzrə yarışda 7,80 metrlik nəticə göstərib. Bu göstərici ilə yalnız çexiyalı Radek Yuşkadan geri qalan N.Babayev ikinci yeri tutub.

***L.AZAD, "Xalq qəzeti"***


## "EUROPEAN TOBACCO – BAKU" ASC səhmdarlarının nəzərinə!

Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Köndələn küçəsi 21 nömrəli ünvanda yerləşən "EUROPEAN TOBACCO –BAKU "ASC-nin nizamnaməsinin 6.1 və 6.3-cü maddələrinə uygun olaraq səhmdarların növbəti ümumi yığıncağının "Qafqaz Business Center"-də, Bakı, Nərimanov rayonu , Heydər Əliyev prospekti 125 nömrəli ünvanda 18 iyun 2023-cü il saat 10.00-da keçiriləcəyi barədə əvvəlcədən sizə xəbərdarlıq edilmişdir.

Lakin, texniki səbəblərdən iclasın keçiriləcəyi yerin ünvanı dəyişdirildiyindən məlumat üçün bildiririk ki, iclas 2023-cü il iyunun 18-i saat 10.00-da " Wyndham Baku Hoteli" Bakı, Ələsgər Qayıbov küçəsi 12 nömrəli ünvanda keçiriləcəkdir. Həmçinin iclasın gündəliyinə aşagıdakı məsələ əlavə olunmuşdur:

– ASC-nin nizamnamə kapitalının azaldılması.

Növbəti ümumi yığıncagın gündəliyindəki məsələ ilə əlaqədar materiallarla cəmiyyətin ofisində saat 9.00-dan 18.00-dək tanış olmaq mümkündür.

Xahiş olunur ki, yığıncaqda iştirak üçün öz şəxsiyyət vəsiqənizi (nümayəndə qismində iştirak etdiyi tədqirdə isə etibarnaməni) təqdim edəsiniz.

***İdarə heyəti***

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 122 (30238) 10 iyun 2023-cü il, şənbə

veb-sayt: www.xalqqazeti.az

*Sosial şəbəkələrdən seçmələr*




**Tanınmış yazıçı-dramaturq, fəlsəfə elmləri doktoru Firuz Mustafanın sosial şəbəkə dostluğunda 5 minə yaxın izləyici var. Onların çoxu kimi, mən də Firuz müəllimin hər bir yeni paylaşımını maraqla oxuyuram və hər dəfə də onun dəyərli, maarifləndirici fikir və mülahizələrindən zənginləşdiyimi hiss edirəm.**

Qırxa yaxın dramın, onlarla povest və romanın müəlllifi olan F.Mustafa ara-sıra şeirlər də yazır və bəzən onları sosial şəbəklərdə paylaşır. Bu günlərdə müəllifin "Facebook"da oxuculara təqdim etdiyi "Dördlüklər"dən biri marağıma səbəb oldu. Maraqlı idi. İnsana dərin məhəbbətlə qələmə alınan bu şeir parçasında deyilir:

*-Sən zülmət deyəndə nə anlayırsan?*
*-İnsan ürəyidir ən böyük zülmət.*
*-Bəs işıq səninçün nədir, ey insan?*
*-İnsan ürəyidir o işıq, əlbət.*

Həqiqətən, insan ürəyi həm zülmət, həm də işıq ola bilər. Müəllif, əlbəttə, hər birimizə işıq olmağı arzulayır. Niyə də olmayaq?!

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

*Texnologiya yenilikləri*



## Robot dirijorluq edəcək

**Cənubi Koreyada ilk dəfə bir robot konsertdə orkestrə rəhbərlik edəcək. "Ever 6" adlanan robotun paytaxt Seulda keçiriləcək "Absence" şousunu idarə edəcəyi açıqlanıb. Bu barədə "The Korea Times" nəşri məlumat yayıb.**

İyunun 30-da keçiriləcək tədbirdə Koreya Sənaye Texnologiyaları İnstitutu tərəfindən hazırlanmış robot dirijor qismində çıxış edəcək. Konsertdə robot və dirijor Çoi Soo Yeol ayrı-ayrılıqda çıxış edəcək, daha sonra isə iki dirijor konserti birlikdə idarə edəcəklər.

Çoi, robotlar üçün ən böyük problemin qarşılıqlı əlaqə və ünsiyyət olduğunu, bu şou vasitəsilə insanların musiqi sahəsində robot texnologiyalarından üstünlüyünü göstərmək istədiyini bildirib.

Qeyd edək ki, android robotun xarici görünüşü insana bənzəyir. Robot boynunu və qolunu çevik şəkildə istifadə edə bilir.

*Qəribə təsadüflər*

## Mark Tvenin əcəl öncəgörməsi

**Məşhur Amerika yazıçısı Mark Tven 1835-ci ildə Qalley kometinin göründüyü vaxt dünyaya gəlib. Məlum olub ki, 1909-cu ildə komet 75 ildən sonra yenidən Yerin orbitində "zühur edəcək". M.Tven bundan narahat olaraq bəyan edib ki, növbəti ildə komet yenidən peyda olduqda, o da onunla "əbədi aləmə səyahət edəcək".**



Həqiqətən, 1910-cu ildə məhz kometin yenidən peyda olduğu gündə yazıçı qəflətən dünyasını dəyişir. M.Tvenin çox sayda araşdırmaçıları bu gün də bu məsələ ilə bağlı mübahisə edirlər. Bəziləri hətta iddia edirlər ki, böyük yazıçının kosmosla gizli əlaqələri olubmuş. Arqumentləri isə budur ki, belə güclü əsərləri adi bəşər övladı qələmə ala bilməzdi.

Yeri gəlmişkən, M.Tvenin, həqiqətən Amerika ədəbiyyatının yaranması və inkişafında danılmaz xidmətləri olub. Yazıçıının bədii irsi bu günün özündə də dünyada ən çox sevilən və oxunan əsərlər arasındadır.

## İnanılmaz, amma gerçək hadisə…

**Keçən əsrin 30-cu illərində ABŞ-ın Detroyt şəhərinin sakini Cozef Fiqlok bir gün küçə ilə gedirmiş. Bu an onun üstünə çoxmərtəbəli binadan yıxılan 1 yaşında uşaq düşür.**



Məlum olur ki, uşağın anası pəncərəni bağlamağı unudub. Lakin xoşbəxtlikdən Cozef və uşaq ciddi xəsarət almırlar.

Lakin düz bir il keçdikdən sonra yenidən həmin küçədə və eyni yerdə Cozefin üstünə artıq 2 yaşlı həmin uşaq düşür və bu dəfə də xəsarət alan olmur. Unutqan anaya isə qonşuları bərk-bərk tapşırırlar ki, bir də pəncərəni açıq qoyub otaqdan çıxmasın. Ana vəd edir ki, bir də belə hal baş verməyəcək.

Deyilənllərə görə, Detroyt sakini üçüncü dəfə yolunu həmin küçədən salmamağa çalışarmış. Necə deyərlər, başına gələn başmaqçı olar.

## "Ölümdən danışdı, sonra öldü…

**Ötən əsrin ortalarında Cənubi Afrika astronomu 49 yaşlı Dani Dyu Tyua ölümün hər an baş verə biləcəyi barədə məruzə oxuyurmuş.**



Məruzəni bitirdikdən sonra isə cibindən nanəli konfet çıxararaq onu ağzına aparır. Birdən-birə vəziyyəti pisləşir və o, bir neçə dəqiqədən sonra dünyasını dəyişir. Məlum olur ki, onun ölümünə məhz nanəli konfet səbəb olub.

Həmin gün mərhum astronomun məruzəsini canlı dinləyənlər və hadisənin canlı şahidi olanlar ömürlərinin sonuna qədər bu hadisəni unuda bilməyiblər.

Bizdə deyirlər ki, taledən qaçmaq olmaz. Cənubi Afrikada da, yəqin ki, buna bənzər ifadə, yaxud deyim var.

***Təqdim etdi: M.QARAÇAYLI, "Xalq qəzeti"***

## "Cüt bacı"ya necə gedək?

**Bəzən bir foto bir mətn qədər informasiya yükü daşıyır. Qəzetçilər belə illüstrasiyalara adətən "danışan fotolar" deyirlər. Dünən tanınmış jurnalist Aida Eyvazlı özünün "Facebook" səhifəsində bu qəbildən olan bir foto yerləşdirib.**



Aida xanımın həmin foto ilə müşayiət olunan paylaşımında yazılıb: "Gürcüstandakı Araqan çayı. Ağ su ilə qara suya "Cüt bacı" çayı da deyirlər."

Əziz oxucu, insanda bu "Cüt bacı"nı görmək arzusu yaranır. Siz necə düşünürsünüz, oraya getməyə dəyərmi? İnanıram ki, indi çoxlarınızın qəlbindən belə bir nida qopacaq: "Əlbəttə, görməyə dəyər!"

***"Xalq qəzeti"***

## "Twitter"in rəqibi – "Layihə 92"

**Son dövrün gündəmdən düşməyən sosial media tətbiqlərindən biri, şübhəsiz ki, "Twitter"dir. İlon Mask tərəfindən satın alındıqdan sonra, demək olar ki, dəyişən platformaya yeni rəqib hazırlanıb. Xəbəri "reuters.com" saytı verib.**

"Layihə 92" kod adlı sosial media platforması ilk dəfə "Meta" şirkətinin daxili iclasında nümayiş etdirilib. "Twitter"ə bənzəyən yeni platforma, "Instagram"a əsaslanacaq və media protokolu "ActivityPub" tərəfindən dəstəklənəcək.

Hazırda tətbiqin adı dəqiq məlum de-




yil. Lakin, "Threads" olacağı iddia edilir. Bundan əlavə, bəzi məşhurların proqramın inkişaf prosesində ilk istifadəçilərdən olduğu bildirilir.

Qeyd edək ki, "Meta" şirkəti platformanı ən qısa zamanda geniş ictimaiyyətə təqdim edəcək.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

## Əhsən, dərbəndli soydaşımız!

**Bu günlərdə Dərbənddən xoş xəbər almışıq. Azərbaycan əsilli istedadlı rejissor Mirzə Ağa Əsgərov "Dağıstan Respublikasının Xalq artisti" fəxri adına layiq görülüb.**



Sənətkar 1 oktyabr 1959-cu ildə Dərbənddə anadan olub. 1983-cü ildə Həştərxan Dövlət Konservatoriyasında xor dirijoru, xor fənləri müəllimi ixtisası üzrə təhsil alıb. Konservatoriyanı bitirdikdən sonra Dərbənddə Musiqi Texnikumunda dərs deyib. 1986-cı ildən Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində xor dirijorluğu kafedrasında baş müəllim işləyib. 1993-cü ildə pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

Mirzə Ağa Əsgərov 1990-cı ildən professor B.V.Baranovun tövsiyəsi ilə Moskva Dövlət Universitetinin akademik xor kollektivində çalışır. Hazırda xorun baş dirijorudur.

***"Xalq qəzeti"***

## "Avanqard"ın "Disney" şousu

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyasının səhnəsində müasir dövrümüzün ən peşəkar və virtuoz yaradıcı kollektivi olan, hər zaman ilklərə imza atan, "Art-East Media Group"un brendi "Avanqard" kamera orkestrinin təqdimatında nağıl və ən məşhur cizgi filmləri qəhrəmanlarının "Disney" multimedia şousu təqdim olunub.**



"Disney" multimedia şousu özündə bir çox texniki element və bədii həlləri, eləcə də xüsusi effektləri ehtiva edən vahid bir ssenariyə bağlanan, həmçinin şounun bütün elementlərinin ümumi vizual məkanda təcəssüm etdiyi konseptual bir səhnə əsəridir.

Şouda canlı və əsrarəngiz musiqi sədaları altında tamaşaçılarla məşhur qəhrəmanlar arasında təmas yaradılaraq, seyirçilərə nostalji və sehrli anlar yaşadılıb. "Disney" multimedia şousu xüsusi işıqlandırma, musiqi, video kontent, xüsusi effekt, musiqiçi və sənətçilərin perfomanslarının sinxronlaşdırıldığı son illərin ən parlaq və valehedici tamaşasına çevrilib.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

## İstiləşmə xərçəng riskini artırır

**Alimlər qlobal istiləşmənin xərçəngin artmasına səbəb ola biləcəyini deyirlər. Buzlaqların və qarların əriməsi səbəbindən şiş böyüməsinə səbəb olan maddələr havaya və okean sularına qarışır. Sonra isə qida zəncirinə və oradan da insan orqanizminə daxil olaraq xərçəng, ürək xəstəliklərinə və sonsuzluğa yol açır.**



Alimlərin xəbərdarlıqları qlobal istiləşmə, iqlim dəyişikliyi və davamlı üzvi çirkləndirici (DÜÇ) toksinlər arasındakı əlaqəyə dair beynəlxalq araşdırmadan sonra edilib. Mütəxəssislər müəyyən ediblər ki, orta temperaturun artması və digər ekstremal iqlim dəyişiklikləri bütün dünyada insanların DÜÇ-ə məruz qalmasını artırır. DÜÇ illər ərzində buzlaqlarda toplanıb qalır.

BMT-nin Ətraf Mühitin Mühafizəsi Proqramının üzvü Donald Kuperin fikrincə, çox az miqdarda DÜÇ qida zəncirinə qida–istehlakçı əlaqəsi vasitəsilə daxil olacaq. Onlar zaman keçdikcə, daha çox yığılmağa meyillidirlər. Qida zəncirinin sonunda isə insan var. Bəzən ana südündə və qanında da DÜÇ tapılır.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

**Proqnoz**




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən iyunun 10-da Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək. Gecə 17-22°, gündüz 25-30°, bəzi yerlərdə 32° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 757 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 27-32°, dağlarda gecə 7-12°, gündüz 13-18° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## WhatsApp "kanallar"la zənginləşib

**Davamlı olaraq yeniliklərlə gündəmə gələn "WhatsApp" "Kanallar" adlı funksiyasını təqdim edib.**

Onun əsas özəlliyi ailə, dostlar və qrup söhbətlərinin ayrı-ayrı kateqoriyalara bölünməsidir.

Kanallar vasitəsilə mətn, foto, video, hətta, sorğu anketi də göndərmək mümkün olacaq.

Funksiyanın digər özəl xüsusiyyətləri də var. Belə ki, izləyəcəyiniz kanalları seçmək üçün burada hobbilər, idman komandaları və s. kimi kataloqlar da yaradılacaq. Həmçinin e-poçt vasitəsilə göndərilən və ya onlayn paylaşılan dəvət keçid linkləri vasitəsilə ilə də kanallara daxil olmaq mümkün olacaq.




Qeyd edək ki, hazırda aktiv proqramlaşdırma mərhələsində olan bu funksiya yaxın günlərdə istifadəçilərin ixtiyarına veriləcək.

***Fidan SALMANOVA, "Xalq qəzeti"***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5168
SİFARİŞ 1384
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00